بسم الله الرحمن الرحيم

**İslam Araşdırmaları Elmi-Tədqiqat Jurnalı**
**İslam Araşdırmaları İnstitutu Azərbaycan Tələbələrinin Elmi Birliyi**

İslam Araşdırmaları

dördüncü il, yeddinci sayı (payız-qış / 2024)

İslam Araşdırmaları İnstitutu, Azərbaycan bölümü

**İmtiyaz sahibi**: Əl-Mustafa Beynəlxalq Universiteti

Əl-Mustafa Virtual Universiteti İslam Araşdırmaları İnstitutu

və Əl-Mustafa Virtual Universiteti Elmi-Tədqiqat Departamentliyinin birgə əməkdaşlığı ilə

**Məsul müdir**: Höccətülislam Dr. Səid Ərcuməndfər

**Baş redaktor**: PhD. Tofiq Əsədov

**Elmi redaktor**: PhD. Tofiq Əsədov

**Texniki redaktor**: Cəlal Bənitalibi

**Ünvan**: Qum, Cənubi Sahil küçəsi, Mosalladan öncə, 6-cı və 4-cü küçələr arasında
**Poçt qutusu**: 3713913554
**Telefon və faks**: 32114185 - 32613875
**Nömrələr**: elektron çap
**Səhifələrin sayı**:353
**Veb**: www.mou.ir
**E-poçt**: tofiq.asadov1981@gmail.com

Redaksiya heyəti

| | |
|---|---|
| PhD. Tofiq Əsədov | Əl-Mustafa Beynəlxalq Virtual Universiteti İslam Araşdırmaları İnstitutunun Sədri, Əl-Mustafa Beynəlxalq Universiteti Elmi Heyətinin Əsas Üzvü |
| PhD. Elman Ağamoğlanov | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |
| PhD. Firuz Niftiyev | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |
| PhD. Elman Rəsulov | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |
| PhD. Azər Quliyev | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |
| PhD. Cəbrayıl Abiyev | Əl-Mustafa Beynəlxalq Virtual Universitetində müəllim |



***Lisenziya əsasında:***

***Əl-Mustafa Beynəlxalq Universitetinin Elmi-Tədqiqat Departamentliyi***

***Elmi-Tədqiqatların Təşkili və Dəstək Baş İdarəsi***

***(Tarix: 16/01/2022)***

***Bu jurnal elmi-tədqiqat jurnalı səviyyəsindədir***

***(Xüsusi olaraq tələbələrin elmi birlikləri üçün müəyyən edildi.)***

## Məqalə və təqdim şəkli

1.Məqalə aşağıdakı bölümlərə malik olmalıdır:
Ünvan, xülasə, açar kəlmələr, müqəddimə yaxud mövzuya giriş, məqalənin əsas mətni, nəticə, istifadə olunmu mənbələr.
2. Məqalələr əvvəllər çap olunmamış olmalı və müəllif məqaləni başqa nəşriyyəyə verməyə öhdədar olmamalıdır.
3.Elmi və hüquqi cəhətdən məqalənin doğruluğu üçün , müəllif məsuliyət daşıyır.
4.Məqalələrin qəbul edilib-edilməməsi jurnalın öhdəsindədir.
5.Elmi dəyərləndirmədən sonra məqalənin jurnalda çal olunması üçün son təsdiq, təhrir heyətini öhdəsindədir.
6.Məqalənin həcmi ən az 7 səhifə və ən çox 30 səhifə, hər səhifədə 250 kəlmə olmalıdır.
7.Jurnalın məqalələrindən istifadə, jurnala istinad verilmək şərtilə manesizdir.
8. Azərbaycan dilindəki məqalələr font 13 və Times New Roman xəttilə yazılmalıdır.
9.İstifadə olunmuş mənbələr əlifba sıraası ilə və aşağıdakı şəkildə olmalıdır:
İstifadə edilmiş kitab: Müəllifin familyası, adı, nəşr ili, kitabın ünvanı (bold şəklində), tərcüməçinin və yaxud düzəliş edən şəxsin adı, çap növbəsi, məkan, nəşriyyat.
10. İstifdə edilmiş məqalə: Müəllifin familyası, adı, nəşr ili, məqalnin ünvanı, tərcüməçinin adı, nəşriyyat (bold şəklində), çap dövrəsi, çap nömrəsi, məqalənin səhifələrinin sayı, nəşr ili.
11.Mətndə istiadə edilmiş mənbələrin haşiyədə qeyd olunma tərzi: Müəllifin adı, nəşr ili, səhifə.
Bununla birgə, ad, familya, elmi rütbə, ünvan, tel. nömrəsi və elektron-poçtunuzu (email) göndərin.

**Mündəricat**


***Baş redaktordan*....................................................................7**

***Rəcət haqqında qısa araşdırma*.........................................................9**

Rauf Əliyev

***Qədim dinlər haqqında araşdırma* ..................................................21**

Xədicə Qaraisayeva

***İslam iqtisadiyyatı (Ustad Mütəhhəri baxışında)* ...............................35**

Elman Ağamoğlanov

***İmamətin zərurəti*..................................................................51**

Sadiq Fəthəliyev

***İxlas və riya*.......................................................................71**

Ceyhun Cəfərov

***Dini təfəkkür (Əllamə Təatəbainin baxışında)*...................................85**

Fəzail Aslan

***Məntiq elmi ilə tanışlıq*...........................................................99**

Rauf Musayev

***Nəhcülbəlağədə əmanətdarlıq*.......................................................117**

Meysam Javadnia

***Həqiqi irfanın xüsusiyyyətləri*.....................................................127**

Azər Quliyev

***İslamda insan haqları (tarixi araşdırma)* .........................................139**

Elçin Əliyev

***İmam Əlinin müdiriyyəti*...............................................................155**

İlkin Nəcəfov

***İsmailiyyə məzhəbi haqqında araşdırma*.........................................169**

Nəzrin Əliyeva

# Baş redaktordan

Maarifçi, hər hansısa elmi və yaxud mənalı fikri başqalarına çatdıran və düşündürən şəxsdir. Başqa sözlə desək, xalqa düzgün ideologiya və faydalı olan həyat tərzini öyrədən, həqiqəti və gözəlliyi sevdirən insandır, maarifçi!

Görəsən hər kəs maarifçi ola bilərmi? Yaxud hər şəxs öz bildiklərini başqaları ilə bölüşmək bacarığına malikdirmi? Əslində, cavab müsbətdir. Hətta ilkin yaranışdan bəri, nəinki təkcə insan övladında, ümumiyyətlə, instinktlə hərəkət edən digər canlılarda da, təhlükə və fayda zamanı bir-birlərini münasib səmtə yönəltmə üslubu var. Belə ki, təbiətdə hansısa bir canlı təhlükə hiss etdiyində, başqa canlıları həmin təhlükənin varlığından xəbərdar etdiyinin şahidi oluruq. Yaxud bir mənfəət əldə etdiyi zaman öz həmnövlərini birgə faydalanmağa səslədiyini görmək olur. Bu, təbiətdəki canlıların instinktinə xas olan xüsusiyyətdir. İnsan da canlıların ən şərəflisi olduğu üçün, həqiqətləri ən gözəl şəkildə öz aralarında paylaşmağa görəvlənmişdir. Bu görəv həm onun fitrətində qoyulmuş, həm də İlahi dinlər tərəfindən hər bir insan öz elmi qədər bu mənəvi işə əməl etməyə dəvət olunmuşdur.

Ümid edirəm ki, qarşınızdakı bu jurnal siz əziz oxuculara dəyərli yazar maarifçilərimiz tərəfindən gözəl ərməğan olsun. Gözəl mütaliələr diləyirəm.

**Dr. Tofiq Əsədov**

# Rəcət haqqında qısa araşdırma

**Rauf Əliyev**[1]

**Abstrakt**

Ümumiyyətlə rəcətin məzhəbin zəruri əsaslarından hesab olunduğunu deməк lazımdır. Çünki kimsə şiənin əsas mənbə kitablarına nəzər yetirərsə rəcət mövzusunu məzhəbin əsas ideologiyalarından biri olduğunu düşünəcəkdir. Əlbəttə bunu da qeyd edək ki, bu mövzu şiənin tərəddüd etmədiyi mövzulardan biri olmasına baxmayaraq, təbii ki, üsuli dindən sayılan ədl və imamət mövzusundan fərqlidir. Amma kiminsə məzhəb barəsində kifayət qədər mütaliyəsi olmaması səbəbi ilə rəcət mövzusundan xəbərsiz qalması onun dindən və ya məzhəbdən xaric olmasına səbəb deyildir.

**Açar sözlər:** İslam, şiə, imam, rəcət

[1] - İslam araşdırmaları fakültəsinin məzunu, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, İran, Qum

## Giriş

Şiə alimləri arasında Rəcət barəsində inanca birinci əsrdən rast gəlmək olur. Həmçinin İmam Zeynal Abidindən (ə) olan hədislərin mətninə diqqət yetirsək bir daha sözümüzə qüvvət vermiş olaqrıq. İkinci və üçüncü əsrlərdə isə birinci əsrdən fərqli olaraq rəcət mövzusu o qədər genişlənmişdi ki, hətta şiənin dilinin şüarına çerilmişdi. Yəni rəcət barəsində olan hədislərə bu dövrlərdə daha çox rast gəlinir. Təbii ki, o dövrün müxalifləri bu məsələdən xəbərdar idilər. Yəni artıq bunu gizlətmək mümkün deyildi. Hətta qarşı tərəfdə olan hədis alimləri hansısa ravinin rəcət barəsində hədis söylədiyini görüb daha ona istinad etmirdi.1 İmam Rzanın(ə) yaxın səhabələrindən olan Fəzl ibn Şazan rəcət barəsində iki cild kitab yazmışdır.2

Siqətul İslam Kuleyni üçüncü əsrdə rəcət barəsində nəql olunan hədisləri Üsuli-Kafi kitabında xüsusi bölümdə gətirmişdir.3 Şeyx Səduq rəcət barəsində dördüncü əsrə aid olan hədisləri nəql etməklə yanaşı onlara etiqad bəsləməyi də haqq bilmişdir.4 O cümlədən Qurani-Kərimin müxtəlif ayələrinə və sünnü alimlərin İsa Məsihin qayıdandan sonra İmam Mehdinin(əccəlallahu fərəcəhum) arxasında namaz qılmağı barəsində olan hədislərə istinad etmişdir.5

Şeyx Müfid dördüncü əsrin sonlarında axərəz-zəmanda baş verəcək rəcət etiqadını şiələr arasında birmənalı olaraq qəbul olunduğunu vurğulamış və bu nəzərlə müxalif olanların suallarını

---

[1] O dövrün alim və raviləri rəcət barəsində yazdıqları çox sayda kitabların adları və ünvanları bu günümüzə qədər gəlib catmışdır. O cümlədən; Həsən ib Əli ibn Həmzə(Ricali-Nəccaşi: c 1 səh. 132 n 72), Əbdul Əziz ibn Yəhya ibn Əhməd ibn İsa Cəludi Əzdi Bəsri(Ricali- Nəccaşi: c 2 səh. 54 n 638), Əbu Yəhya Corcani (Ricali-Nəccaşi:c 2 səh. 436 n 1232), əhməd ibn Davud ibn Səid əbu Yəhya Corcani(Əl-Fehrest, Tusi: səh. 80 n 100), Məsir ibn Əbduləziz (Xulasətul-uqul: səh. 176 n 5)

[2] İsbatul Rəcət və əl-Rəcət kitabları. Nəccaşı Kəncidən nəql edir: "mən onları digər gitablarla birgə görmüşəm". Ricali- Nəccaşi: c 2 səh. 168 n 838. Həmçinin Şeyx Tusi onun böyük şəxsiyyət olduğundan söz açaraq onun "İsbatul Rəcət və əl-Rəcət" kitablarının adını çəkir.  Bax: Əl-Fehrest, Tusi: səh. 197 n 563

[3] Bax6 Əl-Kafi:  c 1 səh. 196-197, 283, 435,  c 3 səh. 131 və 536, c 8 səh. 50-51, 206, 247, 337 və...

[4] Bax: Üyunül-əxbaril-Rza(ə): c 2 səh. 201, Əl-xisal6 səh. 108, məanul- əxbar: səh.365

[5] Bax: Əl-etiqadat: səh. 60-63

cavablandırmışdır.1 Həmçinin Seyyid Murtəza beşinci əsrdə rəcət məsələsini birmənalı olaraq qəbul olunmasını təkid etmiş və bunu şiə məzhəbində icma şəkilində qəbul olunmasına rəğmən müxalif nəzərdə olanların bütün suallarını cavablandırmışdır.2 Təbərisi də altıncı əsrdə rəcət barəsində çox sayda olan xəbərlərə(hədislərə) rəğmən bu nəzərlə müxalif olanların bütün iradlarını cavablandırmışdır.3 Bu minvalla rəcət barəsində olan inanc növbəti əsrlərdə də şiə alimləri tərəfindən qəbul olunmaqla yanaşı həm də müdafiə olunmuşdur. Əllamə Məclisi rəcət mövzusunda olan hədislərin kəmiyyət və keyfiyyət baxımından necəliyi barəsində, həmçinin ravilərin və bu mövzuda çalışan, habelə kitab yazan alimlərin sayı barəsində yazır:

"İmamların düz danışmasına etiqad bəsləyən şəxslərin eyni zamanda onlardan nəql olunan təvatür rəvayətləri qəbul etməməsini anlamaq olmur. Rəcət barəsində iki yüzdən çox hədis (qırxdan çox inanılmış və etibarlı ravilərin dilindən) nəql olunub. Həmçinin məzhəbin alimləri tərəfindən əllidən çox kitab yazılmışdır....əgər bu hədislər də mütəvatir sayılmasa bəs hansı hədislər sayılacaqdır?"4

Ümumiyyətlə rəcətin məzhəbin zəruri əsaslarından hesab olunduğunu demək lazımdır. Çünki kimsə şiənin əsas mənbə kitablarına nəzər yetirərsə rəcət mövzusunu məzhəbin əsas ideologiyalarından biri olduğunu düşünəcəkdir. Əlbəttə bunu da qeyd edək ki, bu mövzu şiənin tərəddüd etmədiyi mövzulardan biri olmasına baxmayaraq, təbii ki, üsuli dindən sayılan ədl və imamət mövzusundan fərqlidir. Amma kiminsə məzhəb barəsində kifayət qədər mütaliyəsi olmaması səbəbi ilə rəcət mövzusundan xəbərsiz qalması onun dindən və ya məzhəbdən xaric olmasına səbəb deyildir. Əlbəttə dediklərimizin tam əksinə olarsa, yəni kifayət qədər məlumatı olan şəxs rəcəti qəbul etməzsə, məzhəbdən çıxmış sayılacaqdır.

---

[1] Bax: Əvailul məqalat: səh. 46, 76-77, Əl fusulul muxtarat: səh. 153-156, Əl məsailul sururiyyə: səh. 32, 35-36

[2]Bax: Rəsailul şəriful Murtəza: c 1 səh. 125-126

[3] Bax: məcməul- bəyan: c 7 səh. 367, cəvamiul cəvami: c 2 səh. 724

[4] Bax: biharul-ənvar: c 53 səh. 122-123

**Tarixdə baş vermiş rəcətlər**

Qurani-Kərimdə müxtəlif şəxslərin və ya qövmlərin rəcət etməsi barəsində xəbərlər vermişdir. Bu məsələnin Quranda qeyd olunması bir daha rəcətin haqq olmasını sübuta yetirir.

**Rəcət Quran-Kərimdə**

1) Yaxud (Ya Rəsulum! Damları çökmüş, divarları) uçulmuş bir kəndin yanından keçən kimsənin əhvalatını bilirsən? O kimsə: "Əcaba, Allah bu kəndi ölümündən sonra necə dirildəcək?" – demişdi. Belə olduqda, Allah onu yüz il ölü halında saxladı, sonra dirildərək ondan: "Nə qədər yatmısan?" – deyə soruşdu. O da: "Bir gün, bəlkə, bir gündən daha az" – deyə cavab verdi. Allah ona: "Bəlkə, yüz il yatmısan, yediyin yeməyə, içdiyin suya bax, hələ də xarab olmayıb. Bir də uzunqulağına bax! Səni insanlar üçün bir ibrət dərsi olmaqdan ötrü belə etdik. İndi (uzunqulağının) sümüklərinə bax, gör necə onları bir-biri ilə birləşdirir, sonra da onların üzərini ətlə örtürük?" – deyə buyurdu. O kimsəyə bunlar aydın olduqda: "Artıq bildim ki, Allah hər şeyə qadirdir!" – dedi.1

2) (Ya Rəsulum!) Minlərlə adamın (taundan) ölüm qorxusu ilə öz yurdlarını tərk edib getdiklərini görmədinmi? Allah onlara: "Ölün!" – dedi və sonra da (yenidən) diriltdi. Həqiqətən, Allah insanlara lütf edəndir, lakin insanların bir çoxu şükür etməzlər!2

Bu ayədə isə Allah-taala böyük bir toplumun ölməsindən və yenidən dirilərək həyata qayıtmasından söhbət açır. Təbii ki, rəcətdəki qayıdış qiyamət səhnəsində insanların qəbrlərindən çıxaraq İlahi dərgaha olan qayıdışdan fərqlidir. Budur ki, xüsusi insanlara aid edilmir. Əksinə bütün yaranmışlar baş verməsi mümkün olan bir hadisədir.

3) Bildiyimiz kimi həzrət İsanın (ə) möcüzələrindən biri də ölmüş insanları diriltmək olmuşdur. Həmçinin Qurani-Kərimdə dəfələrlə qeyd olunmuş bu hadisəni rəcətin baş verməsinin mümkünlüyü üçün dəlil şəklində qeyd edə bilərik:

(Ya Rəsulum!) Xatırla ki, o gün (qiyamət günü) Allah (İsaya) belə buyuracaq: "Ya Məryəm oğlu İsa! Sənə və anana nemətimi yadına sal. O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim. Sən

---

[1] Bəqərə surəsi: ayə 259

[2] Bax: Bəqərə surəsi: 243

beşikdə olanda da, yetkin çağında da adamlarla danışırdın. Sənə kitabı (yazıb-oxumağı), hikməti, Tövratı və İncili öyrətmişdim. O zaman sən Mənim iznimlə palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürürdün, o da Mənim iznimlə quş olurdu. Sən Mənim iznimlə anadangəlmə kora və cüzamlı xəstəyə şəfa verir və Mənim iznimlə ölüləri (qəbirdən çıxardıb) dirildirdin.1

4) Bəni-İsraildən tətlə yetirilmiş şəxsin dirilib qatilinin adını deməsi:

Belə olduqda Biz: "(Kəsilmiş inəyin) bir parçasını ona (qatili bilinməyən ölüyə) vurun!" – dedik. (Onlar da vurdular və ölü dirildi). Allah (bütün) ölüləri bu qaydada dirildər və sizə Öz möcüzələrini göstərər ki, ağla gəlib (bunu) dərk edəsiniz.

Onlar Allahın göstərişi əsasında inəyi kəsdikdən sonra ətindən ölmüş şəxsə vururlar. O da diriləرək öz qatilini onlara tanıtdırır.2

5) Bəni-İsrail Allahı görmək üçün Həzrət Musaya(əleyhissəlam) çox təkid edir. Nəhayət göydən gələn ildırım onları vuraraq öldürür. Daha sonra isə Allah-taala Onun nemətlərinə daha çox şükr etsinlər deyə onları yenidən həyata qaytarır:

Bəlkə, şükür edəsiniz deyə, biz sizi ölümünüzdən sonra yenidən diriltdik.3

Bu ayələrə rəğmən rəcətin baş verməsini daha asan dəlillərlə sübut etmək mümkündür. Yani ayələrə əsasən rəcətin baş verməsinin mümkün olmasını daha da aydınlaşdırır. Hətta müxaliflər ayələrin açıq-aşkar rəcəti sübut etməsini gördükdə ayələri təvil etməyə başlamışlar.4

6) Əshabi-kəhfi də ölməmələrinə baxmayaraq (uzun müddətli yuxudadırlar) hazırkı mövzumuza dəlil olaraq gətirə bilərik.

---

[1] Bax: Maidə surəsi: 110

[2] Bu mövzuda sünnü və şiə təfsirçilərinin arasında nəzər fərqi vardır(Obnların nəzərinə əsasən o şəxs dirilməmiş qatilinin adını söyləyir).

[3] Bax: Bəqərə surəsi: 56

[4] Alusi(sünnü təfsirçi) ayələrdə açıq-aşkar istifadə olunmuş bəzi sözlərin digər mənada işləndiyini demişdir. O cümlədən rəcət ayələrindəki "ölüm" sözünü "gizlənmək", "dirilmək" sözünü "oyanmaq", "cəhl və nadanlıq" sözünü "ölüm", "dirilmək" sözünü isə "elm" mənaları kimi işlətmiş və əvəz etmişdir(bax: Ruhul məani c, 1 səh. 264).

Sonra iki tayfadan (möminlərdən və kafirlərdən) hansının onların (mağarada) qaldıqları müddəti daha düzgün hesabladıqlarını bilmək üçün onları oyatdıq.1

Bunu da qeyd edək ki, rəcət zamanında əshabi-kəhfin qayıtması haqqında İmam Sadiqdən(əleyhissəlam) hədis mövcuddur.

7) İbrahim peyğəmbərin dörd quşun başını kəsməsi:

(Ya Rəsulum!) Xatırla ki, İbrahim: "Ey Rəbbim, ölüləri nə cür diriltdiyini mənə göstər!" – dedikdə (Allah) : "Məgər (ölüləri diriltməyimə) inanmırsan?" –buyurmuşdu. (İbrahim: ) "Bəli, inanıram, lakin ürəyim sakit (xatircəm) olmaq üçün (soruşdum)", - deyə cavab vermişdi. (Bu zaman Allah ona) buyurmuşdu: "Dörd cür (cins) quş götürüb (səhv salmamaq üçün) onlara diqqətlə bax, (onları parçalayaraq bir-birinə qatandan) sonra hər dağın başına onlardan bir parça at, sonra onları çağır, tez yanına gələcəklər. Bil ki, Allah yenilməz qüvvət, hikmət sahibidir!"2

Ayədə qeyd olunduğu kimi, həzrət İbrahim(əleyhissəlam) dörd quşun başını kəsərək onları öldürür və müxtəlif yerlərə qoyur. Amma Allahın əmri ilə quşlar dirilərək hərəsi öz başının yanına qayıdaraq həyatlarına davam edirlər. Bura kimi qeyd etdiyimiz ayələrdən belə nəticə alırıq ki, qədim dinlər tarixində rəcət baş vermiş və insanlar (mahiyyət baxımından fərqli olmasına baxmayaraq) ona etiqad bəsləmişlər. Həmçinin İslam dinində də rəcət mövzusu olduqca təkidlə qeyd olunmuş və qiyamətdən öncə onun baş verməsi haqqında xəbərlər verilmişdir. Amma bu gün, müasir zamanımızda yaşayan bəzi mütəfəkkirlərin"rəcətə inanmaq və etiqad bəsləmək şiəliyə yəhudilikdən daxil olub" demələri təəssübdən doğan sözdür.3 Əgər dinlər oxşar ayinləri bir-birlərindən götürsəydilər, onda belə qərara gələrdik ki, İslam dinində olan şəriət əməllərinin çoxsu digər dinlərdən götürülmüşdür. Bunu da nəzərə alaq ki, İslam dini dinlərin ən sonuncusudur. Əgər Allah-taalanın Qurani-Kərimdəki sözlərinə iman gətirsək, Quranın özündən öncə olan səmavi kitabların təsdiq etməsini görərik. Dinlər arasında olan müştərək ayinlərin, əməllərin və ibadətlərin olması labüddür.

[1] Bax: Kəhf surəsi: 12

[2] Bax: Bəqərə surəsi: 260

[3] O cümlədən: Əhməd Əmin Misri, fəcrul islam, səh. 33

Bundan əlavə Quranda birbaşa rəcət barəsində olan ayələri inkar etmək və ya onu müxtəlif yerə yozmaq mümkün deyil. Görəsən "Quranda rəcət barəsində olan ayələr də yəhudilikdən daxil edilmişdir?"

Həmçinin mənbələrində çox sayda "peyğəmbərin vəfatından sonra qayıtması və bəzilərinin onu görməsi" haqqında hədislər mövcuddur. Hətta bu mövzu bəzi müxalif alimlərinin arasında elə bir ciddi müzakirəyə səbəb olmuşdur ki, təfsir, tarix, hədis və ədəbiyyat alimi olan Suyuti bu barədə "peyğəmbəri və mələkləri görmək olarmı?"adlı kitab yazmışdır. O bu kitabda Səhih Buxaridən, Müslümdən Əbu Davuddan "oyaq halda peyğəmbəri görmək" haqqında hədislər nəql etmişdir. Daha sonra isə bu mövzu ilə müxalif olanların suallarına və peyğəmbərin rəcətini inkar edənlərin iradlarına geniş şəkildə cavablar və izahlar gətirmişdir. Həmçinin kitabda "peyğəmbəri oyaq halda görənlərin" barəsində bəzi sitatlar gətirərək bu işi onların kəramətləri olduğunu qeyd etmişdir. Bunu da qeyd edək ki, Suyutinin nəzərinə peyğəmbəri yalnız oyaq halda görmək həmin şəxs üçün kəramət sayılacaqdır. Amma hamının Peyğəmbəri yuxuda görməsi mümkün olduğu üçün, yuxuda görmək kəramət sayılmayacaqdır.

**Rəcətin fəlsəfəsi**

Rəcətin baş vermə səbələrinə tam rasional yanaşmaq düzgün deyildir. Amma bu "rəcət" mövzusunun əql və rasionallıqdan kənar bir mövzu olmasını da tam dəqiqliklə çatdırmır. Yani əql onun nə üçün baş verdiyini dərk edə bilir. [1] Həmçinin aşağıda rəcətin fəlsəfəsi haqqında qeyd edəcəyimiz fikirlər onu rasional şəkildə sübut etməyimiz üçün deyil, əksinə insanların onun mahiyyətini anlamaları və zehinlərində olan yersiz iradlara mane olmaları üçündür. Bu barədə daha geniş danışmaq mümkün olsada aşağıda qeyd edəcəyimiz üç əsas səbəb ilə kifayətlənirik:

---

[1] Mütərcimdən: məsələn biz Allaha edilən ibadəti əqli dəlillərlə isbat edə bilirik. Amma nə üçün məhz namaz şəklində olduğunu rasional dəlillərlə sübut edə bilmirik. Bunu bizə Quran və Peyğəmbərimizin sünnəsi başa salır. Amma bu bizim namazı başa düşməməyimizə dəlalət etmir. başqa sözlə desək əql namazı başa düşsə də onun rükətlərinin sayını başa düşə bilmir.

## 1. Salehlərin mükafatlanması və kafirlərin cəzalanması

Dünya ədalət[1] üzərində qurulduğu üçün hamının gözləntisi budur ki, dünyada gücsüzlərə zülm edən, onları aldadan, nəfslərinə xatir min bir əzaba düçar edən zalımlar elə məhz bu dünyada da öz cəzalarına yetişsinlər. Bu demək olar ki, hamının istəyi və zehnindən keçirdiyi sualdır. Amma bunu da qeyd edək ki, dünyada zalımlıara əzab vermək dünya imkanlarına əsasən mümkün olmadığı üçün əsas cəza axirət evində olacaqdır.[2] Bu bir növ məntiqin ما لا یدرک کله لا یترک کله-hamısına çata bilməyəcəyin təqdirdə, hamısını da tərk etmə- prinsipinə aiddir. Yani zalımlara, kafirlərə və müşrüklərə qarşı bütün cəzaları burada tətbiq etmək imkanı olmasa da qismən cəzalandırmaq mümkündür.

## 2. Müntəzirlərin hazırlıqlığı və iradə möhkəmliyi

Rəcətin digər faydalarından biri də möminlərdə ümüd çırağının yandırılması və özlərini zühura hazırlamalarıdır. əgər bütün möminlərin zühur zamanı xalis möminlərin qayıdacağına ümüdləri möhkəm olsa, bütün insanları xalis olmağa dəvət etməklə yanaşı özləri də xalisliyə doğru addımlayacaqdır. Həmçinin bu hiss onlarda yaşamaq ümüdünü də çoxaldacdır. Çünki heç bir zəhmətin hədər olmayacağına artıq tam inanmışdırlar.

## 3. Yaxşılar üçün növbəti əməl fürsəti yaratmaq

Allahın övliyaları və peyğəmbərləri öz həyat yollarında kamala çatmaq üçün haqq tərəfindən kömək olunmamış və digər tərəfdən isə insanlar onları tək qoyduqları üçün öz vücudlarında olan müvəffəqiyyətlərini tam qüvvələri ilə göstərə bilməmişlər. Amma rəcət zamanında yenidən həyata qayıtmaqla bu imkanı əldə edərək öz qabiliyyətlərinə təkan verib layiq olduqları kamala çatacaqlar. Həmçinin bu imkandan digər dünyadan köçən insanlar da istifadə

---

[1] Peyğəmbərimiz buyurub: yer və göy ədalət üzərində qurulmuşdur.(əvalil ali: c 4 səh. 103 və Təfsiril Safi: c 5 səh. 107)

[2] Mütərcimdən: bir nəfər yüzlərlə, minlərlə. Milyonlarla insan öldürüb və ya bir nəslin həyatını tamami ilə dünyada yaşayarkən məhv etmişdir. Afrikada yaşayan milyonlarla fəqir insanların haqqını bir nəfərdən bu dünyada necə almaq mümkündür? Dünyada əgər bunların əvəzində Ona cəza olaraq ölüm işi kəssələr, O yalnız bir dəfə öləcəkdir. Bəs digərlərinin haqqı necə olsun?

edə biləcəklər. Yəni bütün möminlər üçün ilk gündən belə bir hökm mövcuddur.

**Nəticə**

Rəcətin baş vermə tarixi birbaşa İmam Mehdinin(əccəlallahu fərəcəhum) zühuru ilə əlaqəlidir. Şiə alimləri arasında bu mövzu barəsində heç bir ixtilaflı fikir yoxdur. Xüsusən rəcət barəsində nəzəriyyələri olan alimlərin hamısı rəcətin baş verməsini zühur ilə əlaqəli olduğunu yekdilliklə qəbul edirlər. Əvvəldə Şeyx Səduqun İhticac kitabında İsa peyğəmbərin(əleyhissəlam) qayıdaraq İmam Mehdiyə(əccəlallahu fərcəhum) namazda iqtida etməsini sünnü mənbələrinə əsasən yazmışdıq.1

Şeyx Müfid İmam Mehdinin zühuru zamanında rəcətin baş verməsini şiə alimləri arasında icma şəklində qəbul olunduğunu dəlillər əsasında sübut etmiş və bu fikrlə müxalif olanların bütün iradlarına cavab yazmışdır. Seyyid Mürtəza da həmçinin rəcəti İmamın zühuru zamanı baş verəcəyini deyir və bu nəzəriyyəni bütün şiə alimlərinə də aid edir. Yəni onun nəzərinə əsasən şiə alimləri arasında bu mövzuda heç bir firik ayrılığı yoxdur. Burada daha maraqlısı budur ki, Seyid Mürtəza bu sözü sual-cavab əsnasında qeyd etmişdir. Amma onun özünün rəcət barəsində olan təfsiri digər şiə alimlərinin nəzəriyyələrindən tam fərqlidir. Onun fikrinə əsasən rəcət İmamların qayıdışı deyil, əksinə onların quracağı hakimiyyətin və dövlətin qayıdışıdır. Amma buna baxmayaraq bu qayıdışın baş verəcəyi yenə də zühurun və İmamın hakimiyyəti dördündə olacağını qeyd edir. 2 Şeyx Təbərisi də həmçinin rəcətin baş verməsini bir başa İmam Zamanın(əccəlallahu fərəcəhum) zühuru ilə əlaqəli olduğunu qeyd edir.[3]

---

[1] Bax: Əl-etiqadat: səh. 62

[2] Əlbəttə Seydi Mürtəzanın irəli sürdüyü fikrin əsas müəllifi məlum deyil. Daha geniş məlumat üçün bax: Rəsailul şəriful Mürtəza: 1 səh. 125

[3] Bax: Məcmuəl bəyan: c 7 səh. 367 və cəvamiul came: c 3 səh. 203

**Ədəbiyyat**


1. Qurani-kərim
2. Nəhcül-bəlağə
3. Üyunül-əxbaril-Rza
4. Amoli, Cavadi, Təsnim, Qum, 1396
5. Təbatəbayi, Məhəmmədhüseyn, Qum, əl-Mizan, 1389
6. Məkrim Şirazi, Təfsire-Nümunə, Qum, 1390
7. Qürbül-isnad, Abdullah ibn Cəfər Himyəri Qummi, tədqiq: Alül-beyt müəssisəsi, Qum, Alül-beyt müəssisəsi, 1413 hicri-qəməri, birinci çap.
8. Əl-Kafi, Məhəmməd ibnYəqub Kuleyni Razi, tədqiq: Əli Əkbər Qəffari, Beyrut, Darüs-səb və Darüt-təarüf, 1401 hicri-qəməri, dördüncü çap.
9. "Əl-Burhan fi-ulumil-Quran", Beyrut, 1998
10. Əl-Kafi, Məhəmməd ibnYəqub Kuleyni Razi, tədqiq: Əli Əkbər Qəffari, Beyrut, Darüs-səb və Darüt-təarüf, 1401 hicri-qəməri, dördüncü çap.
11. Məcməül-bəyan fi təfsiril-Quran, Fəzl ibn Həsən Təbrisi, Beyrut, Darül-mərifə, 1408 hicri-qəməri, ikinci çap.
12. Biharül-ənvar, Məhəmmədbaqir ibn Məhəmmədtəqi Məclisi (Əllamə Məclisi), Beyrut, Vəfa müəssisəsi, 1403 hicri-qəməri, ikinci çap

# Qədim dinlər haqqında araşdırma

**Xədicə Qaraisayeva**[1]

**Abstrakt**

Qədim dinlər sahədə araşdırma aparan tədqiqatçıların nəzərincə din barəsində mövcud olan ilk nümunələr təbiətə sitayişlə bağlıdır. Dünyanın ən ucqar yerlərində və ən uzaq bölgələrində ibtidai formada yaşayan insanlar arasında bu əqidəyə olan bağlılıqlar hələ də mövcuddur. Təbiətə sitayiş əqidəsində təbətin gücünü ram etməkdən ötrü ilk olaraq həmin qüvvəyə ibadət etmək və onlardan ehsan etmələrini istəmək lazımdır. Hal-hazırda mövcud olan və ibtidai formada yaşayan insanlar arasında müxtəlif dini mərasimlər mövcuddur. Bu mərasimlərdə qəribə geyimlər geyilir, maskalar taxılır və ritmik hərəkətlər nümayiş etdirilməyə başlanılır. Eləcə də, həmin mərasimlərdə təbiət qüvvələrindən kömək istənilir. Buludlardan yağış yağması, çaylardan tüğyan qoparmadan onların susuzluqlarını yatırtması, torpaqdan yaşıllaşma, tarla və ağaclardan daha yaxşı və daha çox məhsul vermələri və sair şeylər istənilir.

**Açar kəlmələr**: ibtidai, qədim, din, tanrı

---

[1] - İslam araşdırmaları fakültəsinin məzunu, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, İran, Qum

**Giriş**

Tarix Tanrıya şərik qoşulmasının çox qədim zamanlara qayıtdığını və bəşəriətin daim Tanrıya şərik qoşmaq çirkabına bulandığını göstərir. Hal-hazırda da dünya əhalisinin təxminən yarısı Hinduizm, Caynizm, Buddizm, Sintoizm və qeyri dinlərdə bütlərə sitayiş edilir. 1 Sosioloqlar Tanrıya şərik qoşan dinlərin tarixinin təkallahlı dinlərindən daha keçmişə qayıtdığını bildirirlər. Amma təkallahlılığa sitayiş edən müxtəlif dinlərin davamçıları bu fərziyyələrə tam zidd mövqedən çıxış edir, Tanrıya şərik qoşmaq idelogiyasının və bu ideologiyadan yaranan dinlərin təkallahlı dinlərindən mənşə aldığını bildirirlər.

Bəzi dinlərə görə tanrılar tarixin müxtəlif dönəmlərində özlərini insanlara göstəriblər və bütlər də onların bir nümunəsidir.

Ümumuiyyətlə, ölümdən qorxu ibtidai icma quruluşunda yaşayan insanların müxtəlif xürafat düşüncələr yaratması ilə nəticələndi. Həmin xalqlar ölülərlə dirilər arasındakı əlaqələr sahəsində xüsusi əqidəyə malik idilər. Qədim zamanlarda yaşayan xalqların böyük əksəriyyəti əcdadlarının geri qayıtmasından qorxurdular və elə buna görə də, ölüləri kəndirlə bağlayır, qəbirləri möhkəmləndirirdilər ki, bu yolla onların geri qayıtmasına əngəl törətsinlər. Ölülərdən olan qorxu sonralar ölülərə qarşı hörmət və ehtirama çevrildi və sonda əcdadlara pərəstiş ideologiyasının yaranması ilə başa çatdı. Bu növ sitayiş forması tarix boyu dünyanın bir çox yerlərində mövcud olmuşdur və hal-hazırda da Yaponiyada onun nümunələrinə rast gəlmək mümkündür. Onların nəzərincə bütlər əcdadlarının heykəllərində yerləşmişlər.

## İbtidai dinlərdə inanclar və ayinlər

### Totemlər və tabular

İbtidai dinlərdə hər bir qəbilənin totemi həmin qəbiləni qoruyan nişan və yaxud əlamət mənasını daşıyırdı. Bu əlamət heyvan, bitki və daş ola bilər. Bir çox xalqların arasında böyük hörmət və

---

[1] Qeyd etmək lzaımdır ki, "Büt" sözü fars dilinə Ərəb dilindən ("Bud" sözündən) gəlmişdir və həmin "Bud" sözü "Budda" sözündən götürülmüşdür. Bir məsələni də diqqətinizə çatdırmalıyıq ki, ərəb dilində Buddaya "Buzza" deyilir.

ehtirama layiq heyvanlar mövcuddur və bir çox hallarda həmin heyvanların təsvirləri ölkələrin bayraqları üzərində öz əksini tapır.

Müxtəlif xalqlarına tarixinə müraciət etdikcə Afrikada şirə, Hindistanda pələngə, Şimali Amerikada qartal, ayı və itə, Yunanıstanda və Misirdə öküzə, Hindistan, Afrika və Skandinaviya ölkələrində inəyə, Hindistanın cənub bölgələrində camışa, Avstraliyada kenquruya sitayiş edildiyini müşahidə edə bilərik. Həmin heyvanlar adı çəkilən xalqların totemi sayıla bilər. Hələ də bir çox xalqlar göyərçini və ilanı müqəddəs sayırlar. Qeyd etmək lazımdır ki, "totem" sözü Amerikanın yerli əhalisi olan qırmızıdərililərin dilindən götürülmüşdür.

Tabu isə, hər bir qəbilənin evlilik və qidalanma sahələrində qoyduğu qadağadır. Hər hansı bir qəbilənin yalnız qəbilədaxili evliliyə icazə verməsi, digər qəbilələrlə qohumluq əlaqələrinin haram bilinməsi və ya da tam tərsi mümkündür. İkinci halda qəbilə üzvləri həyat yoldaşı tapmaq üçün başqa qəbilələrə müraciət etmək məcburiyyətində qalır. Qidalanma sahəsində tabu belə məna daşıyırdı ki, hər kəs öz yeməyini özü əldə etməli və onu təklikdə yeməli idi. Tabu sözü Polineziya adalarında yaşayan ibtidai xalqların dilindən götürülmüşdür.

**Animizm**

Bir çox xalqların antik din və məzhəbləri animist olmuşdur. Bu əqidəyə əsasən təbiətdə olan bütün şeylərdə ruh və güc vardır. Bu ruh və gücdən yararlanmaq üçün onlara sitayiş etmək lazımdır. Torpağın, səmanın, səma cisimlərinin, alovun, şımşəyin, buludun, dənizin, çayın, tufanın, meşənin, bitkilərin və heyvanların, xüsusən də inəyin, kobra ilanının, eləcə də qəbilə toteminə, əcdadların ruhuna inanmaqla yanaşı cin və şeytan kimi qorxulu mövcudların gücündən istifadə etmək qədim xalqlar arasında geniş yayılmışdır. (Cinə ibadət etmək və bəzi nadan insanların cinlərə pənah aparması Qurani-Kərimdə qadağan edilmişdir: Ənam surəsi: 100, Səba surəsi 41 və Cin surəsi 6).

Animistlər təbiətiin şüurlu və insanabənzər (anthropomorphic) olduğunu qəbul edir, ona özünəməxsus formada sitayiş edirlər. Onun üçü qurbanlar kəsirlər və təbiətin belə şeylərin təsiri altına

düşəcəyini təsəvvür edirlər. Bu əqidənin qalıqları bir çox dinlərdə, xüsusən hindu dinində günümüzə qədər gəlib çatmışdır. Bütlərin bəziləri təbiətin gücünün nümunəsidir.

**Fetişizm və Cadu**

"Fetish" portuqal dilindən alınma sözdür və cadu mənasını daşıyır. Fetişizmə etiqad, yəni daxilində cadu qüvvəsi olan maddi şeylərə ehtiram ibtidai insanlar arasında müşahidə olunur. Bu şeylər çox vaxt daşlardan, mədənlərdən əldə edilmiş maddələrdən olur və həmin qövmlərin əqidəsinə görə qeyd olunmuş əşyaların daim insanın yanında olması ona xoşbəxtlik gətirir.

Ümumiyyətlə, ibtidai dinlərdə bəzi əşyaların xüsusi gücə malik olması inancı mövcud idi və bu səbəbdən də həmin əşyaya qarşı xüsusi ehtiram olurdu. Hər hansı bir daşın, çubuğun, ağacın və yaxud heyvanın xüsusi gücə malik olması qəbul edilirdi və ondan təbərrük kimi istifadə olunurdu. İnsanlar ona tapınırdılar. Bu əşyalar Mana adlandırılırdı. Belə təsəvvürlərin və əqidələrin qalıqlarına inkişaf etmiş dinlərdə də rast gəlmək olar. Mana sözü də Polineziya adalarında yaşayan qədim xalqların dillərindən götürülmüşdür.

Xatırladaq ki, ibtidai dinlərdə mövcud olan cadu anlamı ilə bizim təsəvvür etdiyimiz cadu anlamı arasında fərq çoxdur. Həmin dinlərdə cadu təbii qüvvələrdən kömək və yardım üçün həyata keçirilən xüsusi mərasim mənasını daşıyırdı. Belə mərasimlərin həyata keçirilməsində cadugərlər fəaliyyət göstərir və mərasimin keçirilməsini öz üzərinə götürürdülər. İbtidai icmalarda elm və savad məsələsinin məna kəsb etmədiyindən bu şəxslərin də digərlərindən heç bir fərqi yox idi və yalnız hamının bu şəxslərdə olan qeyri-adi qüvvəyə inanması onları digər insanlardan fərqləndirirdi.

Cadugərlər xəstələri müalicə etmək üçün də öz qüvvələrindən istifadə edirdilər. Belə cadugərləri çox vaxt şaman adlandırırlar.

Cadugərlər çətin və dözülməz şəraitdə yaşamaqla özlərinə əzab verirdilər, çox vaxt bədənlərində xüsusi nişanələr əmələ gətirirdilər və bəzən də, özlərini axtalayırdılar.

**Qurban kəsmək.**

Dünyanın hər bir yerində yaşayan xalqlar arasında Tanrı və yaxud tanrıların qəzəbini söndürmək üçün "Qurban etmək" mərasimi mövcuddur. Həmin qurbanlar meyvə-tərəvəz, məhsul hədiyyə etməkdən, heyvanların, uşaqların və böyüklərin başlarının kəsilməsindən, uşaqların oda atılmasından və buna bənzər digər işlərdən ibarətdir. Onlar çox vaxtlar öz ölkələrinin əhalisinin azalmamasına görə digər ölkələrə hücum edirdilər. Bəzi xalqlar arasında bütlərə hörmət əlaməti olaraq öz namus və iffətini qurban vermək (Hierodouleia) kimi məsələlər də mövcud idi. Hətta hal-hazırda da Hindistan qadınları Vişni məbədində saçlarını tam kəsdirməklə öz gözəlliklərini həmin bütə qurban verirlər.

Torpağa şərab tökmək (Libation) həmişə şərab içənlərin adətlərindən biri olmuşdur və Tövratda da (Xüruc, 29:41 və....) bu məsələyə işarə edilmişdir.

Sonralar insanların qurban edilməsi adəti aradan qalxdı və yalnız heyvanların qurban kimi kəsilməsi adəti qaldı. Amma yaxın zamanlara qədər bəzi yerlərdə insanların qurban verilməsi adəti yaşayırdı. Artıq heç bir ölkənin qanunları belə vəhşiliklərin həyata keçirilməsinə icazə vermir. Bəzən kütləvi informasiya vasitələrində Hindistanın bəzi kəndlərində və digər yerlərdə bir bütpərəstin polisin gözündən yayınaraq öz övladını büt üçün qurban kəsməsi, yaxud kəsmək istərkən başqalarının bu işə əngəl törətməsi barədə xəbərlər yayımlanır. Qeyd etmək lazımdır ki, hal-hazırda belə cinayət törədən şəxslər ağır cəzalandırılırlar.

Ola bilsin Allah-taala İbrahim Xəlilullaha (ə) Onun yolunda övladını qurban verməyi əmr etməklə tövhid əhlinin öz məbudunu az sevmədiyini göstərmək istəyib.

Dinlər haqqında elm nöqteyi-nəzərindən övladların qurban verilməsini iki şey əvəz etmişdir: Birincisi uşaqların sünnət edilməsi, ikincisi isə heyvanların qurban kəsilməsi. İbrahimdən (ə) başlayan dinlərdə bu iki adət birbaşa Həzrət İbrahimə (ə) aid edilir.

## Qədim dinlərdən nümunələr

### 1. Misir

Misir dünyanın ən məşhur qədim ölkələrindən biridir. Bu torpaqlarda böyük sivilizasiya və qüdrətli hökumətlər mövcud olmuşdur. Misirlilərin soyu Qibtilər idi və Avropalıların Misir üçün istifadə etdikləri “Egypt” sözü Qibt sözü ilə əlaqəlidir.

Misirlilər ibtidai dinlərin müxtəlif mərhələlərindən keçib, müxtəlif vəhşi və ev heyvanları sifətində olan yerli tanrılara sitayiş ediblər. Fironlara və əfsanəvi tanrılara sitayiş də misirlilər arasında mövcud olmuşdur.

### 1-1. Misirdə dinin və onun müxtəlif formalarının yaranması.

Qədim Misirdə qeybdən olan mövcudlara güclü şəkildə inanırdılar və müxtəlif adlı, müxtəlif sifətli tanrılara malik idilər. Tanrıların sayının çox olması müxtəlif problemlər yaradanda onların sayını azaltmağa başladılar və qısa bir dönəm ərzində yalnız günəş Tanrısına sitayiş etməyə başladılar. O zamanlar şir, timsah kimi bəzi vəhşi heyvanların, müxtəlif quşların, gəmiricilərin və qoç kimi bəzi ev heyvanlarının müqəddəsliyinə inam dalğası baş qaldırdı. Pişiyə pərəstiş də misirlilər arasında geniş yayılmışdı. İranlılar Əhəmənilər sülaləsinin hakimiyyəti illərində misirlilərlə keçirdikləri döyüşlərin birində qalxanlarının üzərinə pişik təsviri həkk etmişdilər. Elə bu səbəbdən də misirlilər pişik təsvirinə hörmət əlaməti olaraq həmin qalxanlara ox atmağdan və qılınc vurmaqdan çəkindilər və sonda iranlılar misirlilərlə döyüşdə qələbə qazandılar.

Sonralar onların əqidələrinə heyvan başlı və insan bədənli fantastik varlıqlar daxil oldu. Misirlilər belə varlıqlara heykəllər düzəldərək onlara sitayiş etməyə başladılar. Nil çayında səfər öncəsi adamyeyən timsahların hücumlarından qorunmaq üçün əzəmətli timsah məbədinə gedər, sədəqə və nəzir verməklə öz canlarının bahasını ödədiklərini düşünərdilər.

### 2. Üç Tanrı əfsanəsi: Osiris, İsis və Horus

Qədim misirlilər belə deyirdilər ki, Osiris (əkinçilk tanrısı) bacısı İsis (ana ilahə) ilə ailə qurur və onlarına Horus (günəş tanrısı)

adlı övladları dünyaya gəlir. Osiris qardaşı Set (quraqlıq tanrısı) tərəfindən qətlə yetirilir. İsis qətlə yetirilmiş həyat yoldaşı Osirisin cəsədini böyük zəhmətlərdən sonra tapır və Misirə qaytararaq orada gizlədir. Set bu hadisədən xəbərdar olan kimi yenidən Osirisin cəsədini tapır və onu on dörd hissəyə parçalayır. Hər parçasını Misirin bir yerində torpağa basdırır. Osirisin cəsədindən parçalar basdırılmış yerlər o cəsədin bərəkətindən abad və məhsuldar torpaqlara çevrililər. Artıq böyüyüb başa çatan Horus atasının qisasını almaq üçün əmisi ilə döyüşür və gözlərindən birini itirməsinə baxmayaraq əmisinə qalib gəlir, onu əsir tutaraq anasının hüzuruna gətirir. İsis həyat yoldaşının qardaşını bağışlayır. Bundan sonra Horus atasının cəsədinin parçalarını bir yerə toplayır və hikmət tanrısının köməyilə onu dirildir. Osiris bundan sonra dünyada qalmır və dünyanı oğlu Horusa tapşırıb özü yeraltı dünyaya gedərək ölülərə hökmdarlıq edir.

### 3. Günəşə sitayiş

Dünyanın müxtəlif yerlərində günəşə sitayiş əqidəsinin tarixi olduqca qədim zamanlara qayıdır və Qurani-Kərimdə də (o cümlədən “Nəml” surəsi, ayə 24) buna işarə olunmuşdur. Həqiqətən də, Allahdan kənarda sitayiş olunan bütün tanrılar arasında günəşin malik olduğu sonsuz bərəkətə malik biri mövcud deyildir. Qədim Misirdə günün müxtəlif saatları üçün günəşin nümayəndələri olan tanrıların mövcud olduğunu bildirirdilər. Məsələn, səhər tanrısı Xipra, günorta tanrısı Ra, axşam tanrısı Aton. Eləcə də, peyinböcəyini günəşin yer üzündəki nümayəndəsi bilirdilər. Misirlilər həmin həşəratı olduqca müqəddəs sayır, onun təsvirini tilsimlərin üzərinə, şahların heykəllərinin sinəsinə və alnına həkk edirdilər. Misirlilər həmin böcəkdən bərəkət və xoşbəxtlik istəyirdilər.

### 1-4. Firona sitayiş

Qədimdə şahlara sitayiş etmək olduqca geniş yayılmışdı. Onların ən son nümunələrindən biri Yaponiyanın sabiq imperatoru

Hiro Hitodur. Qeyd etmək lazımdır ki, imperatorluq onun öz istəyi ilə 1946-cı ildə ləğv olunmuşdur.[1]

Misir Fironları (Yapon imperatorları kimi) Günəş tanrısının nəslindən olan tanrılar kimi qəbul edilirdilər və onlara sitayiş edilməsinin əsas səbəbi də elə bundan ibarət idi.

### 4. Babilistan (Vavilon)

Babilistan uzun illər boyu sivilizasiya, mədəniyyət və elmin mərkəzi olmuşdur və bu şəhərin adı Yəhudilərin və Xristianların müqəddəs kitablarında yer almışdır. Qurani-Kərimdə də ("Bəqərə" surəsi, ayə 102) Babil adı qeyd olunmuşdur. Cəbr, bir çox riyazi və elmi məsələlər Babilistan mədəniyyətində yaranaraq günümüzə qədər gəlib çatmışdır.

### 2-1. Babilistanda baş verən dini dəyişikliklər

İraqın müxtəlif ərazilərində aparılan arxeoloji qazıntılar zamanı çoxlu sayda tanrı heykəli tapılmışdır və dünyanın müxtəlif muzeylərinə göndərilmişdir. Bu tanrılar Animizmin inkişaf etmiş formasının nümunələri idi.

Babilistan fetişizmdən müxtəlif  tanrılara sitayişə qədər olan rəngarəng etiqad yolu keçmişdir. Bu tarixi dönəm təxminən dörd min il çəkmişdir. Sonda Ay, Günəş və planetlərin nümayəndələri olan ruhlara sitayiş mərhələsi meydana çıxmışdır. Amma tarixin əksər dönəmlərində tanrıların ən üstünü və ən böyüyü Mərdux olmuşdur.

### 2-2. Babilistan üçlüyü

Babilistanlıların saysız-hesabsız tanrıları arasında altı tanrı digərlərindən daha çox tanınmağa başladı. Onlar iki üçlüyə bölünərək sitayiş olunmağa başladılar. Birinci üçlüyə Anu (səma tanrısı), Enlil (hava və müharibə tanrısı) və Eaa (su tanrısı) və ikinci

[1] Yamaykada da "Rastafərinlər" Efiyopiyanın sabiq imperatoru Haylasilasinin müqəddəsliyinə inanaraq ona sitayiş edirdilər. Onun hakimiyyəti 1974-cü ildə baş vermiş çevriliş zamanı süquta uğradı.  1975-ci ildə edam edilməsinə baxmayaraq ona sitayiş edən insanların əqidəsi dəyişmədən qaldı.

üçlüyə Şemş (günəş tanrısı), Sin (ay tanrısı) və İştar (qadın tanrı) daxil idi.

Bu tanrıların hamısının həyat yoldaşı var idi və məhsuldar lıq İlahəsi olan qadın tanrı İştara olduqca böyük əhəmiyyət verilir. İştarın həyat yoldaşı, yəni əri Təmmuz idi.

Babilistan mədəniyyətinin ən güclü vaxtlarında Mərdux adlı əzəmətli tanrının adı hallanmağa başlayır və hər yerdə onun təsvirini həkk etməyə başlayırlar. Bütün başqa tanrıların Mərduxun əlinin altında olması təsəvvür edilirdi.

Babilistan şimal qonşusu Assuriya tərəfindən məğlubiyyətə uğrayandan sonra Mərdux öz yerini Assuriyalıların tanrısı Assura verdi və bundan sonra artıq hər yerdə onun təsviri həkk olunmağa başladı. Babilistanlılar Assuriyalılara yenidən qalib gəldikdən sonra isə Mərdux yenidən öncə malik olduğu yerə və hörmətə qayıtdı. Sonda Babilistanın Kir tərəfindən işğalından sonra Ahura Mazda Mərduxun yerini tutdu.

## 5. Yunanıstan

Yunanıstan Avropanın cənub şərqində yerləşən kiçik yarımadadır və qədim zamanlarda bura mədəniyyət, incəsənət və düşüncə mərkəzi olmuşdur. Avropa dillərində bu ölkəni "Greece" adlandırırlar. Ərəb dilində olan "İğriq" sözü də bundan əmələ gəlmişdir. Yunan adı Yunanıstanın bir hissəsi olan "İonia"-nın adından götürülmüşdür. Yunanlar öz ölkələrini "Hellas" adlandırırlar və bu ad da yunanların əfsanəvi əcdadının adıdır. Dünyanın bir çox dinləri əfsanələrlə yaxın bağlıdır. Yunanların dini inancları və etiqadları dinşünaslıqda böyük əhəmiyyətə malikdir.

### 3-1. Qədim Yunanıstanda mövcud olan məzhəb

Qədim Yunanlar da kişi və qadın tanrıların mövcudluğuna inanırdılar. Onların ən böyük tanrısının adı Zevs idi. Bəzən onu Zevs Paterus, yəni "Zevs ata" adlandırırdılar. Bu tanrını hindistanlılar "Divs Pitar", qədim romalılar "Yupiter" adlandırırdılar. Yunanların sitayiş etdiyi tanrıların əksəriyyəti qədim Ariyayi tanrılarla eynidirlər. Yunanıstanın bəzi tanrıları bunlarıdır:

Apollo (Günəş tanrısı)

Poseidon (Dəniz tanrısı)
Hestia (Qadın tanrı və ailənin anası)
Demeter (Qadın tanrı, əkinçilik və təsərrüfat tanrısı)
Hermes (Hikmət tanrısı)
Ares (Müharibə tanrısı)

Sonrakı dövrlərdə insanların düşüncələrində dəyişikliklər meydana çıxdı və onlar Zevsin Olimp dağının başında oturması və digər tanrıların onun ətrafında toplaşması etiqadını irəli sürdülər. Onlar ölümdən sonra həyatın mövcudluğuna inanmırdılar, amma dünyada səadət və xoşbəxtlik içərisində yaşamaları üçün bütlərə sitayiş edirdilər. Bu bütlər tanrıların və əfsanəvi qəhrəmanların simvolları idilər. Onların kahinləri də var idi.

### 3-2. Əfsanələr

Bəşəriyyət həyatın sirlərinə aydınlıq gətirməkdə aciz olduğunu anladıqdan sonra müxtəlif anlayışlara və fenomenlərə aydınlıq gətirmək məqsədilə əfsanələr yaratmağa başladı və bu yolda uğur əldə etmək üçün xəyal və fantaziyanın gücündən yararlandılar. Əfsanələrin müxtəlif cəhətləri var idi və onların ən mühümü kamilliyin və mənəvi böyüklüyün yayılması idi. Elə bu səbəbdən də, əfsanələr qurucu qüvvəyə malik olmaqla yanaşı dağıdıcı qüvvəyə malik idilər. Yəni fəzilətlərlə insan ruhunu qururdu, müxtəlif fenomenlərə aydınlıq gətirdikdə isə insanın düşüncəsini dağıdırdı. Bəşəriətdə mövcud olan bütün cəmiyyətlərdə əfsanələr olmuşdur və bizim hal-hazırda əfsanə adlandırdığımız hadisələr öz zamanında və öz yerində həqiqət kimi qəbul edilirdi.

Firdovsinin “Şahnamə” eposunun birinci hissəsi əfsanədir və burada Rüstəm pəhləvan kimi qəhrəmanlar haqqında danışılır. Rüstəm cəmiyyətdə və dünyada olan bütün əyrilikləri aradan qaldırmaq, dəyərləri hakim etməkdən ötrü müxtəlif döyüşlər və müharibələr aparır.

Elmi nöqteyi-nəzərdən din və fəlsəfə əfsanələrdən əmələ gəlmişdir. Amma din barəsində irəli sürülmüş bu iddialar dini nöqteyi-nəzərdən tam yanlışdır və dindarların bu məsələyə yanaşması tam fərqlidir.

Yunanlar da öz əfsanəvi tanrılarına sitayiş edirdilər və onlara qurbanlar verirdilər. Həmin tanrılardan bir neçəsinin adını qeyd etmişik. Amma onların və ümumiyyətlə müxtəlif qədim xalqların əfsanəvi tanrılarının adlarını tam qeyd etmək olduqca çətin bir işdir.

Yunanlar ağıllı və dərrakəli idilər. Hələ elmin müxtəlif sahələrini kəşf etmədiklərinə görə əfsanələr yaratmaqla axtarışda olan zehnlərini sakitləşdiridilər. Necə ki yerin və göyün yaradanına sitayiş etmək əvəzinə müxtəlif bütlərə sitayiş edirdilər. Yunanlar yavaş-yavaş əfsanələri fəlsəfə ilə dəyişməyə başladılar və öz dövrlərində elmin öncülünə çevrildilər. Qeyd etmək lazımdır ki, başqa xalq bu yolda lazımi uğur və müvəffəqiyyət əldə edə bilməyib.

### 3-3. Fəlsəfənin yaranması

Eramızdan təxminən beş əsr öncə Yunanıstanda böyük filosoflar meydana çıxdılar və yeni fikirlər irəli sürüldü. Bu filosofların ən tanınmışları Sokrat, Ploton və Aristotel idi. (Aristotel Plotonun, Ploton isə Sokratın tələbəsi idi) Aristotelin düşüncələri təxminən iki min il Avropanın və İslam dünyasının elmi mərkəzlərində rəvac tapmışdı və olduqca az mütəfəkkir bu fəlsəfi düşüncələri tənqid edə bilib. Yunan fəlsəfəsi və Aristotelin düşüncələri ilkin əzəmətini itirməsinə baxmayaraq hələ də alimlər fəlsəfi məsələlərin şərhində qədim Yunanıstanda Plotonun və Aristotelin əsərlərində olan fəlsəfəyə müraciət etməyə bilmirlər. Yunan filosofları öz nəzəriyyə və düşüncələrinin təlimində geniş şəkildə əfsanələrdən istifadə etmişlər. Belə ki, hal-hazırda da Plotonun əsərlərinin toplusu müxtəlif tanrıların adları ilə doludur. Onlar tanrılara aid edilmiş pis sifətləri özündə əks etdirən epik dastan və hekayələrə etirazlarını bildirirdilər. Plotonun tanrışünaslıq barədə irəli sürdüyü düşüncələrinə görə onu müqəddəs Ploton (Divine Plato) adlandırırdılıar. Aristotel “ilk mühərrik” nəzəriyyəsini irəli sürdü və təkallahlı dinlərin filosofları sonrakı dövrlərdə də onu öz dinlərinin tanrısı ilə eyni bildilər.

## 6. Roma

Qədim dünyanın ən güclü və əzəmətli ölkələrindən biri Roma idi. Roma Avropa, Türkiyə və Suriyanın böyük bir ərazisini özündə

cəmləşdirirdi. Romalılar ən qədim zamanlardan belə memarlıq, rəssamlıq, heykəltaraşlıq, ədəbiyyat və elmin müxtəlif sahələrində böyük nailiyyətlər əldə edərək öncülə çevrilmişdilər. Romalılar dördüncü əsrdə xristianlığı qəbul etdilər və onun yayılması üçün öz qədim mədəniyyətindən geniş istifadə etdilər.

### 4-1. Qədim romalıların dinləri

Qədim romalıların dinləri sadə və ibtidai idi. Onların dini mərasimləri imperatora sitayiş etməkdən, qurban kəsməkdən və tanrılar üçün bayramlar keçirməkdən ibarət idi.

Qədim zamanlarda romalıların hamısı məbədi Roma yaxınlığındakı dağlarda yerləşən tanrı Dianaya sitayiş edirdilər və il ərzində keçirilən bayramlarda həmin məbədə üz tuturdular. Onların həyata keçirdikləri dini ayinlərdən biri müqəddəs odda bişirilmiş müqəddəs yeməklərdən dadmaq idi. Yalnız bu yolla Od tanrısı onlarla eyni paya malik olurdu. Bu yeməyin hazırlanması və yeyilməsi müəyyən dini adət-ənənələr çərçivəsində keçirilirdi. Həmən adətlərin hamısını burada açıqlamaq mümkün deyil. (Ümumiyyətlə, müxtəlif dinlərin ibadət mərasimlərində yeməkdən istifadə mövcuddur və xristianlıqda mövcud olan "tanrının şam yeməyi" da onun nümunələrindən və qalıqlarındandır.

### 4-2. Numa və Roma tanrıları

Tərcümədə ruh mənasını kəsb edən Numa (Numen) etiqadına əsasən, hər bir əşyanın, insanın, heyvanın, daşların və təbiətdə olan hər bir şeyin ruhu vardır. Bu ruhların bəziləri xeyirxah, bəziləri bədxah idi. Sonradan müqəddəsləşən bu ruhlar qeyri-müəyyən təbiətə malik idilər. Romalılar sonrakı dövrlərdə həmin ruhlar üçün xüsusi şəxsiyyətlər də yaratdılar və onlar barəsində əfsanələr meydana çıxartmağa başladılar. Romalıların saysız-hesabsız tanrıları var idi. Onların bəziləri aşağıdakılardır: Yupiter, Canus, Mars, Vesta, Neptun, Vulkan, Venera, Apollon, Minerva, Herkules və s. Yuputer yunanların Zevsi kimi idi. Zevs ata mənasını verirdi. O, nur, ildırım, şimşək tanrısı idi. Ay bədirlənmiş olanda yalnız ona sitayiş edilirdi.

## Ədəbiyyat


1. Böyük dinlərlə tanışlıq, (Ana qaynaq) Hüseyn Tofiqi (Tərcqməçi: Rüstəm Lazımov)
2. Hikmət, Əli Əsğər, Dinlər tarixi, Tehran - 1966
3. Zərrinkub, Əbdülhüseyn, “Vicdan barəsində”, Tehran – 1978
4. Nas, Con. B, “Dinlərin ümumi tarixi”, Tərcüməçi: Əli Əsğər Hikmət, Tehran, 1991
5. Müstəfəvi, Əli Əsğər, “Qurbanlıq əfsanəsi”, Tehran – 1990
6. Jiran. F, “Yunan əfsanələri lüğəti”, tərcüməçi: Əbülqasim İsmailpur, Tehran – 1996
7. Şiera, Edvard, “Babilistan lövhələri”, tərcüməçi: Əli Əsğər Hikmət, Tehran – 1996
8. Makkal, Henrita, “Mesopotamiya əfsanələr”, tərcüməçi: Abbas Müxbir, Tehran – 1994
9. Dokolanj, Fostel, “Qədim sivilizasiya”, tərcüməçi: Nəsrullah Fəlsəfi, Tehran, 1930
10. Fatemi, Səid, “Yunan əfsanələri”, Tehran – 1996
11. Hikmət, Əli Əsğər, Dinlər tarixi, Tehran – 1966
12. Zərrinkub, Əbdülhüseyn, “Vicdan barəsində”, Tehran – 1978
13. Nas, Con. B, “Dinlərin ümumi tarixi”, tərcüməçi: Əli Əsğər Hikmət, Tehran, 1991
14. Mustəfəvi, Əli Əsğər, “Qurbanlıq əfsanəsi”, Tehran – 1990
15. Mircea (ed), “The Encyclopedia of Religion”, New York - 1987
16. Hastings, James, ‘Encyclopedia og Religion and Ethics” New York
17. Parrinder, Geoffrey “Worship in the World’s Religions” London – 1976

# İslam iqtisadiyyatı (Ustad Mütəhhəri baxışında)

**Elman Ağamoğlanov**[1]

**Abstrakt**

İnsan həyatında baş verən hadisələrin bir-birindən ayrı olmasını, hər bir şeyin özünəməxsus bir sahəsinin olmasını və həyatın hər bir hissəsinin xüsusi bir sahəyə məxsus olmasını düşünənlər, islamın özünəməxsus iqtisadiyyatı olması məsələsi açıqlanarkən təəccüblənir, bəzən də bunu inkar edirlər. Çünki onların düşüncəsinə görə, islam və iqtisadiyyat ayrı-ayrı şeylərdir. İslamın bir din olaraq özünəməxsus sahəsi var. Qarşınızdakı məqalə, Ustad Mürtəza Mütəhhərinin İslam iqtisadiyyatı haqqında olan fikirləridir. Sözsüz ki, Ustad Mütəhhərinin iqtisadi qeydləri, yalnız bu məqalədə yazılanlarla bitmir. Usatdın iqtisadi yazıları, yalnız bir məqalə, ya bir kitabla bitmir. Ustadın yazılarının bir hissəsi sələm və bank məsələsi kitabı adı ilə çap olub və qalanları digər adlarla çapdan çıxıbdır.

**Açar kəlmələr:** İslam, iqtisadiyyat, pul, hüquq

[1] - İslam araşdırmaları fakültəsinin müəllimi, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, İran, Qum

## Giriş

Bəziləri də həyatın ümumiyyətlə bir məsələ, dinin də digər bir məsələ olduğunu və dini həyat işlərinə qarışdırmamağı söyləyiblər.

Belə insanların ilk səhvi, insanların həyatında baş verən hadisələrin ayrı-ayrı olduğunu düşünmələridir. Halbuki, həyatın bütün hadisələri vahid və bir-birinə bağlıdır. İnsan həyatının bütün sahəsində olan məqsədəuyğunluq və fəsad, digər sahələrə təsir edir. Hər bir cəmiyyətin mədəniyyət ya siysət ya məhkəmə ya əxlaq və tərbiyə və ya iqtisadyyatı fasid ola-ola, dininin düzgün olması mümkün deyil. Bunun əksi də belədir.

Əgər dinin təkcə məscidə ya kilsəyə getmək, namaz qılıb və oruc tutmaq olmasını fərz etsək, onda dinin digər məsələlərdən ayrı olmasını iddia etmək, mümkündür. Bu məsələ xiristianlıq barəsində doğru ola bilsə də, islam barəsində bunu söyləmək doğru deyil.

İslamla iqtisadiyyatın iki cür bağlılığı

İslamın iqtisadiyyatla iki cür bağlılığı var: Bilavasitə və vasitəli. İslamın iqtisadiyyatla bilavasitə bağlılığı mülkiyyət, mübadilə, maliyyat, qəyyumluq, irs, hədiyyə və sədəqə, vəqf, mali və digər sahələrdə cəzalar barəsində iqtisadi qanunlara zəncirvari bilavasitə bağlılığı olması cəhətindəndir.

İslamın kitabul-bəy (alqı-satqı), kitabul-icarə (icarə), kitabul-vəkalə (vəkalət), kitabur-rəhn (girov), kitabul-irs (irs), kitabul-hibə (hədiyyə), kitabul-vəqfi (vəqf) sahələri var.

Digər tərəfdən, Qurani-kərimin buyurduğu kimi “bəzisinə inanır, bəzilərinə isə inanmırıq” qanununun tərk edilməsini bilirik. Belə olduqda, ya gərək islamı bütünlüklə qəbul etməli, ya da bütünlüklə qəbul etməməliyik.

İslamın iqtisadiyyatla vasitəli bağlılığı, əxlaq yolu ilədir. Digər dinlər də, bu məsələdə müəyyən qədər islama bənzəyirlər. İslam insanları əmanət, iffət, ədalət, yaxşılıq və isara tövsiyə edir. Oğurluq, xəyanət və rüşvəti isə qadağan edir. Bunların hamısı ya sərvət sahəsində olub, ya da bir hissəsinin sahəsi sərvətdir. İqtisadiyyat məsələləri aydınlaşmayınca, ədalət, əmanət, iffət və

yaxşılığın, həmçinin oğurluq, xəyanət və rüşvətin sərhədləri məlum olmaz.

**İslamın sərvət barəsində nəzəri**

İslamın iqtisadi sistemini öyrənmək istədiyimiz zaman, əvvəlcə islamın sərvət və mal barəsindəki nəzərini bilməliyik. Ola bilsin kimsə, islamın sərvətə olan baxışının pis olmasını və sərvtdən uzaqlaşmaq olduğunu düşünsün. Pis və atılmalı olan bir şeyin, qanun-qaydası ola bilməz. Başqa sözlə, bir şeyin barəsində fikrinin müəyyən olduğu və onun atılmasını bildirən ideoloji bir məktəbin, həmin şey barəsində qanun-qaydası ola bilməz. Həmin məktəbin o şey barəsində bütün qanun-qaydası, onu icad etməyin, ona əl vurmayın, əldən-ələ verməyin, istifadə etməyin olacaqdır. Necə ki, şərab barəsində belə qanun-qaydalar gəlibdir: Onu (şərabı) satana, alana, pulunu yeyənə, paylayana və içənə Allahın lənəti olsun...

Cavab budur ki, bu böyük bir səhvdir. İslamda mal və sərvət heç vaxt aşağılanmayıbdır. Nə onu istehsal etmək, nə alıb-satmaq və nə də onu istifadə etmək. Əksinə, bunların hamısına tövsiyə olunub və onlar üçün qanun və şərtlər təyin olunubdur. İslamın nəzərində sərvət heç vaxt pis və uzaq qalmalı bir şey deyil. Əksinə onu atmaq (israf və malı zay etmək) qətiyyətlə haramdır. Səhvin yaranmasına səbəbi budur ki, islam sərvəti hədəf seçməyə və insanın sərvətə qurban olmasına qarşı olub və bununla mübarizə aparıbdır. Başqa sözlə, pulpərəstliyi və insanın pulun qulu olmasını pisləyibdir. Yəni insan pulu pulun özünə görə və yığmaq üçün istəsə, Quranın buyurduğu kimi :

**“Qızıl-gümüş yığıb onu Allah yolunda xərcləməyənləri şiddətli bir əzabla müjdələ”**

, buna hərislik deyilir. Əgər pulu yalnız qarnını doyurmaq, [1] əyyaşlıq, bekarlıq və avaralanmaq üçün istəsə, buna şəhvətpərəstlik deyilir. Bu halda, pul istəmək alçaqlıq, insan şəxsiyyətinin pulda aradan getməsi və insani şəxsiyyətin və mənəvi şərəfin yoxluğu ilə yanaşıdır. Əks tərəfi budur ki, insan pulu fəaliyyət, iş, asanlıq və istehsal üçün vasitə olaraq, əldə etmək istəyir. Belə olduqda, pul insanın əldə etmək istədiyi ümumi bir hədəfə tabedir.

---

[1] Tövbə, 34

İslam peyğəmbəri buyurur : Saleh insan üçün, saleh mal necə də gözəldir.

Mövləvi bu hədisin məzmununu nəzmə belə çəkibdir:

***Malı əgər dinin faydasına görə istəsən Nemə malun salehun adlandırdı onu Rəsul.***

***Gəmidə suyun olması, gəminin batması deməkdir.***

***Gəminin altında olarsa su, onun söykənəcəyidir.***

Şairin sərvətlə insanı dənizlə gəmiyə bənzətməsinin səbəbi, bəzən onu qərq edib şəxsiyyətini aparmasına görədir. Bəzən də onun şəxsiyyətinə zərbə vurmur ki heç, çox vaxt məqsədə yetişmək və şəxsiyyətini kamilləşdirmək üçün yeganə vasitə olur.

**"Xeyr, insan azğınlıq edər, Özünün dövlətli olduğunu gördüyü üçün" 1** ayəsi, pulun insanın şəxsiyyətini fasid etməsindəki rolunu açıqlayır. Həmçinin bu ayə kimi :

“İtaət etmə hər and içənə, alçağa. Qeybət edənə, söz gəzdirənə. Xeyrə mane olana, həddi aşana, günaha batana. Daş ürəkliyə, bunlardan sonra da əsli-nəsəbi bilinməyən haramzadaya. O, mal-dövlət, oğul-uşaq sahibi olsa belə. Ayələrimiz ona oxunduğu zaman o: “Əvvəlkilərin əfsanələridir!” - dedi.” 3

Ya bu ayə kimi:

“Qadınlar, uşaqlar, qızıl gümüş yığınları, yaxşı cins atlar, mal-qara və əkin yerləri kimi nəfsin istədiyi və arzuladığı şeylər insanlara gözəl göstərilmişdir. Bunlar dünya həyatının keçici zövqüdür, gözəl dönüş yeri isə Allah yanındadır.”1

Hansısa bir əməli tərk etməyin səbəbi qadın və uşaq olmadığı kimi, pul və sərvəti də atmağın səbəbi deyil. Pulpərəstliyi pisləyən islam, pulu və sərvəti pisləməmişdir. Çünki :

1). Sərvəti istehsal etmək ( əkinçilik, heyvandarlıq, sənaye və) tövsiyə olubdur.

2). Sərvəti mübadilə etmək, yəni ticarət və alış-veriş tövsiyə olubdur.

3). İnsanı fəsada çəkən israf və hər növ təm-təraqlılıq olmadan, fərdi ehtiyaclar həddində sərvətdən istifadə etməyə tövsiyə olubdur.

[1] Ələq, 6 və 7
[3] Qələm, 10-15
[1] Ali-İmran, 14

4). Onu israf və xarab etmək, qadağandır.

5). Xəyanət, oğurluq və hədər etmək barəsində, ağır məhkəmə qanunları təyin olubdur.

6). Malı qorumaq, cihad hökmündə və bu yolda ölənin, şəhid olduğu buyurulubdur: Əl-məqtulu dunə əhlihi və malihi ...

7). Malın insan üzərində haqqının olması buyurulubdur.

8). Sərvət Quranda açıqca xeyir adlanıbdır:

Sizin hər birinizi ölüm haqlayan zaman qoyub gedəcəyiniz Xeyirdən (maldan) valideynlərinizə, yaxın qohumlarınıza verilməsi üçün ədalət üzrə vəsiyyət etməyiniz zəruridir.1

**Sağlam iqtisadiyyat**

Cəmiyyətin sağlam olmasının ilk şərtlərindən biri, sağlam iqtisadiyyat olduğu kimi, sağlam iqtisadiyyatın da ilk əsaslarından biri, sərvətin inkişaf edə bilməsi və yaşamasıdır. Sağlam iqtisadiyyat, özünə əsaslanan və eyibsiz bir iqtisadiyyatdır. Cəmiyyət sağlam iqtisadi gücə malik olmalı və iqtisadi zəifliyə düçar olmamalıdır. Əks halda, qan azlığı olan xəstə ya ürək-damar sistemi xarab olan bir xəstə kimi, həmişə xəstə olacaqdır. Şübhəiz, heç bir alim, hətta heç bir ağıl sahibi, sağlam iqtisadiyyatın zəruri olmasını inkar etməz. İslama görə, sağlam iqtisadiyyat olmadan islami hədəflər təmin oluna bilməz. İslam, qeyri-müsəlmanın müsəlmana təsir və nüfuz edə bilməməsini istəyir. Bu hədəf o halda baş verə bilər ki, müsəlmanlar iqtisadiyyatda ehtiyaclı olmasınlar və qeyri-müsəlmanlara əl açmasınlar. Əks halda, ehtiyaclı olmaları, qul adı üzərlərində olmasa da, əsir olmağı və qul olmağı lazım tutacaq,. Hər hansı bir millət iqtisadi cəhətdən digər bir millətə əl açsa, onun əsiri və quludur. Belə olduqda, adi diplomatik təriflərin, heç bir dəyəri yoxdur. Nehru deyir :

**İqtisadi sıçrayışı olan millət, müstəqildir.**

Əli (ə) buyurur :

**احتَج اِلی مَن شِئتَ تَکُن اَسیرَهُ ، اِستَغنِ عَمَن شِئتَ تَکُن نَظیرَهُ ، اَحسِن اِلی مَن شِئتَ تَکُن اَمیرَهُ. 1**

---

[1] Bəqərə, 180

[1] Qürərul-hikəm, Tehran universitetinin çapı, c2, s584

Kimə ehtiyaclı olsan, onun əsirisən, kimə ehtiyacsız olsan, onunla bərabərsən və kimə yaxşılıq etsən, onun əmirisən.

Bir xalq kömək istəyib və digəri kömək etdikdə, istər-istəməz birinci qul və ikinci ağadır. İqtisadi gücün sağlam olmasının dəyərini bilməmək və müstəqil iqtisadiyyatın milli yaşamın şərtlərindən olmasını anlamamaq, nə qədər cahillik və axmaqlıqdır. Bu birinci məsələ.

İkinci məsələ budur ki, islam həmişə orta yol və üsulla hərəkət edir. Bu islamın hərtərəfli olmasına görədir. Burda ifrat və təfrit olan iki üslub gözə çarpır. Onların biri, ümumiyyətlə iqtisadi gücün sağlam olmasının dəyərini anlamır və kasıb olmağın tərəfdarıdır. Bunların fikrincə, kasıb olmaq fərd üçün nöqsan olmadığı kimi, cəmiyyət üçün də, nöqsan deyil. Bu fərd üçün də, bir mənada nöqsandır. Hətta fərd üçün nöqsan olmasa da, cəmiyyət üçün nöqsandır. O birisi isə, iqtisadiyyatın əhəmiyyətli olmasını anlayıb, lakin digər məsələləri unudubdur. Onların fikrincə, gəlir mənbəyi insanın istəkləridir. İnsanın tələbatı olan, insanda onu almağa istək olan və gəlirli olan hər şey, satışa çıxarılmalıdır. İnsanın istəkləri, satışa çıxarmaya icazə verən səbəbdir. Hətta satışa çıxarılan cinslər, insana zərərli də olsa. Oyuncaq, çərpələng və bərbəzək xəstəsi olan bir cəmiyyət, ona zərərli olan şeylərə iştahası olan xəstə kimidir. Maşın xəstəsi olan bir cəmiyyət, istisqa (susuzluq) xəstəliyi ya qusmaq və ishal xəstəliyinə düçar olan uşaq kimidir ki, su sahibi suyun qarşılığında pul aldığına görə su verir ki ciblərini pulla doldursun. Daha pisi budur ki, yalançı tələblər yaradır. Heroin düzəldir və külli miqdarda qazanc yolu əldə edir. Dəllala deyir: Aludə olan on nəfərdən biri miqdarında gəlir sənə aiddir. Nə qədər satsan onda biri sənindir. İslamda isə, haram müamilələr var. İslam hər məsələdən qabaq, haram müamilələrdən danışır. Hətta qeyri müsəlmanlara da bütü və xaçı satmağı haram edir. Şərab, qumar və insanları azdıran alətləri, ümumiyyətlə haram edir. İnsanları düz yoldan çıxardan kitabların satışını və düşmənlərə silah satmağı haram edir. İslam tədlis maşitə (qadın saç ustasının ərə getməyə hazırlaşan qızı onu bəyənmək istəyəni aldatması üçün bəzəyərək bu yolla əldə etdiyi pul) və heykəltaraşlığı, qızıl və gümüş qab düzəltmək və satmağı, qatışıqlıq (qəş), mənasız və əxlaqsız işləri,

qumar, qadın alverçiliyini (mamaroza), qiyafə (insanların üz cizgilərindən onların bir-birinə olan qohumluğunu müəyyənləşdirir), kahinlik, tərifə layiq olmayan şəxsi tərifləməyi, nəcşi (hərracda yalandan qiyməti qaldırma), zalimə kömək, zalim tərəfindən rəhbərlik, mömini həcv etməyi (həcv: bir şəxsə, ictimai quruluşa, yaxud həyatdakı mənfiliklərə qarşı yönəldilmiş istehzalı, kəskin, acı, kinayəli yazı), vacibi əməllərdən qazanc əldə etməyi, və haram edir. Qeyd etdiklərimizin hamısından islamın tezisinin belə olması məlum olur:

Gəlir mənbəyi, insanların istək və tələbləri olmamalı, ümumi məsləhətlər gəlir mənbəyi olmalıdır. Fəqihlərin dili ilə desək, halal məqsədlərlə istifadə olunan, əhəmiyyətli və faydalı bütün şeylərin alqı-satqısı düzgündür. Bu iqtisadiyyat, insan əxlaqı və tərbiyəsi ilə əlaqəli və realist bir iqtisadiyyatdır. Deməli, islam sərvəti çoxaltmağın tərəfdarı olmaqla yanaşı, sərvəti özünün ali hədəflərini təmin etmək vasitəsi sayır. Ona görə də, hədəf sərvətin özündən daha alidir. İslam gəlir əldə etməyin yolunu istəklər və tələblər deyil, ümumi məsləhəti gəlir yolu sayır. Amma yeni iqtisadiyyatda,xüsusilə kapitalizm iqtisadiyyatında belə məhdudiyyətlər yoxdur. İran kimi ehtiyaclı ölkələrdən nə aparıb əvəzində nə verdikləri reallığını, ixrac etdikləri mallardan anlamaq olar.

Üçüncü məsələ budur ki, hər bir yolla sərvət dalınca olmağın düzgün olmadığı kimi, iqtisadiyyat sistemi də, inkişaf yolunu bağlayan və qarşısını alan formada olmamalıdır. Bizim fikrimizcə, inkişafa mane olan məsələlərdən biri, "istedad miqdarında iş və ehtiyac miqdarında xərc" tezisidir ki, insanların bir-birirnin mənafelərində şərik olmalarını lazım tutur. Bunun neçə iradı var : Birincisi budur ki, bu məsələ insan fitrətinin əksinədir. İnsan fərdlərinin bir-birinə təbii bağlılığı, bədən hissələrinin bir-birinə olan bağlılığı həddində deyil. İkincisi budur ki, bunun özü bir növ istismar sayılır. Üçüncüsü budur ki, həvəs və fəaliyyətin qarşısını alır. İnsan işinin nəticəsinin özünə qayıtdığını bilən zaman, onda işinə həvəs yaranır. İdarə işçiləri niyə simvol əhlidirlər? Niyə onlarda idarə xəstəliyi var? Çünki, imanları yoxdur. Onların gəlir və nailiyyətlərinin heç birinin fəaliyyətlərinə bağlılığı yoxudur. Əksinə

gəlirləri fraksiyaçılıq, fırıldaqçılıq, mal rüşvəti və bəzən də, namus rüşvəti kimi qeyri-qanuni işlərlədir.

Xoşbəxt o cəmiyyətdir ki, iqtisadiyyat sistemi elədir ki, gəlir əldə etməyin yolu yalnız fəaliyyətlədir. Hər bir şəxsin fəaliyyət nəticələri də, yalnız özünə məxsusdur. Bədbəxt o cəmiyyətdir ki, onda iş cəmiyyətə verilmir. Həmin cəmiyyətdəki iş, birja işləri, qeyri-dövləti işlər və insanları azdıran işlərə, aid edilir1 və sağlam və faydalı fəaliyyət, gəlir yolu sayılmır. Həmçinin, bədbəxt o cəmiyyətdir ki, qeyri-qanuni gəlirlərin yolunu bağlamasına baxmayaraq, şəxsi baxımdan qanuni gəlirin yolunu da, açmamış və "istedad miqdarında iş və ehtiyac miqdarında xərc" tezisi yolunu seçmişdir. İslam  həm şəxsi malikiyyətin tərəfdarıdır, həm də onun, imani tərbiyəsi var və qeyri-qanuni gəlirin yolunu bağlamışdır.

Bizim dəmir divarların o tərəfindən olan ya okeanın o başından gətirilən tezislərin heç birinə ehtiyacımız yoxdur, islamın tezisi bizə kifayət edir. Qanuni yolla əldə edilən yüz parça ilə, mülkiyyətin yaranmamasını qəti şəkildə bilməliyik. Hədisdə buyurur: "Qanuni yolla, on min dirhəm cəm olmaz."1  Əlbəttə, bu hədis o dövrün həyatı barəsindədir. Məqsəd budur ki, həmişə qanuni gəlirin, müəyyən həddi var.Ondan yuxarı olan gəlir, qanuni yolla əldə edilmir. Bu sözün mənası bu demək deyil ki, əgər kimsə əldə edibsə ondan almaq lazımdır. Mülkiyyəti hədələyən tezis, ən səhv tezisdir. Biz çuvalın başın buraxmışıq və "min əynə ləkə haza" (bunu hardan əldə etmisən) qanununu unutmuşuq. Ona görə də, şərik olma və hədələmə yolunu seçmək istəyirik. Ömərin tezisi olan "min əynə ləkə haza" tezisi, şərik olma ya mülikiyyəti hədələmə tezisindən daha dəyərlidir.2

**İstehsal**

İnsanın heyvanların çoxu ilə fərqi bundadır ki, heyvanların çoxu ehtiyaclarını təbiətdən hazır formada əldə edir və özləri onu istehsal edə bilmirlər. Yəni ehtiyacduyduqlarının hazırlanması üçün, təbii maddələr üzərində az da olsa işləmələrinə ehtiyac yoxdur.

---

[1] Bu mədəniyyət, ədliyyə və iman cəhətinə aiddir

[1] Vəsailuş-şiə, c12, kitabut-ticarə, bab 8, s 21, Təhzibdən nəql olunub, c2, s100

[2] Bax: Ömər Əqqadın Əbqəriyyə kitabı

Çünki belə işləri bacarmırlar. İnsan isə, həm yaşamaq üçün zəruri olan ehtiyaclarının çoxunu içləməklə hazırlamağa məcburdur, həm də onda belə işləri görməyə istedad var. Hətta yaranışın özündə də, bu ehtiyac və bu güc arasında, əlaqənin olmasını söyləyə bilərik. Əlbəttə heyvanların da bəzisi öz yaşam ehtiyaclarını işləməklə hazıralayır və istehsalçı sayılır. Həm əkinçiliyi həm də heyvandarlığı olan bəzi qarışqalar və bal arısı kimi.1 İstehsal kömək və şəriklik̇lə olduğuna görə, xüsusi qanun və əlaqələri lazım tutur. Deməli, qanuni və iqtisadi əlaqələr, yalnız həyata zəruri olan şeylərin istifadəsi və bölümü barəsində olan əlaqələrə məxsus deyil. Muzd alma, iş satma, müzariə və digər əlaqələr kimi bir-birinə bağlı olan başqa əlaqələr də, istər-istəməz insanlar arasındakı istehsalda bərqərar olur. Deməli, iqtisadi əlaqələr bir tərəfdən istehsal, digər tərəfdən sərvətin bölünməsi vasitəsilə yaranır. Yəni sərvət əvvəlcə hazırlanmalı, sonra isə bölünməlidir. Hamının ona ehtiyaclı olmasına, bol və pulsuz olmamasına görə, iqtisadi əlaqələr yaranacaqdır. İstehsal əlaqələri işin dəyərinə aiddir. İşin dəyəri istehsalda istifadə olunan işlərə məxsus deyil. İctimai, siyasi və mədəni işlər kimi istehsal olunmayan işlərin də, dəyəri var. Orda da, xüsusi iqtisadi əlaqələr yaransa da, işin dəyəri iqtisadi dəyərə tabe deyil. Yəni yalnız işin dəyərinin meyarı, iqtisadi ehtiyac deyil. İşin dəyərinin meyarı, bütün təbii və fitri ehtiyaclardır. İqtisadiyyat təbii və fitri ehtiyaclardan biridir. Biz bu barədə "dəyər" fəslində danışacağıq.

İki cür əlaqə

İqtisadi əlaqələr iki növdür: təbii əlaqələr və qanuni əlaqələr (Başqa sözlə desək, iki cür iqtisadiyyat var: təbii iqtisadiyyat və proqramlı iqtisadiyyat). Təbii əlaqələr, inflyasiya, qiymətlərin enib-qalxması, işsizlik,iqtisadi böhran, qazanc, zərər, muzd, maliyyət və bunun kimi, müamiləli və azad iqtisadiyyatda təklif, tələb və qiymətə aid əlaqələr kimi, iqtisadiyyatda istər-istəməz yaranan səbəb və nəticə əlaqələr silsiləsindəndir. Qanuni əlaqələr isə, şəxsi ya şərikli mülkiyyət və hüquqla əlaqəli qaydalardır.

[1] Bax: İnsanın yaranma sirri, müəllif Kersi Murisen, mütərcim Məhəmməd Səidi

**Təbii və müqaviləli əlaqələrin bir-birinə təsiri**

Diqqətə layiq məsələlərdən biri, təbii və müqaviləli əlaqələrin bir-birinə təsir etməsidir. Təbii əlaqələr iş, sənaye, istehsal alətlərinin təkmilləşməsi, rəqabət və cəmləmələrlə əlaqəlidir. Marksistlərin fikrincə, istehsal alətlərinin təkmilləşməsi, istər-istəməz iqtisadi qanunların dəyişməsinə səbəb olur. Onların dili ilə desək, "istehsal alətlərinin təkmilləşməsi, insanların hüquqi əlaqələrində dəyişikliyə səbəb olur." Onlar müqaviləli əlaqələri bütünlüklə təbii iqtisadi əlaqələrə hakim olan istehsal alətlərinə tabe sayırlar. Onlar fikrincə, istehsal alətlərinin təkmilləşməsi, iqtisadi təbii əlaqələrin dəyişməsinə səbəb olur. Bu dəyişiklik, istər-istəməz iqtisadi qanunlarda qaçılmaz dəyişikliyə səbəb olur. Hər iqtisadi qanun, istehsal alətlərinin təkmilləşmə mərlələrindən birinin nəticəsidir. Marksistlərin nəzərində, iqtisadiyyatın təbii əlaqələrində qanuni əlaqələrin təsirinin olmaması mümkündür. Digərlərinin nəzərində isə əksinə, qanuni əlaqələrdə təbii əlaqələrin təsiri olmaya bilər. Lakin bunların heç biri düzgün deyil. Həm xüsusi ictimai qanunlar xüsusi iqtisadi təbii cərəyanların yaranmasına səbəb olur, həm də, təbii əlaqələr istər-istəməz yeni qanunların yaranmasına səbəb olur. Əsas sual budur ki, iqtisadi qanunların, yəni iqtisadiyyatın qanuni əlaqələrin istehsal alətlərindən başqa bir əsası yoxdurmu? Yaxud, xüsusi mənada olan ictimai qanunlar silsiləsindən olan bu qanunlar, istehsal alətlərinə ehtiyacı olmayan təbii hüquq silsiləsi ilə əlaqələnirmi? Bizim ilə marksistlərin əsas fikir ayrılığımız bu bölümdədir.

**Mübadilə**

İqtisadiyyata aid məsələlərdən biri, mübadilədir. Mübadilə fərdi mülkiyyətin şaxələrindəndir.1 Mübadiləli iqtisadiyyat, fərdi mülkiyyətə əsaslanan iqtisadiyyatdır. Mübadilə bəzən, ilk insan cəmiyyətlərində mövcud olan malı mal ilə əvəzləmə formasında olur. Bəzən də, pul vasitəsilədir. İqtisadiyyatın inkişaf etməsinə görə, mübadilələr üçün vasitə tapmağa məcburuq. İnsanların ictimai həyatı yalnız ailə həyatı həddində olduğu zamana qədər, mübadilə

[1] Şərikli mülkiyyətdə də mübadilə var, lakin cəmiyyətlər arasında deyil, fərdlər arasındadır.

mövcud olmayıbdır. Sonralar isə ailə həyatı, qəbilə həyatı ilə əvəzlənibdir. Qəbilə həyatında, sosialistlərin iddia etdiyi kimi fərdi mülkiyyət və mübadilə mövcud olmayıbdırmı? Yaxud insanlar ailə həyatından ictimai həyata keçməsi ilə, mübadilə və fərdi mülkiyyətə keçmək məsələsi ortaya gəlibdirmi? Bu məsələ barəsində sonradan danışmalıyıq.

**Pul**

İqtisadi məsələlərdən biri də, puldur. İnsanların ictimai həyatı daha çox genişlənmədiyi zamanadək və işin bölünməsi məsələsi ortaya çıxmayana qədər, insanların ehtiyac duyduqları şeylər asanlıqla mübadilə oluna bilirdi. Yəni insanlar, ehtiyaclı olduqları malın istehsalçısına lazım olan öz istehsallarını mübadilə etmək vasitəsilə, ehtiyac duyduqları şeyi asanlıqla əldə edə bilirdilər. Amma tədricən sənayenin təkmilləşməsi, ehtiyacların müxtəlifliyi və genişlənməsi, əlaqələrin artması, bölünmələrin və təxəssüslərin çoxalması nəticəsində, qanuni və zəmanətli ya zati dəyəri olan xüsusi bir şeyin mübadilədə olması zərurəti yarandı ki, həmin şey pul oldu. Pul barəsində müxtəlif müzakirələr var. Onlardan biri budur ki, qızıl və gümüşün dəyəri zatidirmi? Yəni pulun mübadilədə vasitə olma səbəbi, bütün dövrlərdə hamının ona ehtiyaclı olmasına, köhnəlməməsinə, yüngüllüyünə və asanlıqla daşına bilməsinə görədirmi? Yoxsa bunun başqa səbəbi olub və qanuni cəhətinə görədir? Digər məsələ budur ki, tarixin hansı dövründə və insan cəmiyyətinin hansı tarixi mərhələsində, insanlar puldan istifadə etməyə başlamışlar? Bu məsələlər haqqında sonradan danışmalıyıq.

**Dəyər**

İqtisadiyyata aid digər məsələlərdən biri, dəyər ya qiymətdir. Mübadiləli iqtisadiyyatlarda, malların müxtəlif qiymətləri olur və qiymətlər yuxarı-aşağı gedir. Bəzən bir şey digər şeydən bahalı, bəzən də ucuz olur. Bəzən qiymətlərin yuxarı olmasına baxmayaraq, pulun çox olmasına görə firavanlıq daha çoxdur. Bəzən qiymətlərin düşməsi ilə həyat çətinləşir. Bəzən də, qiymətlər yuxarıya getməsi, həyatın çətinləşməsinə səbəb olur. Bunların arasında nə bağlılıq var? Birinci məsələ budur ki, dəyər hardan yaranır? Bu fəlsəfi bir məsələdir. İkinci məsələ budur ki, qiymətlərin enib-qalxmasının səbəbi nədir? Firavanlığı necə təmin etmək olar? Qiymətləri necə

sabit saxlamaq olar? Bunlar digər məsələlərdir ki, sonradan onlar haqqında danışacağıq.

**İctimai və iqtisadi həyatın mərhələləri**

Digər məsələ budur ki, insanlar ictimai və iqtisadi cəhətdən hansı mərhələlərdən keçibdir? Sosialistlərin fikrincə, insan həyatı ilk dövrdən indiyədək dörd mərhələdən keçibdir:

İbtidai icma quruluşu

Feodalizm

Kapitalizm

Sosializm

Bu məsələ, sivilizasiyalar tarixini yazanların təbiri ilə müqayisə olunmalıdır. İqtisadi mərhələlərin aydınlaşması üçün, mədəniyyət, siysət və əqidələri əhatə edən həyatın bütün sahələrində, insanların hansı mərhələləri keçməsini bilməliyik. Sonradan bu haqda da, danışacağıq.

## Nəticə

İslam iqtisadiyyat əsaslarının güclənməsinin tərəfdarıdır. Bu məsələ, iqtisadiyyatın özünün hədəf ya yeganə hədəf olmasına görə deyil. Bu istək, müstəqil iqtisadi güc və sağlam iqtisadiyyat olmadan, islami hədəflərin mümkün olmamasına görədir. İslam iqtisadiyyatı ictimai həyatın əsaslarından biri sayır. Ona görə də, iqtisadiyyata görə digər əsaslara zərbə vurmur. İslam gəlir mənşəyinin istək və tələblər olması nəzəriyyəsini qəbul etmir. İslama görə, istəklər insanın hər tərəfli və ali məsləhətlərinə uyğun olmalıdır. Ona görə də, islamda "haram gəlirlər" adlı mühüm bir fəsil var.

İslam nəzərində qanuni gəlir, bir tərəfdən insan fəaliyyətinin nəticəsi olan ya ən azı istismar cəhəti olamayan, digər tərəfdən də istifadə baxımından, şərii və faydalı istifadə etmək qabiliyyəti olan gəlirə deyilir. Fəqihlərin termini ilə desək, müamilə edilən malın "halal məqsədlərlə istifadə olunan faydası" olsun. Sosialistlərin termini ilə desək , hədəf, cəmiyyətin mənafeləri olmalıdır, hansısa bir şəxsin cibini doldurmaq yox.

İqtisadiyyat nədir?

İnsan həyatı və yaşaması üçün, "yaşayış vasitələri" adlanan yemək, libas və mənzil kimi şeylərə ehtiyaclıdır. İnsanın bunlardan başqa digər ehtiyaclara, məsələn ailəyə aid ehtiyaclara, yəni arvad və uşaq, mədəni, dini, mənəvi və siyasi ehtiyaclara, yəni hökumət və hökumət işləri ilə əlaqəli olan işlərə və məhkəmə kimi ictimai ehtiyaclara da, ehtiyacı var.1 İnsanın ehtiyacları arasında, iqtisadi ehtiyac ən birincisi sayılır. Yəni insan həyatı və yaşaması üçün, onlara ehtiyaclıdır və onlar olmadan yaşaya bilməz.

Fərz edək, elə bir zaman olub ki, insanlar tək yaşayıblar. Yəni insanlar arasında heç bir müştərək səy olmayıbdır. (Sürü formasında yaşamamasını demirik) Hər kəs özü ehtiyaclarını əldə edib və istifadə edibdir. Belə bir zamanda, iqtisadiyyatın əhəmiyyəti olmayacaqdır. Necə ki, ceyran sürüsünün birlikdə otlamasına

---

[1] Fikrimizcə, iqtisadi işləri tərif edərkən və onları qeyri-iqtisadi işlərdən ayırmaq istədikdə, "maddi ehtiyacların mənəvi ehtiyaclar qarşısında olmasını" söyləmək kifayət etmir. Çünki maddiyyat və mənəviyyat arasında sərhəd müyyən etməyin iradı var.

baxmayaraq, onların arasında adını iqtisadi ya ictimai əlaqə qoya biləcəyimiz heç bir əlaqə yoxdur. Amma iş və vəzifələrin bölünməsi və müştərək səy, hətta ən sadə formasında –yəni kiçik bir cəmiyyət olan ailənin idarəsini öhdəsinə götürən ailə başçısı kimi qohumluq sahəsində- insanlar arasında istər-istəməz ictimai əlaqələr yaranandan sonra, dolanışıq vasitələrinin bölünməsi məsələsi ortaya çıxdı. Yəni yaşamağa lazım olan şeyləri işləməklə (istehsal), ya hazır formada təbiətdən əldə etməklə (sudan balıq tutmaq və ağacdan meyvə dərmək kimi), yaxud ehtiyac duyulan şeylərin bərabər ya qeyri-bərabər formada bölünməsi ilə (daha güclü və daha bacarıqlının çox paya sahib olması kimi), insanlar arasında sadə iqtisadi əlaqələr yarandı. Deməli, insanlar arasında ictimai əlaqələr qurulduğu zaman, iqtisadi əlaqələr yaranır. Yəni müştərək səy və iş və vəzifənin bölünməsi məsələsi ortaya çıxır və dolanışıq vasitələrinin məhdud olmasına görə, işlərin bölünməsinə ehtiyac duyulur. Əgər insanların ailə, mədəniyyət və siyasi ehtiyaclara görə, ictimai yaşamağa ehtiyaclı olmalarına baxmayaraq, yaşamğa lazım olan hər şeyin hava kimi –hamının əlində olan və həyata ən çox lazım olan şey olmasına baxmayaraq- o qədər çox olub hamının əlində olmasını fərz etsək, işlərin bölünməsinə ehtiyac olmayacaq. Belə olduqda, fərdi ya şərikli mülkiyyət, hüquq, üstünlük vermək və digər xüsusi iqtisadi əlaqələr qurulmayacaqdır.1 İqtisadi əlaqələr, digər ictimai əlaqələr kimi müqaviləli məsələlərdəndir . İctimai əlaqələrdə, rəhbərlik, vərəsəlik, evlənmək, tabe olmağın vacibliyi və digər məsələlərdən danışılır. Xüsusi iqtisadi əlaqələrdə isə, malik olma, mülkiyyət, hüquq, müamilə və digər məsələlərdən danışılır. Yəni müştərək səy və işin bölünməsi zəruri olandan sonra, bəzi qanuni və hüquqi məsələlər zəruri sayılır. Həyata lazım olan şeylər və sərvətin istehsalı və bölünməsinə aid olan qanuni məsələlər, "iqtisadi əlaqələr" adlanır.

---

[1] Hər şeyin bol olmamasının səbəbinin, işin lazım olması qanununa qayıtmasını deyə bilərik. Yəni qeyd etdiyimiz kimi, "vəzifə və iş" öz-özünə təbii bolluğun olmamasını lazım tutur.

**Ədəbiyyat**


1. Qurani-kərim
2. Nəhcül-bəlağə
3. İslam iqtisadiyyatı nəzəriyyəsi, Mürtəza Mütəhhəri (əsas qaynaq)
4. Təbatəbayi, Məhəmmədhüseyn, Qum, əl-Mizan, 1389
5. Qürbül-isnad, Abdullah ibn Cəfər Himyəri Qummi, tədqiq: Alül-beyt müəssisəsi, Qum, Alül-beyt müəssisəsi, 1413 hicri-qəməri, birinci çap.
6. Əl-Kafi, Məhəmməd ibnYəqub Kuleyni Razi, tədqiq: Əli Əkbər Qəffari, Beyrut, Darüs-səb və Darüt-təarüf, 1401 hicri-qəməri, dördüncü çap.
7. Biharül-ənvar, Məhəmmədbaqir ibn Məhəmmədtəqi Məclisi (Əllamə Məclisi), Beyrut, Vəfa müəssisəsi, 1403 hicri-qəməri, ikinci çap

# İmamətin zərurəti

**Sadiq Fəthəliyev**[1]

**Abstrakt**

İslam Peyğəmbəri (s) Mədinəyə köçdükdən və o şəhər əhalisinin (onlara “ənsar” deyilirdi), xüsusilə, Məkkədən köçüb oraya gələn mühacirlərin misilsiz kömək və himayələrindən bəhrələndikdən sonra islam cəmiyyətinin əsasını qoyaraq onu idarə etməyə başladı. “Peyğəmbər məscidi” ilahi risalətin təbliğ olunduğu, ibadət və camaatın tə’lim-tərbiyə mərkəzi olmaqdan əlavə, mühacirlərin və məhrum kütlələrin də mə’nəvi sığınacaq yeri idi. Peyğəmbər (s) onların maddi çətinliklərini və iqtisadi məsələlərini məhz həmin yerdə həll edirdi. Həmçinin münaqişəli məsələlərin çözülməsi, hərbi tədbirlər barədə qərar qəbul edilməsi, cəbhələrə kömək və s. kimi hökumət məsələləri də burada həll olunurdu. Aydındır ki, dünyanın sonuna qədər bütün bəşər cəmiyyətlərini düz yola hidayət etməyə qadir olmasını iddia edən bir din bu kimi mühüm məsələlərə laqeyd yanaşa bilməz.

**Açar kəlmələr:** peyğəmbər, imam, elm, hidayət

---

[1] - İslam araşdırmaları fakültəsində könüllü araşdırmaçı, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, İran, Qum

## Giriş

Həzrət Məhəmməd Peyğəmbər sağ ikən, camatın dini və dünya işləri (s) onun əlində idi və müsəlmanlar o Həzrətin (s) göstərişlərinə itaət etməyi özlərinə vacib bilirdilər. Çünki Mütəal Allah müsəlmanlara o Həzrətə (s) mütləq şəkildə itaət etməyi əmr etməkdən əlavə,1 siyasi, məhkəmə, hərbi məsələlərdə də Rəsuli-Əkrəmə (s) itaət etmək barədə tə'kidli əmrlər vermişdi.2

Başqa sözlə, Peyğəmbər (s) nübüvvət və risalət, İslam hökmlərini ümmətə bəyan edib öyrətməkdən əlavə, islam cəmiyyətinə rəhbərlik etmək kimi bir öhdəçiliyə də malik idi. Daha sonra o, qəzavət (məhkəmə), hərbi rəhbərlik və s. kimi mühüm vəzifələri də icra edirdi. İslam dinində ibadi və əxlaqi vəzifələrdən əlavə siyasi, iqtisadi, hüquqi və s. hökmlər də mövcud olduğundan islam Peyğəmbəri də (s) insanlara tə'lim-tərbiyə vermək və Allah tərəfindən dini vəzifələri onlara çatdırmaqla yanaşı, ilahi hökm və qanunların icra olunmasını və bütün hökumət işlərini də öz öhdəsinə almışdı.

Sözsüz ki, düz yola hidayət etməyə qadir olmasını iddia edən bir din bu kimi mühüm məsələlərə laqeyd yanaşa bilməz. Təməlini bu din təşkil edən bir cəmiyyət də bu kimi siyasi və hökumət mənsəblərindən məhrum ola bilməz. Bu mənsəblər də məhz "imamət məqamı" adı ilə tanınır.

Amma yenidən belə bir sual yaranır: Peyğəmbərin (s) vəfatından sonra bu məqamı kim öhdəsinə almalıdır? Mütəal Allah bu məqamı Peyğəmbərə əta etdiyi kimi, başqa şəxslərə də verirmi? Bu məqam yalnız Allah tərəfindən tə'yin olunması ilə özünə qanunilik tapırmı? Yoxsa, bu məqamın Allah tərəfindən əta olunması yalnız Peyğəmbərə (s) aiddir və o Həzrətdən (s) sonra camaat özü imam seçib özlərinə rəhbər tə'yin edir? Doğrudanmı

---

1 "Ali-İmran" surəsi, ayə:32, 132, "Nisa" surəsi, ayə:12, 14, 69, "Maidə" surəsi, ayə:92, "Ənfal" surəsi, ayə:1, 20, 46, "Tövbə" surəsi, ayə:71, "Nur" surəsi, ayə:51, 54, 56, "Əhzab" surəsi, ayə:66, 71, "Hücurat" surəsi, ayə:14, "Fəth" surəsi, ayə:16-17, "Məhəmməd" surəsi, ayə:32, "Mücadilə" surəsi, ayə:12, "Mümtəhinə" surəsi, ayə:12, "Təğabun" surəsi, ayə:12, Cin-23.

2 "Ali-İmran" surəsi, ayə:152, "Nisa" surəsi, ayə:42, 59, 65, 105, "Maidə" surəsi, ayə:48, "Həcc" surəsi, ayə:67, "Əhzab" surəsi, ayə:6, 36, "Mücadilə" surəsi, ayə:8-9, "Həşr" surəsi, ayə:8.

camaatın belə bir haqqı var? Sünnilərlə şiələrin əsas ixtilafı da məhz bu məsələ üzərindədir. Belə ki, şiələrin inancına görə, imamət Allah tərəfindən olan bir mənsəb olub səlahiyyətli şəxslərə verilir. Mütəal Allah Peyğəmbəri-Əkrəmin (s) vasitəsilə həzrət Əlini (ə) o Həzrətin (s) özündən sonrakı canişini qərar vermiş, daha sonra onun on bir övladı biri digərindən sonra imamət məqamına tə'yin olunmuşdur. Sünnilər isə inanırlar ki, nübüvvət və risalətdə olduğu kimi, imamət də Peyğəmbərin (s) vəfatı ilə sona çatır və ondan sonra imam camaat tərəfindən tə'yin olunur. Sünnilərin bə'zi böyük şəxsiyyətləri aşkar şəkildə iddia etmişlər ki, hətta əgər bir şəxs silah gücü ilə camaata hakim olsa, bundan sonra ona itaət etmək hamıya vacib olmalıdır![1] Halbuki, bu cür puç nəzəriyyələr hiyləgər, zalım və zorakı insanlar tərəfindən sui-istifadə edilərək müsəlmanları perik salıb tənəzzülə uğratmalarına şərait yaradır.

Həqiqətdə sünnilər imamətin Allah tərəfindən tə'yin olunmasını qanuni bir iş kimi qəbul etməklə "dinin siyasətdən ayrılığı" kimi istismarçı siyasətin əsasını qoymuşlar. Şiələrin əqidəsinə görə, məhz bu iş həqiqi İslamdan, Allaha pərəstiş yolundan azğınlığa düşmənin başlanğıcı, eləcə də Peyğəmbərin (s) vəfatından e'tibarən müsəlmanların arasında baş verən, yaxud gələcəkdə baş verəcək yüzlərlə inhiraf və azğınlığın mənşəyi olmuşdur.

Buna görə də müsəlman bir şəxs bu məsələni tam ciddiyyətlə, hər növ təqlidçilik və təəssübdən uzaq olmaq şərti ilə araşdırmalı[2] və haqq məzhəbi seçərək var-qüvvəsi ilə onu himayə etməlidir.

Aydındır ki, İslam dünyasının ümumi məsləhətini nəzərə alaraq, İslam düşmənlərinin mövcud ixtilaflardan və müxtəlif məzhəblərin qarşıdurmasından istifadə etməsinə şərait yaratmaqdan uzaq olmaq lazımdır. Biz elə bir iş görməməliyik ki, müsəlmanların

---

1 "Əl-əhkamus-sultaniyyə" (Əbu Yə`la) Əbu Qasmi Səmərqəndinin "Əssəvadul-ə`zəm" kitabının tərcüməsi, səh 40-42.

2 Xoşbəxtlikdən böyük alimlər bu barədə müxtəlif dillərdə və müxtəlif üslublarla minlərlə kitab yazmış, haqq-həqiqət axtaranlar üçün tədqiqat yolunu açmışlar. Nümunə üçün "Əbəqatul ənvar", "Əl-ğədir", "Dəlailus-sidq", "Ğayətul-məram", "İsbatul-hudat" kimi kitabları qeyd etmək olar. Daha artıq mütaliə etməyə imkanı olmayan şəxslərə iki sünni və şiə alimi arasında yazışmadan ibarət olan "əl-Müraciat" kitabına, eləcə də "Əsluş-şiə və usuluha" kitabına müraciət etmələrini məsləhət görürük.

cərgələrində təfriqə yaransın və kafirlər qarşısındakı sıx birlikləri aradan getsin. Bütün müsəlmanlara vacibdir ki, ziyanı özlərinə qayıdan, İslam cəmiyyətinin zəifləməsindən başqa bir nəticəsi olmayan işlərdən çəkinsinlər. Digər tərəfdən də müsəlmanların vəhdət və birliklərinin qorunub saxlanması haqq məzhəbin ayırd edilməsi və imamət məsələsinin araşdırılması üçün sağlam mühit yaradılmasına lazım olan təhqiq və sə'ylərə mane olmamalıdırlar. Bu elə bir məsələdir ki, onun düzgün şəkildə həll olunması müsəlmanların müqəddəratının həll edilməsində, onların dünya və axirət səadətlərində tam mə'nada tə'sirlidir.

## İmamət məfhumu

"İmamət" sözünün lüğəti mə'nası rəhbərlik, başçılıq etmək deməkdir. Haqq və ya batil yolda olmasından asılı olmayaraq müəyyən bir qrupun rəhbərliyini öhdəsinə alan şəxsə "imam" deyilir. Belə ki, Qur'ani-kərim "əimmətəl-kufr"1 kəlməsini kafir başçıları ilə əlaqədar işlətmişdir. Namazda başqalarının iqtida etdiyi şəxs də camaat namazının imamı adlandırılır.

Amma kəlam elmində «imamət» sözündən aşağıdakı kimi istifadə olunur:

"İslam cəmiyyətində müsəlmanların bütün dünyəvi və dini işləri ilə əlaqədar olan hərtərəfli rəhbərlik».

"Dünyəvi" kəlməsinin imamətin əhatə hüdudlarının genişləndirir. Çünki cəmiyyətin dünyəvi işlərinin idarə olunması İslam dininin ayrılmaz bir hissəsidir.

Şiələrin nəzərinə görə belə bir rəhbərlik yalnız o zaman qanuni olacaqdır ki, Mütəal Allah tərəfindən tə'yin olunsun. Belə bir məqama əsalətən malik olan şəxs islami hökmlərin və maarifin dəqiq şəkildə bəyan olunması üçün hər növ xətadan, eləcə də günahlardan uzaq olmalıdır. Həqiqətdə mə'sum imam Peyğəmbəri-Əkrəmin (s) nübüvvət və risalətdən başqa malik olduğu bütün məqamlara malikdir. Həmçinin onun sözləri islam maarifi və qayda-qanunlarının və dini həqiqətlərin bəyan olunmasında höccətdir. Həm də müxtəlif hökumət işləri ilə əlaqədar məsələlərdə ona itaət etmək vacibdir.

---

1 "Tövbə" surəsi, ayə:12.

Deməli, sünni və şiələrin imamət məsələsindəki ixtilafı üç məsələdən ibarətdir:

1.İmam Allah tərəfindən tə'yin olunmalıdır.

2.İmam Allah tərəfindən verilən xüsusi elmə malik və xətalardan uzaq olmalıdır.

3.Günahlardan pak və mə'sum olmalıdır.

Əlbəttə, mə'sum olmaq imam olmağı zəruri etmir. Çünki şiələrin e'tiqadına görə, həzrət Fatimeyi Zəhra da (s) mə'sumdur, amma imamət məqamına malik deyildir. (Eləcə də həzrət Məryəm də (s) ismət məqamına malik olmuşdur.) Allah övliyaları arasında belə bir məqama malik olan digər şəxslərin də olması mümkündür, baxmayaraq ki, onların barəsində bizim mə'lumatımız yoxdur. Ümumiyyətlə, mə'sum şəxsin Allah tərəfindən təqdimolunma yolundan başqa bir yolla ayırd edilməsi müyəssər deyildir.

**İmamətin əhəmiyyəti**

E'tiqadi məsələlərdə dərin düşüncəyə malik olmayanların çoxu belə təsəvvür edir ki, şiələrlə sünnilərin imamət məsələsindəki ixtilafları yalnız bundan ibarətdir: şiələrin inancına görə, Peyğəmbər (s) Əliyyibni Əbi Talibi (ə) cəmiyyətin işlərini idarə etmək üçün özünə canişin seçmişdir. Lakin sünnilər inanırlar ki, belə bir iş baş verməmişdir və camaat öz istəyi ilə özlərinə rəhbər tə'yin edərək onu şəxsən canişin tə'yin etmişlər. O da özündən sonrakı xlifəni tə'yin etmiş, üçüncü mərhələdə rəhbərin tə'yin edilməsi altı nəfərlik şuraya həvalə edilmiş və dördüncü xəlifə bir daha ümumcamaat tərəfindən seçilmişdir. Belə şəxslərin fikrincə müsəlmanlar arasında rəhbər tə'yin edilməsi üçün xüsusi bir üslub olmamışdır. Buna görə də dördüncü xəlifədən sonra hər kəsin daha artıq hərbi qüdrəti olmuşsa, bu məqamı öhdəsinə almışdır. Belə ki, qeyri-islami ölkələrdə də hakimiyyətəgəlmə əksər hallarda bu minvalla icra olunur.

Başqa sözlə desək, bə'ziləri belə güman edirlər ki, şiələr birinci imamın tə'yin olunmasında sünnilərin ikinci xəlifənin birinci xəlifə tərəfindən tə'yin olunması kimi e'tiqada malikdirlər. Fərq isə bundan ibarətdir ki, Peyğəmbərin (s) nəzəri camaat tərəfindən qəbul edilmədi, amma birinci xəlifənin nəzəri camaat tərəfindən qəbul edildi!

Lakin sual yaranır ki, görəsən, birinci xəlifə bu haqqı haradan əldə etmişdi? Nə üçün sünnilərin e'tiqadına əsasən Peyğəmbəri-Əkrəm (s) İslam üçün birinci xəlifə qədər ürək yandırmamışdı və bünövrəsi yenicə qurulmuş İslam cəmiyyətini başsız qoymuşdu?! Halbuki Mədinədən cihada getdiyi zamanlarda belə, öz yerində müəyyən bir şəxsi tə'yin edirdi. Həm də o Həzrət (s) öz ümmətinin arasında gələcək ixtilaf və fitnələrdən xəbər verirdi. Bu kimi çoxlu sualları nəzərə almasaq belə, əsas e'tibarı ilə buna diqqət yetirmək lazımdır ki, sünnilərin və şiələrin ixtilafı, hər şeydən öncə, imamətin dini bir məqam olub şəriət və Allah tərəfindən tə'yin edilməyə bağlı olmasımı, yoxsa, dünyəvi bir səltənət olub ictimai amillərə tabe olması ilə əlaqədardır. Şiələr inanırlar ki, hətta Peyğəmbərin (s) özü belə öz canişinini tə'yin etməkdə müstəqil deyilmiş, əksinə, onu ilahi vəhy əsasında tə'yin etmişdir. Həqiqətdə nübüvvətin sona çatması hikməti mə'sum imamın tə'yin edilməsi ilə tam mə'nada əlaqəlidir və Peyğəmbərin (s) vəfatından sonra İslam cəmiyyətinin əməl olunması lazım olan məsləhətləri məhz belə bir imamın varlığı ilə müəyyən olunur.

Buradan şiələrin nəzərində imamət məsələsinin nə üçün e'tiqadi bir prinsip kimi irəli çəkilməsi və ona füruiddindən olan fiqhi bir hökm kimi baxılmaması, nə üçün onların imamda üçlük təşkil edən şərtləri (Allah verən elm, ismət və Allah tərəfindən tə'yin olunma) mö'təbər saymaları, nə üçün şiənin kəlam istilahında bu məfhumların – İslam cəmiyyətinə rəhbərlik, hökumət və ilahi hökmlərin tanınmasında mərcəiyyətin məfhumu ilə qarışması aydın olur və sanki imamət kəlməsi onların hamısına dəlalət edir.

İndi imamət məfhumu və onun şiə e'tiqadında tutduğu mövqeyə nəzər yetirməklə bu əqidə barəsində söhbətə başlayırıq.

**İmamın varlığının zərurəti**

22-ci dərsdən aydın oldu ki, insanın yaradılışındakı hədəfin gerçəkləşməsi vəhy vasitəsilə yol göstərməyə bağlıdır və Allahın hikməti bunu tələb edirdi ki, dünya və axirətdəki səadət yollarını insanlara öyrətmək üçün müəyyən peyğəmbərləri göndərərək onların bu ehtiyaclarını tə'min etsin. Onlar da öz növbəsində iste'dadlı insanları tərbiyələndirsinlər və onları müyəssər olan kamalın son mərhələsinə çatdırsınlar Eləcə də münasib ictimai şərait

yarandıqda dinin ictimai qanunlarının icra olunmasını öhdələrinə alsınlar.

34-35-ci dərslərdə izah edildi ki, müqəddəs İslam dini hərtərəfli və əbədi bir dindir, heç bir şəriət vasitəsilə qüvvədən salınmır və Peyğəmbəri-Əkrəmdən (s) sonra heç bir peyğəmbər gəlməyəcəkdir. Peyğəmbərliyin sona çatması peyğəmbərlərin be'sətinin hikməti ilə yalnız o vaxt uyğun gələ bilər ki, axırıncı asimani şəriət bəşəriyyətin bütün ehtiyaclarına lazımınca cavab verə bilsin və dünyanın axırına qədər onun toxunulmaz şəkildə qalmasına zəmanət verilmiş olsun.

Bu zəmanət Qur'ani-kərim barəsində mövcuddur: Mütəal Allah bu əziz kitabın hər növ dəyişiklik və təhrifdən amanda qalmasına zəmanət vermişdir. Amma İslamın bütün qanunları və hökmləri Qur'anın ayələrinin zahiri mə'nasından istifadə olunaraq əldə olunmur. Misal üçün, namazın rəkətlərinin sayı, onun necə qılınması, eləcə də yüzlərlə vacib və müstəhəb əməllərin hökmü Qur'ani-kərimdən əldə edilə bilmir və əsas e'tibarı ilə Qur'an ilahi hökmləri təfsilatı ilə bəyan etmək iqtidarında deyil. Onların incəliklərinin tə'lim verilməsi və öyrədilməsi Peyğəmbərin (s) öhdəsinə qoyulmuşdur. Peyğəmbər də (s) Allahın ona əta etdiyi elmdən faydalanaraq (Qur'an vəhyindən başqa yollarla) onları camaata bəyan etsin.1 Beləliklə, o Həzrətin (s) sünnəsinin (İslamı tanımaq üçün əsas mənbələrdən biri kimi) höccət və mö'təbər olmağı sübuta yetir. Amma o Həzrətin (s) ağır həyat şəraiti, o cümlədən, müsəlmanlarla birgə "Əbu Talib dərəsi"ndə bir neçə il mühasirədə qalması, İslam düşmənləri ilə onillik müharibə və s. kimi işlər bütün İslam qanunlarının və hökmlərinin camaata təfsilatı ilə öyrədilməsinə imkan vermirdi. Səhabələrin öyrəndiklərinin qorunub saxlanmasına da heç bir zəmanət verilmirdi, hətta uzun illər camaatın gözü önündə o Həzrətin (s) necə dəstəmaz almasına baxmayaraq yenə də dəstəmaz barəsində ixtilaf yaranmışdır. Belə aşkar əməllərin hökmlərində ixtilaf yarandığı halda (halbuki bu əməl bütün müsəlmanların gündəlik ehtiyac duyduğu və gələcəkdə də ehtiyac duyacağı məsələdir və onda qəsdən təhrif və dəyişiklik

---

1 "Bəqərə" surəsi, ayə:151, "Ali-İmran" surəsi, ayə:164, "Cümə" surəsi, ayə:2, "Nəhl" surəsi, ayə:64-66, "Əhzab" surəsi, ayə:21, "Həşr" surəsi, ayə:7.

etməyə o qədər də qərəz yoxdur) dəqiq və mürəkkəb hökmlərin barəsində, xüsusilə, ayrı-ayrı şəxslərin həvayi-nəfsləri və müxtəlif qrupların mənafeləri ilə qarşı-qarşıya dayanan hökm və qanunlarda qəsdən təhrifedilmə və nəqledilmə zamanı xətaya yol verilməsi ehtimalı bir neçə qat artıq olacaqdır.1

Bu kimi məsələlərə diqqət yetirməklə aydın olur ki, İslam dini məhz o zaman kamil və insanların dünyanın axırına qədər olan ehtiyaclarına cavab verəcək bir din kimi irəli çəkilə bilər ki, bu dində cəmiyyətin zəruri mənafeyini tə'min etmək üçün bir yol nəzərdə tutulmuş olsun. Elə mənafelər ki, Peyğəmbəri-Əkrəmin (s) dünyadan getməsi ilə təhdidlərə, məhv olmaq təhlükəsinə mə'ruz qalırdı. Bu yol da Peyğəmbəri-Əkrəmin (s) özü üçün layiqli bir canişin tə'yin etməsindən başqa yolla mümkün deyildi. Həmçinin belə bir canişin Allah tərəfindən əta olunan elmə malik olmalıdır ki, dinin həqiqətlərini onun bütün yönləri və incəlikləri ilə yanaşı açıqlaya bilsin. Bundan əlavə, o, ismət səciyyəsinə də malik olmalıdır ki, nəfsani və şeytani məqsədlərin tə'siri altına düşməsin, dində qəsdən təhrifə yol verməsin. Eləcə də o, Peyğəmbəri-Əkrəmin (s) insanları tərbiyələndirmə kimi ilahi vəzifəni də öhdəsinə almalı, iste'dadlı şəxsləri kamalın ən yüksək mərhələlərinə çatdırmalı, ictimai şərait münasib olduğu təqdirdə cəmiyyətin işlərinin idarə olunmasını və hakimiyyəti öhdəsinə götürə bilməli, islamın ictimai qanunlarını cəmiyyətdə icra edə bilməli və haqq-ədaləti dünya səviyyəsində yaymalıdır.

Deməli, nübüvvətin sona çatması yalnız o zaman ilahi hikmətlə uyğun olacaqdır ki, bu iş mə'sum imamın tə'yin edilməsi ilə yanaşı olsun və o imam da Peyğəmbərin (s) nübüvvət və risalətdən başqa bütün xüsusiyyətlərinə malik olsun.

Beləliklə, həm imamın varlığının, həm də onun üçün Allah tərəfindən verilən elm və ismət məqamının zəruriliyi sübuta yetir. Eləcə də o, Mütəal Allah tərəfindən tə'yin olunmalıdır. Çünki belə bir elmi və səciyyəni kimə əta etdiyini yalnız Allahın Özü bilir.

---

1 Böyük islam alimi mərhum Əllamə Əmini özünün nəfis "Əl-Qədir» kitabında belə yalan hədis uyduranlardan yeddi yüzünün adını qeyd etmişdir ki, onlardan bə`zilərindən yüz min hədis istinad edilmişdir. ("Əl-Qədir", 5-ci cild, səh-208-dən sonra).

Bəndələri üzərində əsalətən vilayət haqqına yalnız O malikdir. Belə bir haqqı aşağı mərtəbələrdə şəraitə malik olan şəxslərə verə bilər.

Qeyd olunmalıdır ki, sünnilər bu xüsusiyyətlərin heç birini xəlifələrdə zəruri və kafi şərt bilmirlər; nə onların Allah tərəfindən, nə də Peyğəmbər (s) tərəfindən tə'yin olunmasına inanırlar. Bundan əlavə, xəlifələr üçün Allah tərəfindən verilən elm və ismət səciyyəsinin olduğuna da e'tiqad bəsləmirlər. Hətta onların düz yoldan çıxmaları, yol verdikləri səhvlər və camaatın dini suallarına cavab verməkdə aciz qalmaları özlərinin mö'təbər kitablarında qeyd olunmuşdur. Belə ki, birinci xəlifənin belə dediyi nəql olunmuşdur: "İnnə li şeytanən yə'tərini – mənim bir şeytanım vardır ki, məni yoldan azdırır». İkinci xəlifə də birinci xəlifəyə bey'ət edilməsini "fəltə" (ölçüb-bililmədən görülən tələm-tələsik iş) adlandırmışdır.1 Həmçinin ikinci xəlifə bu cümləni dəfələrlə təkrar etmişdi: "Ləv la Əliyyun ləhələkə Ömər – əgər Əli olmasaydı Ömər həlak olardı».2 Üçüncü xəlifənin, 3 eləcə də Bəni-abbas və Bəni-üməyyə xəlifələrinin yol verdikləri ciddi nöqsanlar və rüsvayçı əməllər tarixin danılmaz məsələlərindəndir. Müsəlmanların tarixi barədə azacıq mə'lumatı olan hər kəs bu mətləblər barədə kifayət qədər mə'lumat əldə edə bilər.

Yalnız şiələr yuxarıda qeyd olunan üç şərtin on iki imamda olduğuna inanırlar. Qeyd olunanlardan onların imamət məsələsindəki e'tiqadlarının düzlüyü sübuta yetir və əlavə dəlilə ehtiyac duyulmur. Eyni zamanda gələn dərsdə Qur'an və Peyğəmbər (s) sünnəsindən istifadə olunan bə'zi dəlillər qeyd olunacaqdır.

### Təyin olunma prossesi

Əvvəlki dərsdə izah etdik ki, nübüvvətin mə'sum imam tə'yin olunmadan sona çatdırılması Allahın hikməti ilə ziddir və İslam dininin əbədi və dünya səviyyəsində olan kamil bir din olması bununla şərtlənir ki, Peyğəmbəri-Əkrəmdən (s) sonra onun üçün layiqli canişinlər tə'yin olunsun və bu canişinlər nübüvvət və risalət məqamından başqa Peyğəmbərin malik olduğu bütün ilahi məqamlara malik olsun.

---

1 "Şərhi Nəhcül-bəlağə", 1-ci cild, səh 142, 158, 3-cü cild, səh-57.
2 "Əl-Qədir", 6-cı cild, səh-93-dən sonra.
3 "Əl-Qədir", 8-ci cild, səh 97-dən sonra.

Bu mətləbləri sünni və şiə alimlərinin öz kitablarında qeyd etdikləri çoxlu rəvayətlərdən, eləcə də müxtəlif Qur'an ayələrindən əldə etmək olar.

Məsələn, "Maidə" surəsinin 3-cü ayəsində Allah-taala buyurur:

"Bu gün sizin dininizi kamil etdim, ne'mətimi sizə tamamladım və sizin üçün bir din olaraq İslama razı oldum.»

Bütün müfəssirlərin fikir birliyinə əsasən "Vida həcci"ndə və Peyğəmbərin (s) vəfatından bir neçə ay öncə nazil olan bu ayədə kafirlərin İslam dininə ciddi xəsarət vura biləcəklərindən ümidsiz olduqlarına işarə edərək, «əl-yovmə yəisəlləzinə kəfəru min dinikum» - bu gün kafirlər sizin dininizdən ümidsiz oldular buyurulduqdan sonra, «bu gün sizin dininizi kamil, ne'mətimi sizə tamam etdim» - deyə qeyd olunur. Bu ayənin nazilolma səbəbi (şə'ni-nüzulu) ilə əlaqədar nəql olunan rəvayətlərə diqqət yetirməklə tamamilə aydın olur ki, kafirlərin İslam dininə xəsarət vuracaqlarından ümidsizliyini bəyan etməklə yanaşı bu dinin kamil olmasını və tamamlanmasını göstərən ayə Mütəal Allah tərəfindən Peyğəmbər (s) üçün bir canişinin tə'yin olunması əmri idi. Çünki İslam düşmənləri Peyğəmbərin (s) vəfatından sonra, xüsusilə onun oğlan övladı olmamasına istinad edərək İslamın rəhbərsiz qalacağını, nəticədə zəifləyib tənəzzülə uğramasının intizarını çəkirdilər. Lakin onun üçün canişin tə'yin olunması ilə İslam dini kamal həddinə çatdı, ilahi ne'mətlər tamamlandı və kafirlərin ümidi puça çıxdı.1

Hadisə belə olmuşdu: Peyğəmbəri-Əkrəm (s) "Vida həcci"ndən qayıdarkən bütün hacıları Qədir-Xum adlı bir yerdə topladı, uzun bir xütbə söylədikdən sonra camaatdan soruşdu: «Allah tərəfindən mənim sizə vilayət haqqım yoxdurmu və sizə, sizin özünüzdən də artıq ixtiyar sahibi deyiləmmi?»2 Hamı bir səslə müsbət cavab verdi, sonra həzrət Əlinin (ə) əlindən tutub hamının görəcəyi bir yerdə yuxarı qaldırdı və buyurdu: «Mən hər kəsin mövlası və ixtiyar sahibiyəmsə, Əli də onun mövlası və ixtiyar sahibidir». Beləliklə, o Həzrət (ə) üçün ilahi vilayət məqamını e'lan

---

1 Bu ayənin nəyə dəlalət etməsi ilə əlaqədar "Əl-Mizan" təfsirinə müraciət edin.

2 "Əhzab "surəsinin 6-cı ayəsinə işarədir.

etdi. Sonra bu böyük və izdihamlı yığıncaqda iştirak edənlərin hamısı həzrət Əliyə (ə) bey'ət etdilər. İkinci xəlifə Əli (ə) ilə bey'ət edərək onu təbrik etdi və «Mübarək olsun, mübarək olsun sənə, ya Əli, mənim və bütün mö'min kişi və qadınların mövlası oldun»1-deyə söylədi.

Məhz belə bir gündə "əl yovmə əkməltu ləkum dinəkum...» ayəsi nazil oldu və Peyğəmbəri-Əkrəm (s) Əlini (ə) təbrik edərək buyurdu: «Əlinin vilayəti ilə Mənim nübüvvətim və Allahın dini tamam-kamal oldu.»

Sünnilərin bə'zi görkəmli şəxsiyyətlərindən də rəvayət olunan bir hədisdə qeyd olunur: Əbu Bəkr və Ömər yerlərindən qalxıb Peyğəmbərdən (s) soruşdular: «Bu vilayət yalnız Əliyə məxsusdurmu?» Həzrət (s) buyurdu: «Bu, Əliyə və mənim qiyamətə qədər olan vəsilərimə məxsusdur.» Soruşdular: «Sənin vəsilərin kimlərdir?» O həzrət buyurdu: "Əli mənim qardaşım, vəzirim, varisim, vəsim, ümmət içərisində xəlifəm, məndən sonra bütün mö'minlərin vəlisidir. Ondan sonra oğlum Həsən, sonra oğlum Hüseyn, sonra oğlum Hüseynin övladlarından olan doqquz nəfər biri digərindən sonra (bu ümmətin imamları olacaqlar). Qur'an onlarla, onlar da Qur'anladır. "Kovsər" hovuzunda mənim yanıma varid olan vaxta qədər onlar Qur'andan, Qur'an da onlardan ayrılmaz.»2

Çoxlu rəvayətlərdən aydın olduğu kimi, Peyğəmbəri-Əkrəmə (s) bundan əvvəllər də Əlinin (ə) imamətini e'lan etmək rəsmi şəkildə əmr edilmişdi. Lakin Peyğəmbər (s) camaatın bu işi onun şəxsi nəzəri ilə əlaqələndirəcəklərindən və onu qəbul etməkdən boyun qaçıracaqlarından qorxurdu. Ona görə də bu iş üçün münasib şərait yaranacaq bir imkan gözləyirdi. Nəhayət aşağıdakı ayə nazil oldu:

"Ey Bizim Rəsulumuz! Rəbbinin tərəfindən sənə nazil edilənləri təbliğ et! Əgər bu işi görməsən, Onun risalətini yerinə yetirməmiş olarsan. Allah səni camaatın şərrindən qoruyacaqdır.»3

---

1 Bu hədisin sənəd və dəlalətinin qəti olmasını isbat etmək üçün "Əbəqatul-ənvar" və "Əl-Qədir" kitablarına müraciət edə bilərsiniz.

2 "Ğayətul məram," 58-ci bab, 4-cü hədis, Həməvinin "Fəraid" kitabından nəqlən.

3 "Maidə" surəsi, ayə:67. Bu ayənin nəyə dəlalət etməsi ilə əlaqədar ətraflı mə`lumat almaq üçün "əl-Mizan" təfsirinə müraciət edin.

Bu ilahi vəzifənin təbliğ olunmasının zərurətini tə'kid etməklə yanaşı, (bu iş Peyğəmbərin (s) işlərinin hamısına bərabər idi və onun çatdırılmaması bütünlüklə ilahi risalətin çatdırılmamasına bərabər idi) həm də o Həzrətə (s) müjdə verdi ki, Mütəal Allah onu bu işin nəticələrindən amanda saxlayacaqdır. Bu ayənin nazil olması ilə Peyğəmbəri-Əkrəm (s) artıq münasib bir imkan yarandığını başa düşdü və bildi ki, bundan da artıq tə'xirə salmaq rəva deyildir. Ona görə də bu vəzifəni Qədir-Xum çölündə yerinə yetirdi.1

Əlbəttə, bu gündə əsas məqsəd həmin məsələnin camaata rəsmi şəkildə e'lan edilməsi və onlardan bey'ət alınması idi. Çünki Peyğəmbəri-Əkrəm (s) öz risaləti dövründə dəfələrlə və müxtəlif şəkillərdə Əlinin (ə) canişinlik məsələsini camaata çatdırmışdı. Misal üçün, elə be'sətin ilk illərində "öz qohum-əqrəbanı ilahi əzabdan qorxut» 2 ayəsi nazil olduqda bütün qohum-əqrəbasını qonaqlığa də'vət edib onların hüzurunda buyurdu: "Mənim də'vətimi qəbul edən ilk şəxs mənim canişinim olacaqdır." Sünni və şiələrin fikir birliyinə əsasən, bu də'vətə müsbət cavab verən ilk şəxs Əliyyibni Əbi Talib (ə) idi.3

Eləcə də "Nisa" surəsinin 59-cu ayəsi ("Ey iman gətirənlər, Allaha, Onun Peyğəmbərinə və sizlərdən olan əmr sahiblərinə itaət edin!») nazil olanda, başqa sözlə, "ulul-əmr" ünvanı ilə itaət olunmalarını mütləq şəkildə vacib sayan, onlara itaət edilməsini Peyğəmbərə (s) itaət edilməklə bərabər olduğunu göstərən bu ayə nazil olduqda Cabir ibni Əbdullah Ənsari soruşdu: "Ya Rəsuləllah! Onlara itaət edilməsi sizə itaət olunması ilə yanaşı (bir səviyyədə) olan ulul-əmr kimlərdir?"

Peyğəmbər (s) buyurdu: "Ey Cabir, onlar mənim xəlifələrim və məndən sonra müsəlmanların imamlarıdır. Birincisi Əliyyibni Əbi Talib, ondan sonra Həsən, ondan sonra Hüseyn, ondan sonra Əliyyibni Hüseyn, ondan sonra Məhəmməd ibni Əli. O, Tövratda "Baqir" ləqəbi ilə tanınır, Ey Cabir, sən onu görəcəksən. Onu gördükdə mənim salamımı ona yetirərsən! Ondan sonra Cə'fər

---

1 Bu məsələni sünnilərin böyük alimi Peyğəmbərin (s) adları qeyd olunan yeddi nəfər səhabəsindən nəql etmişdir: Zeyd ibni Ərqəm, Əbu Səid Xidri, İbni Abbas, Cabir ibni Əbdullah Ənsari, Bərra ibni Azib, Əbu Hüreyrə və İbni Məs`ud, Əl-Qədir, 1-ci cild.
2 "Şüəra" surəsi, ayə:214.
3 "Əbəqatul-ənvar", "Əl-Qədir", "Əl-Müraciat" (20-ci müraciət).

Sadiq ibni Məhəmməd, ondan sonra Musa ibni Cə'fər, ondan sonra Əliyyibni Musa, ondan sonra Məhəmməd ibni Əli, ondan sonra Əliyyibni Məhəmməd, ondan sonra Həsən ibni Əli, ondan sonra isə adı mənim adımla, künyəsi də mənim künyəmlə eyni olan, Allahın yer üzündəki höccəti, bəndələri içərisində saxladığı şəxs – Həsən ibni Əlinin övladıdır.»1

Peyğəmbəri-Əkrəmin (s) əvvəlcədən verdiyi xəbərə görə Cabir imam Baqirin (ə) dövrünə qədər yaşadı və Peyğəmbərin salamını ona çatdırdı.

Digər bir hədisdə Əbu Bəsir deyir: Mən "ulul-əmr" ayəsi barəsində imam Sadiqdən (ə) soruşduqda, o buyurdu: "Bu ,Əliyyibni Əbi Talib, Həsən və Hüseynin barəsində nazil olmuşdur."

Ərz etdim: «Camaat deyir ki, nə üçün Qur'ani-kərim Əlini və onun Əhli-beytini tək-tək adları ilə təqdim etməmişdir?» Buyurdu: Onlara de ki, namaz ayəsi nazil olduqda üç, yaxud dörd rəkət qılınması qeyd olunmamışdı. Onu Peyğəmbəri-Əkrəm (s) camaat üçün təfsir etmişdi. Zəkat, həcc və s. ayələri də eyni qayda ilə. Bu ayə də Peyğəmbəri-Əkrəm tərəfindən təfsir olunmalı idi və o Həzrət də (s) buyurmuşdu: "Mən hər kəsin mövlası və ixtiyar sahibiyəmsə, Əli də onun mövlası və ixtiyar sahibidir". Eləcə də buyurmuşdu: "Allahın kitabını və Əhli-beytimi sizə tövsiyə edirəm. Həqiqətən mən Allahdan istəmişəm ki, onları "Kövsər" hovuzunda mənim yanıma gətirdiyi vaxta qədər onların arasında ayrılıq salmasın və Allah da mənim bu duamı qəbul etdi.»

Yenə də buyurdu: "Siz onlara bir şey öyrətməyin! Həqiqətən onlar sizdən daha biliklidirlər. Onlar heç vaxt sizi hidayət qapısından çıxarmaz və zəlalət qapısına aparmazlar.»2

Eləcə də dəfələrlə, həmçinin mübarək ömrünün axır vaxtlarında buyurmuşdu: "Həqiqətən mən sizin aranızda iki ağır əmanət qoyub gedirəm: Allahın kitabı və mənim Əhli-beytim. Onlar "Kövsər" hovuzunun yanında mənə gəlib çatana qədər bir-birindən ayrılmazlar.»3

---

1 "Ğayətul-məram" (qədim çap), səh-267, 10-cu cild; "İsbatul-hudat", 3-cü cild, səh-123; "Yənabiul-məvəddət", səh-494.

2 "Ğayətul məram" (qədim çap), 3-cü cild, səh-265.

3 Bu hədis də mütəvatir rəvayətlərdəndir ki, böyük sünni alimləri, o cümlədən Termezi, Nəsai, Müstədrəkin müəllifi müxtəlif yollarla Peyğəmbərdən nəql etmişlər.

Həmçinin buyurmuşdu: “Agah olun və bilin! Həqiqətən mənim Əhli-beytimin sizin aranızdakı məsəli Nuhun gəmisinin məsəli kimidir: hər kəs ona minsə nicat tapar, hər kəs ondan ayrılsa qərq olar.»1

Peyğəmbər (s) dəfələrlə Əliyə (ə) xitab edərək buyurmuşdu: “Sən məndən sonra bütün mö’minlərin vəlisi, rəhbərisən.”2

Bu barədə əlavə olaraq çoxlu hədislər də nəql olunmuşdur ki, onların hamısının qeyd olunmasına imkan yoxdur.3

**İmamın məqamı**

Şübhəsiz, Peyğəmbərin (s) Əhli-beyti (ə) başqalarına nisbətən o Həzrətin (s) elmindən daha artıq bəhrələnmişlər. Peyğəmbər (s) də onların barəsində buyurmuşdur: «Onlara bir şey öyrətməyin, həqiqətən, onlar sizdən daha elmlidirlər.»4

Xüsusilə, uşaqlıq dövrlərini Peyğəmbərin (s) qucağında keçirən, o Həzrətin (s) ömrünün axırına qədər bir an belə ondan ayrılmayan və daim onun elm və mə’rifətindən bəhrələnən Əli (ə) barəsində Peyğəmbər (s) buyurur: «Mən elmin şəhəriyəm, Əli onun qapısıdır.»5

Həzrət Əlinin (ə) özü də belə buyurmuşdur: «Rəsuli-Əkrəm (s) mənə min elm babı öyrətdi ki, hər babdan da digər min bab açılır. Onun məcmusu bir milyon bab olur. İndiyə qədər baş vermiş olan və qiyamət gününə qədər baş verəcək hadisələrdən agah oldum, «mənaya» və «bəlaya» (ölümlər və müsibətlər), «fəslul-xitab (haqq əsasında mühakimə etmək) elmlərini ondan öyrədim.»6

Lakin Əhli-beytin (ə) elm xəzinələri Peyğəmbəri-Əkrəmdən (s) birbaşa, yaxud müəyyən vasitələrlə əxz etdikləri ilə sona çatmır; onlar qeyri-adi elmlərdən də bəhrələnmişlər ki, bu da ilham və təhdis

---

1 Müstədrəki Hakim, 3-cü cild, səh-151.
2 Həmən mənbə, səh-134 və səh-111, Səvayiqi ibni Həcər, səh-13, Müsnəd ibni Hənbəl, 1-ci cild, səh-331, 4-cü cild, səh-438 və s.
3 Mərhum Səduqun “Kəmaluddin və tamamu ne`mət” və Məclisinin “Biharul-ənvar” kitablarına baxa bilərsiniz.
4 “Ğayətul məram”, səh.265, “Üsuli-kafi”, 1-ci cild, səh.294.
5 “Müstədrəki Hakim”, 3-ci cild, səh.226. Maraqlıdır ki, sünnü alimlərindən biri “Fəthul-milkil-əliyyi bisihhəti hədisi mədinəti elmi-Əli” adlı bir kitab yazmışdır və bu kitab 1354-cü hicri ilində Qahirədə çap olunmuşdur.
6 “Yənabiul-məvəddət”, səh.88, “Üsuli-kafi”, 1-ci cild, səh.296.

vasitəsilə onlara verilir.1 Bu da həzrət Xızr (ə) və Zülqərneynə (ə) ilham olunan elmlər,2 eləcə də həzrət Məryəmə (ə) və Musanın (ə) anasına vəhy olunan şeylər kimidir. 3 Bə'zi hallarda Qur'ani-kərimdə "vəhy" tə'biri gətirilmişdir ki, ondan məqsəd nübüvvət vəhyi deyildir. Məhz belə bir elm səbəbi ilə uşaqlıq çağlarında imamət məqamına çatan bə'zi imamlarımız hər şeydən agah olmuş və kimdənsə bir şey öyrənməyə əsla ehtiyac duymamışlar.

Bu mətləb mə'sum imamlarımızdan nəql olunan çoxlu rəvayətlərdə qeyd edilmişdir. Onların ismət məqamına nəzər yetirməklə höccət olmaları aydınlaşır. Lakin onların nümunələrini göstərməzdən əvvəl Qur'ani-kərimin «mən indəhu ilmul-kitab»4 ünvanı ilə buyurduğu, yaxud bir neçə şəxsi nümunə olaraq qeyd edirik ki, bu da Peyğəmbərin (s) haqq olmasına bir dəlil kimi gətirilir. O ayə aşağıdakıdır:

"De: Mənimlə sizin aranızda şəhadət vermək üçün Allah və ilmul-kitaba malik olan şəxs kifayətdir.»5

Şübhəsiz, verdiyi şəhadət Mütəal Allahın şəhadəti ilə yanaşı olan (məhz ilmul-kitaba malik olması onu belə şəhadətə layiqli edir) bir şəxs çox yüksək məqama malik olmuşdur.

Digər bir ayədə də bu şahidə işarə edərək onu Rəsuli-Əkrəmin (s) ardınca gələn şəxs kimi qeyd etmişdir: "Əfəmən kanə əla bəyyinətin min Rəbbihi və yətluhu şahidun minhu..." 6 Bu ayədəki «minhu» kəlməsi göstərir ki, bu şahid Peyğəmbəri-Əkrəmin (s) sülaləsindən və onun Əhli-beytindəndir. Sünni və şiələr tərəfindən nəql olunan çoxlu hədislərdə "şahid" dedikdə məqsədin Əliyyibni Əbi Talib olduğu nəql olunmuşdur.

İbni Məğazili Şafei, Əbdullah ibni Ətadan belə rəvayət etmişdir: «Bir gün imam Baqirin (ə) hüzurunda idim, Əbdullah ibni Salamın (Peyğəmbəri-Əkrəmin (s) dövründə iman gətirən kitab əhli alimlərindən biri idi) oğlu oradan keçirdi. O Həzrətdən (ə)

---

1 "Üsuli-kafi", Kitabul höccət, səh.264 və 270.
2 "Üsuli-kafi", 1-ci cild, səh.267.
3 "Kəhf" surəsi, ayə:65, 98, "Ali-İmran" surəsi, ayə:42, "Məryəm" surəsi, ayə:17-21, "Taha" surəsi, ayə:38, "Qəsəs" surəsi, ayə:7.
4 "Rə`d" surəsi, ayə:43.
5 "Rə`d" surəsi, ayə:43.
6 "Hud" surəsi, ayə:17.

soruşdum: “İndəhu ilmul-kitab” dedikdə məqsəd bu şəxsin atasıdırmı?” Buyurdu: “Xeyr! Məqsəd Əliyyibni Əbi Talibdir ki, “və yətluhu şahidun minh» ayəsi, eləcə də “innəma vəliyyukumullah» ayəsi onun şə’nində nazil olmuşdur.”

Sünni və şiələr tərəfindən nəql olunan bir neçə rəvayətdə də “Hud” surəsindəki “şahid” sözündən məqsədin Əliyyibni Əbi Talib (ə) olduğu aşkar şəkildə bəyan edilmişdir.1 Bu ayədəki “minhu» kəlməsinin xüsusiyyətlərinə diqqət yetirməklə onun nümunəsinin həzrət Əlidən (ə) başqa heç kəsin olmadığı aydın olur.

İlmul-kitaba malik olmağın mahiyyəti o zaman aydın olar ki, Qur’ani-kərimdə həzrət Süleymanın (ə) əhvalatları nəql olunarkən Bilqeysin taxtının bir göz qırpımında gətirilməsinə diqqət yetirək. Bu barədə buyurulur: «İlmul-kitabdan bəhrəsi olan bir şəxs dedi: Mən onun (Bilqeysin) taxtını bir göz qırpımında gətirərəm.»2

Bu ayədən mə’lum olur ki, ilmul-kitabın bə’zi qismlərindən agah olmağın belə qəribə tə’sirləri vardır. Buradan da ilmul-kitabın hamısına malik olmağın nə kimi böyük tə’sirləri olduğu aydın olur.

İmam Sadiqdən (ə) nəql olunan bir hədisdə buyurulur: «Hərgah imam müəyyən bir şeyi bilmək istəsə Mütəal Allah onu agah edər.»3

Həmçinin o Həzrətdən (ə) nəql olunan çoxlu rəvayətlərdə buyurulur: «Ruh Cəbraildən və Mikaildən daha böyük olan bir mələkdir ki, Rəsuli-Əkrəmlə (s) birgə olmuş və ondan sonra da imamlarla yanaşıdır və onu təsdid eləyir (qüvvətləndirir).»4

---

1 “Ğayətul məram” (qədim çap) səh 359-361.
2 “Nəml” surəsi, ayə:40.
3 “Üsuli-kafi”, 1-ci cild, səh.258
4 “Üsuli-kafi”, 1-ci cild, səh.273.

**Nəticə**

İmamətin Allah tərəfindən tə'yin olunan bir məqam olması, eləcə də Allah-taalanın onu Əliyyibni Əbi Talib (ə) və onun pak övladlarına əta etməsi isbat olunduqdan sonra onların ismətini aşağıdakı şərif ayəyə istinadən isbat etmək olar:

"Mənim əhdim (imamət məqamı) zalımlara çatmaz.»1

Bu şərif ayədə belə bir ilahi məqamın günaha batan şəxslərə əta olunması inkar edilmişdir. Eləcə də, onlara mütləq şəkildə itaət edilməsini vacib bilən, onlara itaət etməyi Rəsuli-Əkrəmə (s) itaət etməklə yanaşı bəyan edən "ulul-əmr" ayəsindən də ("Nisa" surəsi, 59) mə'lum olur ki, onlara itaət edilməsi Mütəal Allaha itaət edilməsi ilə heç vaxt zidd olmayacaqdır. Deməli, onlara mütləq şəkildə itaət olunmasına olunan əmr ismətə zəmanət verilməsi mə'nasınadır.

Eləcə də Əhli-beytin (ə) ismətini "Təthir" ayəsindən də isbat etmək olar:

"Allahın iradəsi bu olmuşdur ki, yalnız siz Əhli-beytdən hər növ çirkinlikləri aradan aparıb sizi pak-pakizə qərar versin.»2

Belə ki, Allahın bəndələri paklamaq ilə əlaqədar təşri'i iradəsi heç kəsə məxsus deyildir. Deməli, Əhli-beytə (ə) məxsus olan bu iradə Allahın təkvini iradəsidir və ondan heç cür qaçmaq mümkün deyildir. Belə ki, "Yasin" surəsinin 82-ci ayəsində buyurulur:

"Onun əmri budur ki, bir şeyi yaratmağı iradə etdiyi zaman ona "ol!" deyər, o da dərhal vücuda gələr.»

Mütləq şəkildə paklamaq və hər növ aludəlikləri onlardan aparmaq elə ismət mə'nasındadır. Bildiyimiz kimi, heç bir müsəlman firqəsi Peyğəmbərə (s) mənsub olan şəxslərdən heç birinin ismət məqamında olması iddiasını etməmişdi, yalnız şiələr həzrət Zəhra (ə) və on iki imamın (ə) ismətinə, yə'ni hər növ günahdan pak-pakizə olmalarına inanırlar.3

Qeyd olunmalıdır ki, əksəriyyəti sünni alimləri tərəfindən nəql olunan 70-dən artıq rəvayət bu şərif ayənin "Ali-əba" barəsində nazil

---

1 "Bəqərə" surəsi, ayə:124.
2 "Əhzab" surəsi, ayə:33.
3 Bu ayə ilə əlaqədar əlavə izahat və mə`lumat almaq üçün "Əl-Mizan" təfsirinə və "Əl-İmamətu vəl-vilayətu fil-Qur`anil-Kərim" kitablarına müraciət edə bilərsiniz.

olmasına dəlalət edir.1 Şeyx Səduq həzrət Əlidən (ə) nəql etmişdir ki, Rəsuli-Əkrəm (s) belə buyurmuşdur: «Ya Əli! Bu ayə sən, Həsən, Hüseyn və sənin nəslindən olan imamlar barəsində nazil olmuşdur.»

Əli (ə) deyir: "Soruşdum ki, sizdən sonrakı imamlar neçə nəfərdir?"

Buyurdu: "Sənsən, ya Əli, səndən sonra Həsən, ondan sonra Hüseyn, ondan sonra oğlu Əli, ondan sonra oğlu Məhəmməd, sonra onun oğlu Cə'fər, sonra onun oğlu Musa, daha sonra onun oğlu Əli, ondan sonra onun oğlu Məhəmməd, ondan sonra da oğlu Əli, ondan sonra onun övladı Həsən, ondan sonra onun övladı olan Hüccətullah."

Sonra əlavə edərək buyurdu: "Onların adları ilahi ərşdə beləcə yazılmışdır. Mən Allahdan onların kimlər olduğunu soruşduqda buyurdu: "Ya Məhəmməd! Onlar səndən sonrakı imamlardır, onlar paklaşdırılmışdır, mə'sumdur, onların düşmənləri də Mənim lə'nətimə düçar olacaqlar."2

Həmçinin "Səqəleyn" hədisində Peyğəmbəri-Əkrəm (s) öz Əhli-beytini (ə) Qur'anla eyni səviyyədə qərar verərək bildirmişdir ki, bunlar bir-birindən heç vaxt ayrılmayacaqdır. Bu hədis də onların ismətinə aydın bir dəlildir. Çünki, hətta, səhvən olsa belə ən kiçik günaha mürtəkib olmaq Qur'andan ayrılmaq mə'nasınadır.

---

1 "Ğayətul məram", səh.287, 293.
2 "Ğayətul məram" (qədim çap), 6-cı cild, səh.293.

**Ədəbiyyat**

1. Qurani-kərim
2. Nəhcül-bəlağə
3. Əqidə prinsipləri, Misbah Yəzdi (əsas qaynaq)
4. Amoli, Cavadi, Təsnim, Qum, 1396
5. Təbatəbayi, Məhəmmədhüseyn, Qum, əl-Mizan, 1389
6. Qürbül-isnad, Abdullah ibn Cəfər Himyəri Qummi, tədqiq: Alül-beyt müəssisəsi, Qum, Alül-beyt müəssisəsi, 1413 hicri-qəməri, birinci çap.
7. Əl-Kafi, Məhəmməd ibnYəqub Kuleyni Razi, tədqiq: Əli Əkbər Qəffari, Beyrut, Darüs-səb və Darüt-təarüf, 1401 hicri-qəməri, dördüncü çap.
8. "Əl-Burhan fi-ulumil-Quran", Beyrut, 1998
9. Biharül-ənvar, Məhəmmədbaqir ibn Məhəmmədtəqi Məclisi (Əllamə Məclisi), Beyrut, Vəfa müəssisəsi, 1403 hicri-qəməri, ikinci çap

# İxlas və riya

**Ceyhun Cəfərov**[1]

**Abstrakt**

Mənəviyyatın, nəfsani fəzilətlərin və ali insani dəyərlərin özülünün islah olunması və möhkəmləndirilməsi islam əxlaqının əsasıdır. Ona görə bütün əməllər-istər mənəvi, istərsə də cismi olsun,məxsusən ibadətlər niyyətə bağlıdır. Niyyət o qədər təsirlidir ki, əslində ibadət olmayan hər hansı bir mübah əmələ ilahi rəng vurub Allaha yaxınlıq niyyətilə yerinə yetirərək onu ibadət dərəcəsinə qaldırıb əcr və savaba yetişdirir. Məsələn, əgər yemək və ya istirahət etmək yenidən qüvvə toplayıb yaxşı ibadət etmək və ya xalqa xidmət göstərmək üçün olarsa, ibadət sayılar. Halbuki belə əməllər əslində ibadət deyildir. Deməli, bu keyfiyyətə görə niyyətə əməlin ruhu və özülü demək olar.

**Açar kəlmələr:** niyyət, ixlas və şirk, riya və nifaq

---

[1] -Dini araşdırmaçı, tərcüməçi (Məhəmmədrza Məhdəvi Kəninin "İslamda əxlaq" kitabından)

## Giriş

İslamda ən mühüm məsələ hər bir şeyin batini və həqiqi cəhətidir, çünki əməllərin dəyəri və qəbulolma dərəcəsi ona bağlıdır. Niyyətin təsiri o qədər güclüdür ki, hər hansı bir cəbhəni müdafiə, havadarlıq etməklə əzab və savabda o cəbhə ilə şərik olur. Əmirəlmöminin(ə) Cəməl döyüşündə qalib gələndən sonra səhabələrindən biri o Cənaba dedi:

-Kaş qardaşım da bizimlə birgə olaydı, sizin düşmən üzərində qələbənizi görəydi. Bu cihadın fəzilətində o da bizimlə şərik olaydı.

Həzrəti Əli(ə) buyurdu:

-Qardaşın biz tərəfdəndirmi? Ürəyi bizimlədirmi?

O ərz etdi:

-Bəli.

**Əmirəlmöminin (ə) buyurdu:**

-Deməк, o da bizimlə birgə bu döyüşdə vuruşubdur. (Təkcə o yox, əksinə) ataların belində, anaların bətnində olan bizimlə bir əqidədə olanlar da bu döyüşdə bizimlə birgə vuruşublar. Tezliklə zaman onları dünyaya gətirəcək, din və iman onların vasitəsilə qüdrətli olacaqdır.”[1]

İbn Əbil Hədid bu xütbəni bəyan edəndən sonra yazır: “Əbul Əsvəd Duəli belə nəql edir: Əmirəl-möminin(ə) Cəməl döyüşündə qalib gələndən sonra bir dəstə mühacir və ənsarla (mən də onların arasında idim) Bəsrə şəhərindəki beytül-mal saxlanılan binaya daxil oldu. O Həzrətin gözü orada olan var-dövlətə sataşanda onlara xitab olaraq dedi: «Ey dirhəm və dinarlar! Məndən başqasını aldadın». Sonra Həzrəti Əli (ə) fərman verdi ki, səhabələrdən hər birinə beş yüz dirhəm verilsin. Dirhəmlərin hamısı səhabələr arasında bölüşdürülüb qurtarandan sonra Əbul Əsvəd dedi: «And olsun Məhəmməd(s)-i peyğəmbərliyə seçən Allaha, adamların sayı on iki min nəfər olmasına baxmayaraq, bir dirhəm belə artıq-əskik olmadı. Elə bil Əmirəl-möminin(ə) pulların məbləğindən xəbərdar idi.”

---

[1] «Nəhcül-Bəlağə» Feyzül-İslam: Xütbə №12.

**Sonra ibn Əbil Hədid yazır:**

“Həbbeyi Ərəni adlı bir nəfər deyir: «İmam(ə) beytül-malı səhabələr arasında bölüşdürdükdən sonra başqaları kimi özünə də beş yüz dinar pul ayırdı. Döyüşdə iştirak etməmiş bir şəxs o ali Cənaba yaxınlaşıb dedi: “Ey Əmirəl-möminin! Bu vuruşda cismim sizinlə birgə olmasa da, qəlbim sizinlə idi. İstəyirdim, bu döyüşdə sizinlə bir yerdə vuruşum. Mənə də puldan əta et. İmam(ə) öz payını ona verib özü üçün heç bir şey saxlamadı.”[1]

Bu məsələdən belə başa düşürük ki, əgər biri başqalarının işindən razı olarsa, demək, əzab və savabında da onlarla şərikdir.

**Niyyət-insan şəxsiyyətini formalaşdıran amil kimi**

Əməlin keyfiyyət və dəyərinə niyyət güclü təsir bağışladığı kimi, insan şəxsiyyətinin formalaşmasına da böyük əhəmiyyətə malikdir. Əgər bizi əhatə edən adamların şəxsiyyətini öyrənmək istəsək, bunu onun düşüncə və məqsədlərində axtarmaq lazımdır. Təkcə özünü düşünən adamla xalqın nicatı üçün çalışan şəxs eynidirmi? Özünə qənimət ələ keçirmək üçün döyüşə gedən adamla Allah rizasına görə vuruşan adama bir cərgədə baxmaq olarmı? Bu bərabərlik və bərabərsizlik insanların əməlləri ilə yox, onların şəxsiyyəti və məqsədləri ilə əlaqədardır, çünki zahirdə əməl birdir, onun heç bir fərqi yoxdur. Şücaət göstərib rəşadətlə vuruşan iki dəstə arasındakı fərq düşüncə və niyyətdədir. İmam Sadiq(ə) bu ölçü ilə bəndələri üç qismə bölərək hər birini ibadətdə olan niyyətlərinə uyğun bir xüsusiyyətlə vəsf edir:

“Həqiqətən, Allah bəndələri üç dəstədirlər. Birinci dəstə Allaha cəhənnəm əzabının qorxusundan ibadət edir. Bu, qulların ibadətidir. İkinci qrup cənnətə və mükafata görə Allaha ibadət edirlər. Bu da nökər və muzdur ibadətidir. Üçüncü dəstə isə Allahı sevdiklərindən ona ibadət edirlər. Bu isə azadələrin ibadətidir, yəni onlar Allaha cəhənnəm əzabından qorxduqlarına və cənnət nemətlərinə görə yox, Allaha bəslədikləri məhəbbət və pak niyyət üzündən ibadət edirlər. Bu, ibadətin ən uca zirvəsidir.”[2]

---

[1] «Şərhi-Nəchül-Bəlağə» ibn Əbil-Hədid: I c/s-249,250.

[2] “Biharül-ənvar” Beyrut çapı: LXVII c/s-255;

Mülahizə edirsizmi, imam Sadiq(ə) Allah bəndələrini öz məqsəd və niyyətlərinə görə necə də dəqiq bölmüş və hər bir dəstəni Allah-təalaya hansı niyyətlə ibadət etməsinə görə o biri dəstədən fərqləndirmişdir.

### Niyyət və əqidəvi, mədəni, ictimai, milli bağlılıqlar

Niyyət insanın şəxsiyyətini nümayiş etdirməkdən əlavə əqidəvi, ictimai və milli bağlılıqlardan da bizə xəbər verir. İslam mənbələrində bu barədə elə ifadələr vardır ki, onların hamısını üç cümlədə ümumiləşdirmək olar:

1) *Kim hər hansı bir işdən razı qalarsa, onu yerinə yetirmiş kimidir.*

2) *Hər hansı bir dəstənin əməli ilə razılaşan, onlardan hesab olunur.*

3) *Kim hər hansı bir dəstəni müdafiə edərsə, savab və əzabda onlarla şərikdir.*

İslama görə, bir millətin vəhdətinin meyarı yalnız razılıq və narazılıqlardır. Nəsil, dil, irq və coğrafi mühitlər kimi meyarlar ikinci dərəcəli amil qəbul olunmalıdır. Başqa sözlə desək, etiqad, mədəniyyət və məqsəddə yekdil olmaqdan xəbər verən məhəbbət və nifrət ayrı-ayrı adamları vahid bir millət kimi birləşdirib onların taleyini bir-birinə bağlayan yeganə meyardır. Yerdə qalanlar isə ikinci dərəcəlidir.

**Burada bir neçə nüansa toxunmağı özümüzə lazım bilirik:**

1) Bu bəhsdə «maraq» sözünün işlədilməsində məqsəd insanda ötəri emosiyaların təsirindən əmələ gəlib tez də yox olan səthi həvəs və meyllər deyildir. Əksinə, burada söhbət yekdil ideologiya ilə bağlı olan meyllərdən gedir, yəni bu faktorlar insan psixologiyasında təsir qoyan və onu öz silahdaşları ilə həmfikir edən insan təbiətindən irəli gələn amillərdir. Bu qəbildən olan meyllərin inikası insan əməlində köklü təsirə malikdir. Əgər şərait yaranarsa və heç bir maneə olmasa, insan dərhal başqalarının təsiri altına düşüb onların etdiklərini o da yerinə yetirər. Hər hansı bir hərəkətə münasibət (istər

---

"Üsuli-kafi" II c/s-84/İbadət fəsli / hədis №5.

yaxşı olsun, istər pis) əməl formasında gerçəkləşməsədə, qəlbin dərinliklərində kül altda olan köz kimidir, küləyin əsməsini gözləyir ki, alovlanıb ətrafını da yandırsın, yəni şərait yaranarsa, fikir əməli olaraq reallaşacaq.

2)Hüquqi cəhətdən belə bir asılılığın ədalət normalarına zidd olması mümkündür. “Qurani-Kərim”də bu barədə də buyurulur:

**“...Heç bir günahkar başqasının günahını daşımaz ...”(«İsra»-15).**

**“Hər kəs öz əməlinin girovudur!” («Muddəssir»-38).**

Bundan əlavə hüquq elmində günah etmək niyyəti və cinayət fikri cinayət sayılmadığı halda, necə ola bilər ki, insan yalnız niyyətinə görə (yaxşı, yaxud pis) şəri cəhətdən məhkum olunsun və ya mükafatlandırılsın?

Bu suala cavab olaraq deyilməlidir:

Cinayəti düşünmək, yaxud onu həyata keçirənə fikrən dəstək vermək, əlbəttə, cinayət sayılmır, lakin güclü əxlaqi təsirlərə malikdir. Məsələn, günahsız bir insanın öldürülməsinə razılığını bildirən, şübhəsiz, qatillərlə həmfikir sayılır.

İnsanın hüquqi məsələdə cinayəti inkar etməsi kifayət qədər dəlil-sübutun olmamasından irəli gələ bilər, lakin yaradılış qayda-qanunundan qaçmaq qeyri-mümkündür:

“Sənin hakimiyyətindən boyun qaçırmaq olmaz.”

Allah Təala “Qurani-Kərim”də buyurur:

**“ Özlərindən sonra (aciz və) zəif övladlar qoyub gedəsi olan şəxslər, onlardan ötəri necə qorxurlarsa, (yetimlərdən ötrü də) o cür qorxsunlar!...”(«Nisa»-9).**

Ataların keçmişdə göstərdiyi amansızlığın gələcəkdə övladlarını necə də haqladığını görürsünüzmü? Halbuki övladların heç bir günahı yoxdur. Çünki bu, varlıq aləmində sabit olaraq dəyişilməz qalan yaradılış qanun qaydasıdır. Onun təhqiqatı və mühakimə qaydası adi məhkəmə orqanlarının mühakiməsindən tam

fərqlənir. Bu məhkəmədə haqq, ədalət məfhumu çox əhatəli və genişdir.[1]

3)Hərəkət (razılıqla baş verən) özü də iki xarakterə malikdir: fərdi və ictimai. Fərdi hərəkət yalnız bir nəfərin istəyi ilə baş verir və ancaq həmin şəxs üçün müəyyən bir əhəmiyyət kəsb edir. İctimai əməl bir nəfər tərəfindən həyata keçirilsə də, böyük ictimai əhəmiyyətə malikdir. Məsələn, baxmayaraq ki, Saleh peyğəmbər(ə)-in dəvəsi bir nəfər tərəfindən təqib edilib öldürülmüşdü, lakin başqaları da onunla həmfikir olduğu üçün Allah-təala bu əməli ümumilikdə Səmud qövmünə aid edərək buyurur:

**“...Onu (dəvəni) tutub kəsdilər. Rəbbi də bu günahlarına görə onların kökünü kəsib yerlə yeksan etdi.”(«Şəms»-14).**

İctimai işlərdə fikiri və əməli asılılıq əsas deyil, yetər ki, qəlbən və ruhən razılıq olsun.000 Cəmiyyətin bir nümayəndəsi olan icraçı cəmiyyətə arxalanır, buna görə də onun törətdikləri cəmiyyətin hesabına keçərək, ictimai məzmun daşıyır.

İslam mədəniyyətində bu ortaqlıq üçün zaman və məkan, uzaq-yaxınlıq şərt deyildir, yəni bu ictimai ortaqlıqda gələcəkdəkilər keçmişdəkilərlə oxşar olacaqlar. Buna görə də cəmiyyət ictimai rəqabətlər və ziddiyyətlərdə qarşılıqlı əməllərin cərimələrini ödəyir. Nə üçün? Ona görə ki, əqidə və məqsəddə onlarla ortaqdırlar. Əməllərinə qarşı razılıqlarını izhar edirlər. Ümumiyyətlə, məhəbbət və nifrətdə şərikdirlər. Bunu şərh etməklə ümumi ictimai əməllərdə tabelik fəlsəfəsi aydın olur. Təsadüfi deyildir ki, ayə və rəvayətlərin çoxu asılılığın fərdi əməllərdə yox, ictimai əməllərdə daha çox özünü biruzə verməsini qeyd edir:

“Kim bir qövmün əməli ilə razı qalarsa....” və ya “Hər hansı bir qövmün əməlindən razı qalan onlardan sayılır və s.”

Bu hədislərdə fərdin yox, cəmiyyətin hərəkəti müzakirə olunur, çünki ictimai təsir fərdi təsirdən daha güclüdür.

---

[1] Bu məsələlərlə maraqlanmaq istəyənlər ustad Əllamə Təbatəbainin əsərlərinə və şəhid Mütəhhərinin 147“İnsan və tale”, «İlahi ədalət” kitablarına müraciət edə bilərlər.

Yuxarıda sözügedən asılılıq icraçı və həmrəy tərəflər arasındakı mənəvi və mədəni bağlılığın ifadəsidir. Bu cəhətdən fərdi hərəktlə ictimai hərəkət arasında heç bir fərq yoxdur. Bunlar yalnız əhatə dairəsinə görə fərqlənirlər.

Şübhəsiz, hər hansı bir hərəkətə müsbət münasibət bəsləyən onun icraçısının savab və əzabı ilə şərikdir.

4)Dördüncü mətləb niyyətin mənəvi və əxlaqi inikaslarıdır. Məhəbbətin və nifrətin yaxşı və pis düşüncələrin insan mənəviyyatının və ruhiyyəsinin formalaşmasında təsiri olmayıb onun xoşbəxt və ya bədbəxt olacağını qabaqcadan xəbər verməsi.

İmam Sadiq(ə) məhəbbət və nifrətin imandan olmasını xəbər alan şəxsə belə cavab verir:

"Məgər iman məhəbbət və nifrətdən başqa bir şey deyilmi?"[1]

Məhəbbət və nifrət bir-birlərindən ayrılmazdırlar. Bunlar, təqribən eyni təsirə malikdirlər. Niyyət məhəbbət və nifrətin əlaməti, məhəbbət və nifrət imanın nişanəsi, iman isə inam və əqidənin göstəricisidir. İnsanın inam və əqidəsi onun daxili aləmi və spesfik xüsusiyyəti olduğundan, həqiqətdə, niyyətin bu zəncirin bir halqası olduğunu söyləmək olar.

5)Üsul alimləri "təcərri" (günah etmək qəsdi) fəslində buyurmuşlar: "Günah niyyəti əmələ çevrilməzsə, bağışlanar və niyyət sahibi üçün heç bir günah yazılmaz. Bu fikrin tərəfdarları öz müddəalarının isbatı üçün rəvayətlər qeyd etmişlər.

***Sual:**

Əvvəlki bəhslərdə gözəllik, qəbihlik, savab və əzabın meyarının niyyət olduğundan danışdıq. Birinin qəlbən başqalarının əməlilə razılaşması onu savab və əzabda onlarla şərik edir. Belə isə bu, yuxarıda qeyd etdiyimiz məsələ (niyyətin əmələ çevrilməzsə, bağışlanması) ilə zidd olmurmu?

İslam alimləri bu suala bir neçə şəkildə cavab vermişlər:

---

[1] «Üsul Kafi» II c/s-125/ hədis №5.

a) Təcərri (günah etmək qəsdi) iki cürdür: birinci, əməli yerinə yetirməmiş peşman olub daxili çarpışma nəticəsində öz ixtiyarı ilə günahdan çəkinmə; ikincisi isə, müəyyən həddə qədər gəlib xarici amillərin təsiri ilə günahdan çəkinmə. Birinci halda (günahın niyyəti) günahkar bağışlanır, çünki peşmançılıq onun ruhunun və təbiətinin paklığına dəlildir. Belə bir şəxs bağışlanmağa layiqdir. Amma ikincidə bağışlanmır. Belə şəxs üsyankar ruha malik olduğuna və Allahına qarşı təqvasızlığından günaha yaxınlaşdığına görə tənqidə və cəzaya layiqdir. O öz-özünə günahdan çəkinməmiş, əksinə, xarici maneələr onu günah etməkdən çəkindirmişdir.

b) Təcərri bəzən günahı fikirləşib etməmək və bəzən də təşəbbüs göstərməklə bitir. Birinci cəhd insanın əməllər kitabçasında günah kimi qeyd olunmur. İkinci isə haramdır və bu əməlin sahibi cəzalandırılmalıdır, ona görə ki niyyət təşəbbüslə yanaşı olarsa, (Allah qarşısında) üsyankarlıq, dikbaşlıq və təqvasızlığa dəlildir. Birinci halda Allah qarşısında dikbaşlıq və üsyankarlığa dəlil olan heç bir təşəbbüs yoxdur.

v) Müəllifin nəzərincə, təcərrini (günahı fikirləşmək) başqa cür də təsnif etmək olar. Niyyət iki formada ola bilər: ötəri və sabit niyyət (dəyişilməz niyyət).

Nəfsani qüvvələrin coşub-daşması ilə insan nəfsində yaranan və heç bir əxlaqi, etiqadi kökü olmayan niyyətə ötəri niyyət deyilir. Bu cür niyyətlər xatirə, arzu, ani həvəsin nəticəsində meydana gəlib, tez də ötüb keçir, öz yerini isə yaxşı və müsbət düşüncələrə verir. Məsələn, Ramazan ayında biri ləzətli xörək gördükdə orucunu pozub iftar etmək istəyir, lakin bilavasitə bu fikirdən dönür.

İnsanın ruhi dərinliklərindən axıb gələn, onun etiqad, xasiyyət və xarakterindən irəli gələn niyyətə sabit niyyət (dəyişilməz niyyət) deyilir.Bu növ niyyət insanın həqiqi simasını üzə çıxarır. “Qurani-Kərim”də «şakilə» (xislət) adlandırılaraq buyurulur:

**«De: «Hərə öz xislətinə[1] görə iş görər...» («İsra»-84).**

---

[1] İmam Sadiq(ə)-dən belə nəql olunur ki, «şakilə»dən (xislətdən) məqsəd niyyətdir.

Ötəri niyyət nəfsani qüvvələrin ani reaksiyası olub təqvasızlıq və gizli, xəbis fikir olmadığından bağışlanmağa layiqdir. Bəlkə də hədislərdə «bağışlanmaq» dedikdə elə bu niyyət nəzərdə tutulur. Həmin mətləb İmam Sadiq (ə)-in «Nəcm» surəsinin 32-ci ayəsinin təfsiri ilə bağlı hədislərdə də qeyd olunmuşdur.

Bu hədislərdə nəql olunur ki, «ləməm» (xəta) sözü günahı fikirləşmək, yaxud bəzi hallarda insan əxlaqından irəli gəlməyən təsadüfi günah mənasında işlədilmişdir.[1]

Təfsirə görə, belə günahlar (icraçının Allah qarşısında inadkarlığını və dikbaşlığını göstərmədiyindən) Allahın geniş rəhmət və məğfirətinə şamil olur. Belə bir əməl bağışlanarsa, təbii ki, bu keyfiyyətdə olan niyyət də bağışlanacaqdır, çünki onların hər ikisi dikbaşlıq və üsyankarlıqdan uzaqdır.

Sabit niyyət (dəyişilməz niyyət) adətən təşəbbüs və əməllə nəticələnir. Əgər nə vaxtsa sabit niyyət əməl formasında gerçəkləşməyibsə, bu, icraçı insanın vicdanının yox, kənar faktorların təsirindəndir. Belə olduqda niyyət Allah qarşısında dikbaşlıq və üsyankarlıq sayıldığından günah hesab edilib cəzaya layiq görüləcəkdir. Niyyət barədə danışdığımız bu bölüm əsasən "Möminin niyyəti əməlindən daha yaxşı, kafirin niyyəti isə əməlindən daha pisdir" hədisi kimi diqqəti cəlb edir. Lakin buradakı niyyət sözündən də məqsəd elə sabit (dəyişilməz) niyyətdir, yəni bu niyyət möminin imanından, kafirin isə küfründən əmələ gəlir. Bir sözlə, möminin (əxlaqı və imanı ilə bağlı) niyyəti əməlindən daha yaxşı, kafirin (küfr ilə bağlı) niyyəti isə əməlindən daha pisdir, çünki belə niyyət mömində nuranilik, sədaqət və iman, kafirdə isə inadkarlıq, küfr və üsyankarlıq əlamətidir.

Bu açıqlamalarla "Bir kimsə hər hansı bir qövmün əməli ilə razılaşarsa,..." və "hər hansı bir qövmün əməlindən razı qalan..." hədislərində məhəbbət və nifrət məsələsi tamamilə aydın olur. Həm də məhəbbət və nifrət, razılıq və narazılıqdan sözü səthi, ötəri

---

[1] «Təfsiri Əlmizan» XIX c/s-45;
«Üsul Kafi» II c/s-442; Ləməm fəsli/hədis №3,5. Bu fəsildə imam Sadiq(ə)-dən bir neçə hədis nəql olunmuşdur. Onların hamısında «ləməm» (xəta) sözü günahı fikirləşmə və ya təsadüfi günahlar kimi təfsir olunmuşdur.

emosiyalar yox, insan daxilindən axıb gedən, onun şəxsiyyəti və təbiəti ilə sıx bağlı olan nəfsani halətlər məqsədi ilə işlənmişdir. Bu halda başqasının əməli ilə həmfikir olan şəxs əslində onunla həmrəydir. Təbii surətdə əməlin nəticələrində də onunla şərik olacaqdır.

6. Əxlaq normalarında əməlin təsirli olmasına baxmayaraq, əsas niyyət və düşüncədir. Hüquqi normalarda isə bunun tam əksi olaraq niyyət ikinci dərəcəli olub əməl əsas təşkil edir.

**Nəticə**

Möminin niyyəti səmimi olduqda əhəmiyyət kəsb edir. Başqa sözlə, icraçı gözəlliyi əməl gözəlliyindən yaxşıdır. Çünki icraçı gözəlliyinin iki xüsusiyyəti vardır: əməli gözəl, icraçını isə əməlisaleh edir. Əməl gözəlliyi isə bunun əksi olaraq icraçıya heç bir təsir bağışlamır, yəni hər kim qeyri-səmimi gözəl bir iş görərsə, niyyətinin səmimiyyəti olmadığından həmin xeyir əməlin ona heç bir faydası yoxdur. Buna görə də Allah-təala "Qurani-Kərim"də buyurur:

**"Mömin olub axirəti istəyən və onun uğrunda (can-başla) çalışanların zəhməti (Allah dərgahında) qəbul olunar." («İsra» - 19).**

Peyğəmbər(s) buyurmuşdur:

"Hər kim Allahdan sidq ürəklə şəhadətə yetməyi diləyərsə, Allah-təala onu evində vəfat etsə belə, şəhidlər məqamına yüksəldər."[1]

Həzrəti-Əli(ə) buyurur:

"......... Allah-təala bəndələrindən kimi istəyərsə, saf niyyəti və təmiz ürəyinə görə behiştə daxil edər."[2]

İmam Sadiq(ə) buyurur:

«Fəqir mömin bəndə deyər: «İlahi! Xeyir işlər görmək üçün mənə bir vasitə göndər.» Əgər Allah-təala onun bu diləyinin saf niyyətlə olduğunu görərsə, o xeyir əməlin əcr və savabını onun əməllər kitabçasına yazar. Həqiqətən, Allah-təala ehtiyacsız və kərimdir."[3]

Bu şərtlər bir yerdə cəmləşdikdə möminin niyyətinin niyə görə əməlindən yaxşı olduğunu bir daha sübut edir:

---

[1] «Səhih Müslim» II c/ səh-103;
«Sünəni ibn Macə» II c/səh-539 / hədis №2797.
[2] «Nəhcül bəlağə» Sübhi Salehi: Hikmət №42
[3] "Üsuli-kafi" İslamiyyə çapı: II c/səh-69;
«Səfinətül bihar» II c /səh-628;
«Vəsailüş-şiə» II c/səh-35.

1)niyyət əməlin təməli və qayəsidir. Səbəb isə bir şeyin nəticəsindən daha əsas və üstündür;

2)niyyət əməlin canı və ruhudur. Ruh isə cisimdən irəlidir;

3)niyyətdə riya ola bilməz, lakin əməldə riyanın olması mümkündür;

4)möminin əməli səhv olduğuna görə özünə, yaxud başqalarına zərər yetirə bilər. Bu halda əməlin ona heç bir xeyri olmaz, amma niyyəti saf olduğu üçün mükafat və savab qazanar;

5)mömin çalışdıqca öz qüdrətindən artıq şeylər istəyir. Deməli, möminin niyyəti hər cəhətdən əməlindən üstündür.

## Ədəbiyyat

1. Qurani-kərim
2. Nəhcül-bəlağə
3. Amoli, Cavadi, Təsnim, Qum, 1396
4. Təbatəbayi, Məhəmmədhüseyn, Qum, əl-Mizan, 1389
5. Məkrim Şirazi, Təfsire-Nümunə, Qum, 1390
6. Əl-Fəzail, Şazan ibn Cərayıl Qummi, Nəcəf, Heydəriyyə mətbəəsi, 1338 hicri-qəməri.
7. Qürbül-isnad, Abdullah ibn Cəfər Himyəri Qummi, tədqiq: Alül-beyt müəssisəsi, Qum, Alül-beyt müəssisəsi, 1413 hicri-qəməri, birinci çap.
8. Əl-Kafi, Məhəmməd ibnYəqub Kuleyni Razi, tədqiq: Əli Əkbər Qəffari, Beyrut, Darüs-səb və Darüt-təarüf, 1401 hicri-qəməri, dördüncü çap.
9. “Əl-Burhan fi-ulumil-Quran”, Beyrut, 1998
10. Əl-Kafi, Məhəmməd ibnYəqub Kuleyni Razi, tədqiq: Əli Əkbər Qəffari, Beyrut, Darüs-səb və Darüt-təarüf, 1401 hicri-qəməri, dördüncü çap.
11. Məcməül-bəyan fi təfsiril-Quran, Fəzl ibn Həsən Təbrisi, Seyid Haşim Rəsuli Məhəllati və Seyid Fəzlülah Yəzdi Təbatəbayi, Beyrut, Darül-mərifə, 1408 hicri-qəməri, ikinci çap.
12. Biharül-ənvar, Məhəmmədbaqir ibn Məhəmmədtəqi Məclisi (Əllamə Məclisi), Beyrut, Vəfa müəssisəsi, 1403 hicri-qəməri, ikinci çap.

# Dini təfəkkür (Əllamə Təbatəbainin baxışında)

**Fəzail Aslan**[1]

**Abstrakt**

Öz dini tə`limlərində əsas maddələrdən birini nəticə kimi götürən axtarış və araşdırma təfəkkürünə dini təfəkkür deyilir; Məsələn, riyazi təfəkkür, bir riyazi nəzəriyyə ilə nəticələnən, yaxud riyazi bir məsələni həll edən bir təfəkkürə deyilir. Əlbəttə, dini təfəkkürün də sair təfəkkürlər kimi müəyyən mənbəyi vardır ki, ondan qaynaqlanır və ona arxalanır. Məsələn, riyazi bir məsələni həll etmək üçün aparılan təfəkkürdə bir sıra riyazi mə`lumatlardan istifadə etmək lazımdır ki, aparılan əməliyyatlar düzgün nəticə versin. İslamın, asimani bir din kimi istinad etdiyi yeganə mənbə Peyğəmbərin (s) əbədi nübüvvətinin qəti dəlili olan Qur`andır. Əlbəttə, qeyd edəcəyimiz kimi, Qur`ani-Kərimin yeganə mənbə olması sair düzgün təfəkkür və höccətləri e`tibardan salmır.

**Açar kəlmələr:** Quran, din, təfəkkür, Əllamə Təbatəbai

[1] - İslam araşdırmaları fakültəsində könüllü araşdırmaçı, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, İran, Qum

## Giriş

Qur`ani-Kərim öz tə`limlərində islam maarifini və dini məqsədləri dərk edib anlamaq üçün öz ardıcıllarına üç yol göstərmiş və bəyan etmişdir ki, dini zahirlər, əqli höccət və mə`nəvi dərk ixlas və bəndəlik yolu ilə mümkün ola bilər.

İzah: Mə`lum olduğu kimi, Qur`ani-Kərim öz bəyanlarında bütün insanlara xitab edir; bə`zi hallarda öz müddəasına höccət və bürhan gətirmədən, özünün ilahi rəhbərliyinə arxalanaraq tövhid, nübüvvət, məad kimi e`tiqad üsullarının, eləcə də namaz, oruc və s. əməli hökmlərin qəbul edilməsini onlara əmr edir və onları bə`zi işlərdən çəkindirir. Əgər sözlə ifadə olunan bu bəyanları höccət hesab etməsəydi, heç vaxt insanlardan onlara itaət etməyi tələb etməzdi. Deməli, qəbul etməliyik ki, Qur`anın bu kimi sadə bəyanları islam maarifini və dini məqsədləri başa düşmək üçün bir yoldur. Biz bu şəkildə buyurulan *“aminu billahi və rəsulih”, “əqimussəlatə”* və s. bəyanları dini zahirlər adlandırırıq.

Digər tərəfdən görürük ki, Qur`ani-Kərim bir çox ayələrdə insanı əqli höccətə doğru hidayət edir, insanı kainatda və onun öz daxili aləmində mövcud olan nişanələr barəsində əql və təfəkkür qüvvəsini işə salmağa də`vət edir, lazım gəldikdə həqiqətlərin işıqlandırılması üçün əqli sübutlar gətirir. Doğrusu, heç bir asimani kitab insanlara Qur`an kimi bürhanı, mə`rifəti və elmi təqdim etməmişdir.

Qur`ani-Kərim bu bəyanlarla əqli höccətin, istidlalın və azad bürhanın e`tibarını şübhəsiz və danılmaz hesab edir. Qur`an heç vaxt demir ki, əvvəlcə islam maarifinin haqq olmasını qəbul edin, sonra əqli yollarla dəlil gətirərək qeyd olunan həqiqətləri əldə edin; əksinə, öz həqiqət və gerçəkliklərinə kamil e`timadla belə buyurur:

Əqli dəlillər gətirərək qeyd olunan maarifin **haqq olmasını dərk edin;** islami də`vətdən eşitdiyiniz sözlərin təsdiqini yaradılış dünyasından əldə edin; soruşun, eşidin və nəhayət dəlilin nəticəsindən əqidə və iman qazanın. Buyurmur ki, əvvəlcə iman gətirin, sonra onun müvafiq olmasına dair dəlil gətirin. Deməli, fəlsəfi təfəkkür də Qur`ani-Kərim tərəfindən təsdiq edilən bir yoldur. Qur`ani-Kərim aydın və gözəl bir bəyanla aydınlaşdırır ki, bütün həqiqi maariflər tövhid və allahşünaslıqdan qaynaqlanıb əldə edilir. Özlərini hamıdan kənara çəkərək hər bir şeyi unudan, ixlas və bəndəçilik sayəsində bütün qüvvələrini təbiətin fövqündə dayanan aləmə yönəldən bu şəxslər öz gözlərini pak Pərvərdigarın nuru ilə işıqlandırmışlar; onlar həqiqət görən gözləri ilə əşyaların həqiqətlərini, asimanların və yerin mə`nəvi simasını görmüşlər. Çünki ixlas və bəndəçilik sayəsində yəqin mərhələsinə çatmışlar; yəqin sayəsində yerin və asimanların mələkuti çöhrəsi, əbədiyyət aləmi onlar üçün kəşf olunmuşdur.

## Dini təfəkkürün arasındakı fərqlər

Qur`ani-Kərim dini maarifin dərk olunması üçün üç yol göstərmişdir: Dini görüntülər (zahirlər), əql, bəndəçilikdə ixlas və mə`nəvi saflıq. Sonuncu yol həqiqətlərin aşkar olunmasına və onların batini müşahidəsinə səbəb olur. Lakin qeyd etmək lazımdır ki, bu üç yol bir-biri ilə müəyyən cəhətlərdən fərqlənir:

Əvvəla: Dini zahirlər ləfz, ifadə və bəyanlardan ibarət olduğundan və ən sadə dillə çatdırıldığından hamı tərəfindən dərk edilir, hər bir şəxs öz dərrakə və tutumu qədər ondan faydalanır.[1]

[1] Məhz buna görə də Peyğəmbəri-Əkrəm (s) sünnü və şiələr tərəfindən nəql olunan bir rəvayətdə buyurur: “Biz peyğəmbərlər camaatla, onların əqllərinin səviyyəsində danışırıq.” “Biharul-ənvar”, 1-ci cild, səh-37.

Amma qalan iki yol xüsusi təbəqələrə məxsusdur və ümumi kütlə ondan istifadə edə bilmir.

İkincisi: Dini zahirlər elə bir yoldur ki, onu qət etməklə islam maarifinin əqidəvi və əməli prinsiplərini anlamaq olar. Amma yerdə qalan iki yol belə deyildir. Əql yolu ilə əxlaqi, e`tiqadi və əməli məsələlərin külliyyatını (füruidini) əldə etmək mümkün olsa da, hökmlərin xüsusiyyatını, incəlik və təfərrüatını dərk etmək olmaz. Nəfsin saflaşdırıl-ması yolu ilə də həqiqətlərin kəşf olunmasına və onun Allah tərəfindən göndərilməsinə heç bir şübhə yerinin qalmamasına baxmayaraq, onlara da hədd-hüdud tə`yin etmək, yaxud onu me`yar götürmək olmaz. Onlar hər bir yerdən əlaqələrini kəsdiyinə, Allahdan başqa hər bir şeyi unutduqlarına görə birbaşa ilahi vilayətin nəzarətində olur; onlar öz istədiklərini deyil, Allahın iradə etdiyi şeyləri müşahidə edirlər.

## DİNİ ƏDƏBİYYAT

Qeyd olunduğu kimi, İslamda dini təfəkkürün əsas mənbəyi olan Qur`ani-Kərim dinləyiciləri müqabilində öz sözlərinin zahiri mə`nalarına höcciyyət və e`tibar verir, həmin ayələrin zahiri Peyğəmbəri-Əkrəmin (s) sözlərini Qur`andan sonrakı silsilədə yerləşdirir və Qur`an kimi onu da dəlil və höccət sanır. Belə ki, buyurulur:

“...Və Zikri sənə nazil etdik ki, xalqa nazil edilənləri onlara bəyan edəsən...”[1]

Başqa bir yerdə buyurulur:

“O, həmin Allahdır ki, ümmilər (dərs oxumamış) arasında, onların özündən olan bir Rəsul göndərdi ki, o, (Allahın) ayələrini

[1] “Nəhl” surəsi, ayə-44

onlara tilavət edir, (ruhlarını aludəliklərdən və rəzil sifətlərdən) saflaşdırır, Kitabı və hikməti onlara öyrədir."[1]

Sonra buyurulur:

*"Şübhəsiz, Allahın Rəsulunda sizin üçün gözəl nümunələr, örnəklər vardır."*[2]

Aydındır ki, Peyğəmbərin (s) sözləri və əməlləri, hətta sükut və razılığı bizim üçün Qur`an qədər höccət olmasaydı, onda qeyd olunan ayələr də öz e`tibarını əldən verərdi. Deməli, Peyğəmbəri-Əkrəmin (s) sözləri, onu o həzrətdən, yaxud başqa e`timadlı şəxslərdən eşidən şəxslər üçün höccət sayılır və onlara itaət etmək vacibdir. O həzrətdən qəti təvatür əsasında nəql olunmuşdur ki, Əhli-beytin bəyanları onun öz kəlamları kimidir. Bu və Peyğəmbərin (s) sair qəti hədislərinə əsasən, Əhli-beytin (ə) sözləri Peyğəmbərin (s) sözlərinin davamıdır, onlar islamda elmi mərcəiyyət məqamına malik olmuş, islam elmlərinin və hökmlərinin bəyan olunmasında heç vaxt xətaya yol verməmişlər; onların bəyanları şifahi, yaxud nəql olunduğu şəkildə höccət və mö`təbər sayılır.

Deməli, islami təfəkkürdə mənbə sayılan dini zahirlər iki cürdür: Kitab və sünnə. Kitab dedikdə Qur`ani-Kərimin ayələrinin zahiri mə`naları, sünnə dedikdə isə, Peyğəmbər və onun Əhli-beytindən (ə) nəql olunan hədislər nəzərdə tutulur.

---

[1] "Cümə" surəsi, ayə-2

[2] "Əhzab" surəsi, ayə-21

## QUR`ANIN ZAHİR VƏ BATİNİ

Mə`lum olduğu kimi, Qur`ani-Kərim öz sözləri ilə dini məfhumları aydınlaşdırır, e`tiqad və əməl barədə camaata müəyyən göstərişlər verir. Lakin Qur`anın məqsədləri bu mərhələ ilə bitmir; həmin sözlərin sayəsində və həmin məqsədlərin batinində mə`nəvi bir mərhələ, daha dərin, daha dolğun və geniş məqsədlər nəzərdə tutur ki, yalnız xüsusi insanlar özlərinin pak qəlbləri ilə onları başa düşə bilərlər.

İlahi Qur`an müəllimi olan Peyğəmbəri-Əkrəm (s) buyurur: "Qur`anın gözəl və xoşa gələn zahiri, dərin batini vardır."[1]

Başqa bir hədisdə buyurur: "Qur`anın batini vardır, batininin də batini vardır. Bu batinlər yetmişə qədər davam edir."[2]

Əhli-beyt (ə) imamlarının kəlamlarında da Qur`anın batini mə`nası ilə əlaqədar çoxlu mətləblər qeyd olunmuşdur.[3] Bu rəvayətlərin əsil kökü "Rə`d" surəsinin 17-ci ayəsində gətirilən məsəldir. Belə ki, Mütəal Allah bu ayədə səmavi feyz və bəxşişləri göydən yağan yağışa bənzədir ki, yerin və yer əhlinin həyat və yaşayışı ona bağlıdır. Yağışın yağması ilə çaylar aşıb-daşıb, vadilərin hər biri öz tutumları qədərində o sulardan götürür; sellər-sular axıb cərəyan edərkən onun üzəri köpüklə örtülür, lakin köpüyün altında camaat üçün onların həyatlarına faydalı olan su gizlənmişdir.

[1] "Təfsiri Safi", səh-4

[2] "Səfinətül-bihar", "Təfsiri Safi", səh-15

[3] "Biharul-ənvar", 1-ci cild, səh-117

Bu misalda işarə olunduğu kimi, insanların batininə həyat bəxş edən bu səmavi ne`mət və maarifin öyrənilməsində camaatın idrak tutumları bir-biri ilə fərqlidir.

Bə`ziləri bu dünyanın ötəri həyatında maddə və maddi həyatdan başqa bir şeyə üstünlük vermirlər; maddi istəklərindən başqa bir şeyə ürək bağlamır, maddi məhrumiyyətlərdən başqa heç nədən qorxmurlar. Bunlar malik olduqları müxtəlif dərəcələrlə belə, asimani maarifdən qəbul edəcəkləri ən çox şey – icmali e`tiqadlara inanmaq, islamın əməli göstərişlərini donuq halda icra etmək və nəhayət axirət savabına nail olmaq, yaxud ilahi əzabdan qorxmaq üçün yeganə Allaha sitayiş etməkdir.

Bə`ziləri də fitrətlərinin paklığı və öz səadətləri sayəsində bu dünyanın bir neçə günlük ötəri həyatına və ötəri ləzzətlərinə ürək bağlamırlar; bu dünyanın qazanc və ziyanı, şirin və acılığı onlar üçün aldadıcı və gözqamaşdırıcı şeylərdən başqa heç nə hesab olunmur; dünən varlıq karvanında ləzzət alanlar, bu gün isə əfsanə hesab olunan keçmiş insanların həyatı onlar üçün həmişə ibrət dərsidir.

Bu kimi insanlar təbii olaraq özlərinin pak qəlbləri ilə əbədiyyət dünyasına rəğbət bəsləyirlər; müvəqqəti dünyanın müxtəlif varlıqlarına ilahi nişanələr gözü ilə baxır, onların heç bir əsalət və müstəqilliyə malik olmasına inanmırlar.

Məhz belə bir baxış və mə`nəvi idrakla Allahın asimanda və yerdə olan ayələrinin pəncərəsindən ilahi əzəmətin sonunsuz nurunu müşahidə edirlər; onların pak qəlbləri yaradılış sirlərinin dərk olunması ilə məftun olur və şəxsi mənafelərin darısqal daxmasında məhbus olmaq əvəzinə, əbədiyyət aləminin sonsuz fəzasında pərvaz edərək yüksəlirlər.

Onlar asimani vəhy yolu ilə mütəal Allahın bütlərə sitayişi qadağan etdiyini eşitdikdə və zahirdə bütlərin qarşısında baş əyməkdən ibarət olan bu qadağanı əzəmətlə yad etdiklərinə görə başa düşürlər ki, Allahdan başqa heç bir şeyə itaət etmək olmaz. Çünki itaətin həqiqəti bəndəçilik və baş əyməkdən ibarətdir; başa düşürlər ki, Allahdan başqa bir kimsədən qorxmaq və ya ona ümid bəsləmək, bundan da qorxulu olan nəfsani istəklər qarşısında təslim olmaq olmaz. Həm də başa düşürlər ki, Allahdan başqasına heç vaxt diqqət yetirməməli, e`tina etməməlidirlər.

Qur`anın dilindən onun namaza əmr etdiyini eşitdikdə – onun zahiri də xüsusi göstərişdir – onları yerinə yetirib batin əsasında başa düşürlər ki, bütün varlıqları ilə Allaha ibadət etməlidirlər. Onlar başa düşürlər ki, haqqın qarşısında təvazö`kar olmalı, özlərini tamamilə unutmalı, yalnız Allahı yadda saxlamalıdırlar. Bu iki misalda qeyd olunan batini mə`nalar adı çəkilən əmr və qadağanların zahirdə dəlalət etdiyi şeylər deyildir; onların dərk olunması daha geniş təfəkkürlə məşğul olaraq xudbinlik xəstəliyindən xilas olanlar üçün labüd bir məsələdir.

Qeyd olunanlardan Qur`anın batini və zahiri mə`naları, həmçinin onun batininin öz zahirini batil edərək qüvvədən salmaması, əksinə, öz cisminə həyat verən bir ruh kimi olması aydın oldu. Ümumbəşəri və əbədi bir din kimi ilk növbədə insanların tə`lim-tərbiyəsinə əhəmiyyət verən islam dini cəmiyyətin ümumi mənafeyinə xidmət edən zahiri qanunlardan, qeyd olunan qanunların keşikçisi olan sadə əqidələrdən heç vaxt əl çəkmir.

Hər hansı bir cəmiyyət təkcə “insanın qəlbi pak olsun” deyib rəftar, davranış və əmələ dəyər verməsə, hərc-mərclik və ədalətsizliklərdən yaxa qurtara bilərmi?! Belə bir cəmiyyətin səadət və xoşbəxtliyə çatması necə mümkün ola bilər? Yaramaz əməl və sözlərin pak bir qəlb yetirməsi, yaxud pak bir qəlbin nalayiq işlər

törətməsi mümkündürmü? Mütəal Allah Öz kitabında buyurur: *“Paklar pakların, napaklar da napkalarındır.”*

Başqa yerdə buyurulur: *“Yaxşı torpaq öz bitkilərini yaxşı cücərdir, pis torpaq da cüz`i məhsuldan başqa bir şey vermir.”*[1] Deməli, aydın olur ki, Qur`ani-Kərimin zahiri və batini, batininin də müxtəlif mərhələləri vardır. Qur`ani-kərimin məzmununu bəyan edən hədislər də həmin qaydada üzrədir.

### *QUR`ANDA TƏ`VİL (YOZUM)*

İslamın əvvəllərində əksəriyyət təşkil edən sünnülərin arasında kifayət qədər dəlil mövcud olduğu halda, Qur`ani-Kərimin zahiri mə`nasından dönüb onun digər bir mə`naya yozulması adi bir hal idi və adətən zahiri mə`nanın əksinə götürülən bu kimi yozumlar “tə`vil” adlandırılırdı. Qur`ani-Kərimdə tə`vil adlandırılan digər ifadələr də məhz bu mə`nanı çatdırır.

Sünnülərin mö`təbər kitablarında, eləcə də müxtəlif məzhəblər arasında aparılan elmi mübahisələrdə din alimlərinin fikir birliyi ilə, yaxud başqa dəlil vasitəsilə sübuta yetən bir məsələ Qur`an ayələrinin zahiri mə`nası ilə müxalif olduğu təqdirdə tə`vil edilərək zahiri mə`nadan başqa bir mə`naya götürülürdü. Bə`zən müəyyən bir məsələ ətrafında mübahisə aparan iki nəfər bir-birinə zidd olan iki nəzəriyyəni sübuta yetirmək üçün bir ayəni höccət kimi gətirir, onun iki tərəfindən biri ni tə`vil edirdi.

Bu qayda müəyyən mə`nada şiələrə də sirayət etmişdir və belə hallara onların bə`zi kəlami məktəblərində də rast gəlmək olur. Lakin **Qur`an ayələrinə və Əhli-beyt (ə) hədislərinə lazımı diqqət** yetirildikdə aydın olur ki, Qur`ani-Kərim misilsiz söz üslubundan faydalanaraq, heç vaxt müəmmalı və zəif qaydalardan istifadə

---

[1] “Ə’raf” surəsi, ayə-58

etməmiş, öz mə`na və məfhumlarını xalq arasında mövcud olan ifadə tərzi ilə çatdırmışdır; Qur`ani-Kərimdə "tə`vil" adı ilə qeyd olunan sözlər dəlalət formasında deyil, ümumxalq idrakının fövqündə dayanan həqiqi və real gerçəkliklər şəklində gətirilmişdir; Qur`anın əməli hökmləri və e`tiqadi maariflərinin mənşəyi də məhz onlardır.

Bəli, Qur`anın hər bir ayəsinin tə`vili vardır və onu sadə təfəkkür yolu ilə dərk etmək olmaz; bunları sözlə ifadə etmək də mümkün deyildir. Bu kimi yozumları yalnız bəşəriyyətin düçar olduğu aludəçiliklərdən uzaq olan peyğəmbərlər, pak imamlar və ilahi övliyalar batini müşahidə yolu ilə dərk edə bilərlər. Qeyd etmək lazımdır ki, Qur`anın tə`vili qiyamət günü hamı üçün aşkar olacaqdır.

İzah: Mə`lum məsələdir ki, insanları danışmağa, hər hansı bir dil və nitqi yaratmağa və sözlərdən istifadə etməyə məcbur edən məsələ onun maddi-ictimai ehtiyacları olmuşdur. İnsanlar ictimai həyatda bir-birləri ilə ünsiyyət yaratmaq, ehtiyac duyduqları və zəruri sandıqları fikirlərini başqa insanlara çatdırmaq məcburiyyətində idilər. Onlar bu məqsədi həyata keçirmək üçün səsdən (tələffüzdən) və qulaqdan kömək alır, bə`zi hallarda gözdən və işarədən də istifadə edirdilər. Deməli, bu halda lallarla korların arasında heç bir anlaşma mövcud olmamışdır. Çünki, kor insanın dildə dediyini kar insan eşitmir, kar insanın işarə ilə başa saldığını kor insan görmürdü. Buna görə də dillərin yaradılması və əşyalara ad qoyulmasında maddi məqsədlər nəzərdə tutulmuş, müəyyən şeylər, vəziyyətlər və hallar üçün ayrı-ayrı kəlmələr yaradılmışdır; bunların hamısı maddi mə`naları daşıyan, hiss orqanları tərəfindən duyulan, yaxud hissiyyata yaxın ifadələr idi. Diqqət yetirsək görərik ki, duyğu üzvlərindən hər hansı birini itirən şəxslə həmin hiss tərəfindən idrak olunan şeylər barəsində danışmaq istədikdə bir növ təmsil və

təşbihdən istifadə olunur. Məsələn, anadangəlmə kora işıq və rənglər, yaxud həddi-büluğa çatmayan uşağa cinsi ləzzətlər barədə danışmaq istəsək, öz məqsədimizi bir növ müqayisə, təşbih və münasib bir misal gətirməklə ifadə edə bilərik. Buna əsasən, dünya və varlıq aləmində maddiyyatdan tamamilə uzaq olan real gerçəkliklər haqda (axirət aləmi, mələk və s. ) söhbət açmaq istəsək, az bir hissə istisna olmaqla, insanlar onları dərk etməyəcək; həmin məsələlərin adi təfəkkür, söz və bəyan yolu ilə ifadə və dərk olunması mümkün olmadığından, onları təmsil və təşbihdən başqa bir yolla çatdırmaq olmaz.

**Allah-taala Öz kitabında buyurur:**

“Biz bu kitabı ərəb dilində və oxunaqlı halda olan ləfz qərar verdik ki, bəlkə siz onun barəsində düşünüb başa düşə biləsiniz.

Həqiqətən bu kitab Bizim yanımızda asimani kitabın əsli olan Lövhi-məhfuzdadır, bu çox uca məqamlı və möhkəm bir əsasdır (adi idrakların onu dərk etməsi mümkün deyil və ona nüfuz edə bilməzlər).”[1]

Başqa bir yerdə buyurulur:

“Ona yalnız pak olanlar toxunar.”[2]

Həmçinin Peyğəmbəri-Əkrəm (s) və onun Əhli-beyti (ə) barəsində buyurur:

---

[1] “Zuxruf” surəsi, ayə-3-4

[2] “Vaqiə” surəsi, ayə-79

“Mütəal Allah siz Əhli-beytdən hər növ çirkinlikləri aparmaq, sizi pak-pakizə qərar vermək istəyir.”[1]

Bu ayələrə əsasən, Qur`ani-Kərim elə bir mənbədən qaynaqlanır ki, adi insanların düşüncə qüvvəsi onun dərk etməkdə və oraya nüfüz etməkdə acizdir; Allahın pak-pakizə qərar verdiyi bəndələrdən, Peyğəmbər (s) və onun Əhli-beytindən (ə) başqa bir kimsə bu barədə azacıq idraka malik deyildir.

Başqa yerdə isə buyurulur:

“Qur`ana iman gətirməyən bu şəxslər o şeyi təkzib etdilər ki, onun elminə əhatə tapmamışdılar və onun tə`vili onlar üçün müşahidə olunmamışdır (yə`ni əşyaların həqiqətinin əyani olaraq göründüyü qiyamət gününü təkzib etdilər).”

Digər bir yerdə isə belə buyurulur:

“Qur`anın tə`vilinin (bütün Qur`anın) müşahidə olunduğu bir gündə onu unudan şəxslər nübüvvət də`vətinin doğru olmasını e`tiraf edəcəklər.”[2]

---

[1] “Əhzab” surəsi, ayə-33

[2] “Ə’raf” surəsi, ayə-53

## Ədəbiyyat

1- Qurani-kərim
2- Nəhcül-bəlağə
3- Şiəşünaslıq, Əllamə Təbatəbai (Əsas qaynaq)
4- Biharül-ənvar, Məhəmmədbaqir ibn Məhəmmədtəqi Məclisi (Əllamə Məclisi), Beyrut, Vəfa müəssisəsi, 1403 hicri-qəməri, ikinci çap
5- Amoli, Cavadi, Təsnim, Qum, 1396
6- Təbatəbayi, Məhəmmədhüseyn, Qum, əl-Mizan, 1389
7- Məkrim Şirazi, Təfsire-Nümunə, Qum, 1390
8- Qürbül-isnad, Abdullah ibn Cəfər Himyəri Qummi, tədqiq: Alül-beyt müəssisəsi, Qum, Alül-beyt müəssisəsi, 1413 hicri-qəməri, birinci çap.
9- Əl-Kafi, Məhəmməd ibnYəqub Kuleyni Razi, tədqiq: Əli Əkbər Qəffari, Beyrut, Darüs-səb və Darüt-təarüf, 1401 hicri-qəməri, dördüncü çap.

# Məntiq elmi ilə tanışlıq

**Rauf Musayev**[1]

**Abstarkt**

Məntiq – zehnin təfəkkür zamanı yanlışlıqdan qorunması üçün tətbiq etdiyi (fitri və öz-özlüyündə) ümumi qaydalar toplusundan ibarət bir elmdir. Lakin Məntiq elminin qanunları kağız üzərində yazılmamışdan əvvəl də insan düşünür, əşyalar və hadisələr arasında müqayisələr aparır, qarşılaşdığı məchulları həll etməyə çalışırdı. Çünki insan fərdi, ailəvi və ictimai həyatını tənzimləməsi üçün ağıllı, düşünən və təhlil edən bir varlıq olaraq yaradılmışdır. İnsan yarandığı zamandan istər özündə mövcud olan hallar üzərində, istərsə də ətraf aləmdə baş verən hadisələrlə bağlı düşünmüş, öz ibtidai dərkinə uyğun icmali şəkildə əqli nəticələr əldə etmişdir. İnsan yaradılış etibarilə düşünən və təfəkkür edən varlıqdır. Buna əsasən, demək olar ki, məntiqin həqiqi tarixi bəşər tarixi ilə eynidir. Amma, demək olar ki, bu elmin şifahi yaradıcısı Yunan filosofları Pifaqor[2], Sokrat və s. olmuşdur. Hətta onlardan öncə də insanlar məntiqi qanunlardan istifadə edirdilər.

**Açar kəlmələr:** Məntiq, idrak, təfəkkür, Aristotel

---

[1] - İslam araşdırmaları fakültəsinin müəllimi, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, İran, Qum

[2] Qədim yunan teisti (ilahiyyatçısı), riyaziyyatçısı və filosofudur.

## Giriş

Məntiq elminin tarixi, təqribən, şifahi olaraq Sokrat və ondan öncəki filosoflarla başlasa da, yazılı olaraq Aristotellə bağlıdır. Yəni onlar zehinlərində bu qanunlara söykənərək fikir yürütsələr də, sonradan bu qanunlar Aristotel vasitəsilə qələmə alındı.

Qədim Yunanıstanda böyük filosof olan Sokratın zamanında bir qrup mənafepərəst hakim, məhkəmələrdə gizli məntiqsizliklərdən, dolaşdırmalardan istifadə edərək, qəsdən, günahkarı günahsız çıxarır, bununla da özləri üçün gəlir əldə edir, var-dövlət toplayırdılar. Onlar düzü əyri, əyrini də düz kimi qələmə verməkdə mahir idilər.

“Sofizm”[1] adlanan bu məntiqi dolaşdırma get-gedə yayılaraq, nəhayət, bir məktəb kimi formalaşdı. Onlar o qədər belə dəlilgətirmə ilə yaşadılar ki, nəhayət, haqqı batil, batili haqq kimi qəbul etməyin mümkünlüyünə inandıqdan sonra həqiqəti inkar etməyə başladılar. Bəziləri həqiqətin varlığında, bəziləri isə onu əldə etməyin, əldə etdikdən sonra da başqalarına ötürməyin mümkünlüyündə şübhə edirdilər.

Sofizm cərəyanı cəmiyyətdə yayılmağa başladığı zaman həmin cərəyanın qarşısını almağa çalışan və buna nail olan ilk şəxs kimi tanınan məşhur filosof Sokrat idi. Bundan sonra da Onun şagirdləri tərəfindən məntiq elmi formalaşmağa başladı. Və nəhayət Aristotel bu elmi hazırladı.

## Tarixi baxış

Aristotelin kəşflərindən biri də onun, elmləri bir-birindən mövzuları ilə fərqləndirməsidir. O deyir: “Hər bir elm müəyyən predmet, yaxud mövzu haqqında danışır və elmlər də öz mövzuları ilə bir-birindən fərqlənirlər“. Məsələn: psixologiya elminin predmeti insan psixikasıdır; tibb elmi də psixologiya kimi insanı öyrənsə də, onun predmeti insanın daxili aləmi yox, bədənidir və s. Məntiq də bir elm olduğundan, aydındır ki, onun da müəyyən mövzusu olmalıdır. Əvvəlki dərslərdə də bu haqda danışdıq.

---

[1] Bax: 25-ci dərs.

Məntiq bizə düzgün “düşünməy”i və “təfəkkür”ü öyrədir. Deməli məntiqin predmeti təfəkkürdür. Təfəkkür də ya tərif, ya bölgü, ya da əqli-nəticə formasında olur.

Alimlər hər bir elmlə bağlı üç əsas ünsürə diqqtə olunmasını deyirlər:

1. Predmet
2. Əhəmiyyət
3. Tərif

Məntiq elmi də müstəqil bir elm kimi, bu üç əsas ünsürdən kənar deyil. Bu elmlə tanışlığa başlayan şəxs onun predmetini, əhəmiyyətini və tərifini bilməlidir.

İslam dininin elm və tərəqqisinin “Qızıl əsr”i adlandırılan dövrdə müsəlmanlar Quran və hədislərin bu istiqamətdə şövqləndirməsi ilə müxtəlif elmlərdə öz sözlərini deməyə başladılar. Bu, ilk olaraq digər mədəniyyətlərdən tərcümə şəklində həyata keçirilirdi. Yunan elmləri İskəndəriyyə elmi mərkəzi vasitəsilə İslam aləminə yol tapdıqdan sonra, Abbasi xəlifəsi Məmunun (786-833) dövründə Bağdadda “Beytül-hikmət” adlı elmi mərkəz qurulmuşdu. Məmun, İbn Təriq və Həccac ibn Mətər kimi xarici dillərin bilicisi olan alimləri əcnəbi ölkələrə göndərib, oradakı yunan, fars, latın, siryani və hind dillərində olan həndəsə, riyaziyyat, tibb və fəlsəfəyə dair kitabları əldə edərək Bağdada gətirməyi göstəriş vermişdi. Onlar da hər yerdən qiymətli kitabları tapıb Məmuna göndərirdilər. Məlumata görə, bu kitablar yüz dəvə yükü qədər idi.

Bütün Avropada elm-maarif mərkəzi tapılmayan dövrdə (çünki həmin dövrlərdə Avropada kilsə hakimiyyəti hökm sürürdü və kilsə öz mənafeyi üçün elmin üzə çıxmasına imkan vermirdi), İslam ölkələrində çoxsaylı belə mərkəzlər var idi. Həmin elmi mərkəzlərdə bütün sahələr üzrə tədqiqatlar aparılır və mütəxəssislər yetişdirilirdi. Səlib yürüşlərinin başlanması ilə İslam mədəniyyəti və elmi nümunələri sürətlə Avropada da yayıldı.

“Beytül-hikmət” elm mərkəzində bəzi yunan elmləri ilə yanaşı, məntiq elmi də tədris edilirdi. Aristotelin məntiq haqqında yazdığı səkkiz traktat ərəb dilinə tərcümə edildi.

Məntiq, İslam elmləri ailəsinə daxil olduqdan sonra müsəlmanlar arasında sürətlə yayılmağa başladı və zaman keçdikcə tərcümə ədəbiyyatlarına əlavələr, şərhlər, düzəlişlər və tənqidlər yazılmağa başlandı. Müsəlman alimləri bütün elmlərdə müstəqil nəzər sahibi kimi şöhrət qazandı. Təsadüfi deyildir ki, əsrlər boyu Avropanın məşhur elm mərkəzlərində İslam alimlərinin əsərləri böyük rəğbətlə tədris edilirdi. Bir çox Qərb alimləri Avropa elmlərinin inkişafında özlərini müsəlmanlara borclu bilirlər.

Həmin dövrlərdə müsəlman aləmində müxtəlif elmlər sürətlə inkişaf etməyə başladı. İslam mədəniyyəti başqa mədəniyyətlərdən müqayisəedilməz dərəcədə yüksəklərə qalxdı. Hətta İslam dininin düşmənləri də bu dövrlərdə dinimizin mədəniyyət, sənət, elm və sair sahələrdəki müvəffəqiyyətlərini inkar edə bilməzlər. Müsəlman alimlərinin müxtəlif elmlərdə qazandıqları nailiyyətlərdən bütün dünyada, o cümlədən Avropada istifadə edirlər. Qərblilər müsəlman alimlərinin riyaziyyat, fizika, kimya və astronomiya elmlərindəki kəşflərini və tədqiqatlarını öyrənməyə çalışır, bunlardan öz elmi tədqiqatlarında geniş surətdə faydalanırdılar.

Həmin dövrlərdə Kopernikin nəzəriyyəsini müdafiə etdiyi və Yer Günəş ətrafına fırlanır dediyi üçün Qalileyi kilsə mühakimə edirdi. Onu məcbur etdilər ki, öz əqidəsindən əl çəksin və bu şəkildə “tövbə”[1] etsin... Məşhur filosof Bekona, İngiltərə kralı Edvard tərəfindən verilən əmrə görə, kimya elmi ilə məşğul olmaq qadağan edildi. Bekon Fransaya sürgün edildi və kilsənin nəzarəti altında yaşamağa məcbur oldu. Kilsə kimya elminin şeytanla bağlı olduğunu iddia edir, kimyaçıları isə cadugər hesab edirdi.

Kitab və kitabxanaların Avropa xalqları nəzərində heç bir dəyəri olmadığı və bütün kilsə və monastrlarda cəmi 500 cild dini kitab mövcud olduğu dövrdə, İslam ölkələrində kifayət qədər zəngin kitabxanalar var idi. Bağdaddakı “Beytül-hikmət” kitabxanasında 4 milyon, Qahirədəki “Səltənət” kitabxanasında bir milyon, Şamdakı

---

[1] Belə deyilir ki, təzyiqlərə məruz qalan Qaliley kilsənin ona verdiyi son fürsəti dəyərləndirərək dar ağacında Yerin sabit və hərəkət etməyən mərkəz olduğunu yalandan etiraf edib və kilsənin ölüm hökmündən “özünü elmə fəda edən dahi”ni, yəni özünü qurtarır. Tələbələri, sərbəst buraxılan Qalileyə deyir: “Bəs deyirdiniz ki, Yer Günəşin ətrafına fırlanır?”. Dahi Qaliley deyir: “Nə olsun, mən inkar etdim, ya etmədim, onsuz da Yer Günəş ətrafına fırlanır!”

"Trablos" kitabxanasında isə 3 milyon kitab mövcud idi. O dövrdə müsəlmanların əlində olan İspaniyada təkcə bir ildə 80000 cildə yaxın kitab hazırlanırdı. Müstənsiriyyə şəhərində çox böyük və əzəmətli binası olan, İslam dünyasında görünməmiş bir universitet var idi. Nəzərə almaq lazımdır ki, bütün bunlar XIII əsrin əvvəllərində idi. İstanbulda 80-dən artıq kitabxana var ki, burada on minlərlə kitab toplanıb. Qahirədə, Dəməşqdə, Mosulda, Bağdadda və İranda bir-birindən böyük çoxlu kitabxanalar mövcuddur. Təəssüf ki, bu kitabxanalarda yığılmış kitablardakı məlumatlar müasir dünya tərəfindən çox az araşdırılıb. Nəzərimcə, gələcəkdə dünya alimləri İslam elmlərinə daha artıq əhəmiyyət verərək, bu qiymətli xəzinələri öyrənməyə çalışacaq. Müsəlmanların müxtəlif elmləri öyrənməyə yüksək əhəmiyyət göstərməsi, doğrudan da, çox heyrətamizdir. İslam fəthləri zamanı onlar tutduqları hər bir şəhərdə birinci olaraq məscid və mədrəsələr inşa edirdilər. XII əsrin alimlərindən olan Bencamen Tuvel yazırdı ki, mən təkcə İskəndəriyyə şəhərində 20 elmi laboratoriya görmüşdüm. Bağdad, Qahirə və başqa müsəlman şəhərlərində çoxlu elmi mərkəzlər, laboratoriyalar, kitabxanalar və rəsədxanalar mövcud idi. Halbuki Avropada ilk kitabxana bundan 400 il sonra Parisdə təsis edilmişdi.

**Məntiqin əhəmiyyəti**

Məntiqin əsas əhəmiyyəti "sofizm" dərsində özünü tamamilə büruzə verəcək. Təfəkkürün formaları ilə tanış olduqdan sonra zehnin bu prosesi zamanı insanın nə qədər məsuliyyətli olduğu daha aydın olur. İnsanı başqa varlıqlardan fərqləndirən məsuliyyət hissinin mənşəyi təfəkkürlə bağlıdır. Məntiq elminə qısa şəkildə "Məntiq düzgün təfəkkürün qanunudur", – tərifini versək, insanın bu məsuliyyətin öhdəsindən gəlməsi üçün, məntiqə olan ehtiyacı və məntiqin əhəmiyyəti daha aydın görünür. Zehnin bu mürəkkəb proses zamanı nələrlə üzləşdiyini aşağıda bir daha qeyd etməklə, məntiqə olan ehtiyac və onun əhəmiyyətinin zehində aydınlaşması, şübhələrin aradan qalxması üçün mövzunu bir qədər də genişləndirək.

**Nitq qabliyyəti**

Nitq iki yerə ayrılır: zahiri (danışmaq) və daxili (təfəkkür).

**Zahiri nitq:** İnsanı Yaradan başqa varlıqlardan fərqləndirərək ona nitq, danışıq qabiliyyəti vermişdir. Hansısa bir dili öyrənən şəxs həmin dildə fikrini ifadə edə bilmək üçün əvvəlcə sözlərin mənalarını, sonra isə həmin dilin qrammatikasını öyrənməlidir.

**Batini nitq:** İnsana "əsası təfəkkürə söykənən nitq"i bəxş edən (Allah), dediyimiz kimi, onu başqa varlıqlardan fərqləndirmişdir. Zahirdə onu başqalarından fərqləndirən xüsusiyyət onun ünsiyyət vasitəsi olan nitqi olsa da, əslində, əsas fərqləndirici cəhəti batini nitq, yəni təfəkkürdür.

Təfəkkür zamanı bəzən alınan nəticələr yanlış olur. Misal üçün, zehnin, təfəkkür forması olan əqli-nəticə prosesi zamanı əldə etdiyi aşağıdakı nəticələrə nəzər salaq:

– Sokrat insandır. Hər bir insan elmlidir. Deməli, Sokrat da elmlidir.

– Mühəndislər plan hazırlayırlar. Başqasının hazırladığı plana etimad etmək olmaz. Elə isə mühəndislərin hazırladığı plana da etimad etmək olmaz.

– Aristotel yunanıstanlıdır. Yunanıstanlılar filosof olurlar. Deməli, Aristotel də filosof olmalıdır.

– Allah nurdur. Hər bir nur hiss edilir. Elə isə Allah da hiss edilir.

– Allah gözə görünməzdir. Gözə görünməz varlıqlar yoxdur. Elə isə Allah da yoxdur.

Bu misallar haqqında azacıq düşünməklə, verilən izahlara əsasən, alınan nəticələrin yanlış olduğu aydın görünür.

Yanlış nəticələr verən yuxarıdakı kimi hallar bəzən bilmədən, bəzən isə bilərəkdən olur. Müxtəlif nəticələrin zehnin məhsulu olduğunu, düzgün və yanlış nəticələrini və məntiqin zehinə özünəməxsus bu hərəkətə köməyini nəzərə alsaq, bu zaman məntiq elminin əhəmiyyəti məlum olur. Bundan əlavə, məntiqin özü ilə dərindən birbaşa münasibətdə onun əhəmiyyəti özünü daha aydın şəkildə göstərir.

## İslamda məntiq və fəlsəfə müəllifləri

Məntiq və fəlsəfəyə dair ağılları heyran qoyan İslam alimlərindən aşağıdakıları göstərmək olar:

1. "İkinci müəllim" ləqəbi ilə tanınmış Əbu Nəsr Məhəmməd ibn Tərxan **Farabi** (870-949). Farabi, həmçinin İslam məntiqinin atası kimi tanınmışdır. O, Aristotel məntiqinə müxtəlif şərhlər yazmışdır. Farabi, Beytül-hikmət elmi mərkəzinin əvvəlcə şagirdi, sonra isə ən tanınmış müəllimlərindən olmuşdur. Onun ən mühüm məntiq əsəri "Övsəti-kəbir"dir.

2. Aristotel (ona "bəşərin birinci müəllimi" ləqəbi verilmişdir) fəlsəfəsinin davamçısı kimi tanınan, "üçüncü müəllim" ləqəbi verilən, zamanın möcüzəsi, çoxsaylı əsərlərin müəllifi, bütün elmlərdə öz sözünü deyən İslam filosofu Əbu Əli **İbn Sina** (980-1036). İbn Sina məntiqə aid müxtəlif kitablar yazmışdır. Bunlardan "Məntiqi-Şəfa", "Nicat" və "Məntiqi-İşarat"ı göstərmək olar.

3. **Şeyx İşraq** Əbülfəth Şihabəddin Sührəverdi (1154-1191). O, İslam "İşraq" fəlsəfi məktəbinin yaradıcısıdır. "Mütarihat", "Müşariat", "Təlvihat" və "Hikmətül-İşraq" onun fəlsəfi-məntiqi əsərlərindəndir.

4. Məhəmməd ibn Məhəmməd ibn Həsən Xacə **Nəsirəddin Tusi** (1200-1273). O, İbn Sinanın "İşarat" əsərinin ən gözəl şərhçisidir. Onun məntiq kitabı "Əsas-əl-İqtibas"dır. Nəsirəddin Tusinin məntiqə aid digər kitabı isə "ət-Təcrid fi elmil-Məntiq"dir.

5. "Hikməti-mütəaliyyə" məktəbinin yaradıcısı, **Molla Sədra** ləqəbi ilə məşhurlaşmış Sədrül-mütəallihin Sədrəddin Məhəmməd ibn İbrahim Şirazi (1572-1640). Onun məntiqə aid kitablarından "Risalə fit-təsəvvür vət-təsdiq" və "Haşiyeyi Hikmətül-İşraq"ı qeyd etmək olar.

## Avropada məntiq

Avropada renessans dövrünə kimi elm mərkəzlərində məntiq sahəsində əsas söz sahibi Aristotel məntiqi idi. Amma həmin dövrdən etibarən Fransis Bekon və Rene Dekart, Aristotel məntiqinə müəyyən həddə zidd mövqe tutdu. İki-üç əsr keçmədi ki, araşdırmalar başlandı və Aristotel məntiqi alman alimi Ferge vasitəsilə "Yeni

məntiq" kimi ərsəyə gəldi. Fergedən sonra Bertrand Rassel və Vaythed tərəfindən "Yeni məntiq"də üç cildli "Riyazi üsullar" adı ilə ən böyük addım atıldı. Bu kitab "Riyazi məntiq"də böyük çevrilişə səbəb oldu. Müasir dövrdə "Riyazi məntiq"dən başqa "Dialektik məntiq" və "Praqmatik məntiq" də yaranmışdır. Əsası İbn Sina və Nəsirəddin Tusi tərəfindən qoyulan "Modal məntiq" qərb alimləri tərəfindən inkişaf etdirildi. Bundan sonra, dövrümüzün azərbaycanlı alimi Lütfi Zadə və başqaları tərəfindən də "Qeyri-səlis" məntiq nəzəriyyəsi yaradıldı.

Təfəkkürün nə qədər əhəmiyyətli olduğu çox aydın məsələdir. Çünki insan zatən düşünən varlıqdır. Amma o düşünərkən çox ciddi məsələlərdə xətalara yol verir. Deməli, təfəkkür çox əhəmiyyətlili bir mövzudur.

Belə bir sualla qarşılaşa bilərik: hamı düşüncənin və təfəkkürün nə demək olduğunu bildiyi halda alimlərin bir elm kimi hazırladıqları məntiq elminə nə ehtiyac var?

Cavab: Görəsən hamı düşüncənin və təfəkkürün nə demək olduğunu bildiyi halda düşünən zaman düzgün düşünə bilirlərmi? Əksər hallarda cavab mənfidir. Çünki məhz bir çoxlarının öz düşüncələrində xəta etməsi aşkardır. Deməli, təfəkkürün nə demək olduğunu anlasaq da, amma düzgün, qayda-qanun çərçivəsində olan təfəkkür nəzərdə tutulmalıdır.

Sual: Qayda-qanun çərçivəsində olan təfəkkür hansı təfəkkür-dür? Məgər adi düşüncələr və təfəkkür, alimlərin hazırladığı məntiq qanunlarına tabe olan təfəkkürdürmü?

Cavab müsbətdir. Alimlərin əsrlər boyu araşdıraraq əldə etdik-ləri məntiq qanunları ilə tanış olduqca daha da aydın görünür ki, insan həqiqətən də düşünən zaman məntiqə ehtiyaclıdır.

### Təfəkkürün tərifi

Təfəkkür ümumi camaat arasında aşkar (zəruri təsəvvür) bir mahiyyətdən ibarətdir. Yəni təfəkkür, başa düşülməsində düşüncəyə ehtiyacı olmayan məfhumdur, onun mənası ilkin mərhələdə bir aksiomdur. Amma daha dəqiqlik üçün o, "nəzəri təsəvvür" hesab edilir. Yəni onun mənası, tərifi dəqiq verilməlidir. Çünki elm dəqiq-lik tələb edir.

Alimlər ümumi olaraq təfəkkürə belə tərif vermişlər:

**Təfəkkür –** zehnin məchulla məlum arasındakı hərəkətindən ibarət olan aktiv idrak formasıdır.

Burada aktiv dedikdə, komrüter beyninin passiv hərəkətinin, yəni iradəsiz, ixtiyarsız, şüursuz hərəkətinin əksinə olaraq, onun iradəli, ixtiyari, şüurlu hərəkəti başa düşülür və bu hərəkət beş əsas mərhələyə bölünür.

**Beş mərhələli hərəkət və nəticə**

İnsan məchulla üzləşdikdə onu məluma çevirmək üçün zehnini hərəkətə gətirir. Bəzən bu hərəkət qısa bir anda, bəzən isə uzun zaman ərzində sona çataraq nəticə verir. Buradakı hərəkət kompüterdəki ixtiyarsız, iradəsiz, şüursuz şəkildə olan passiv fiziki yerdəyişmə ilə baş verən hərəkətdən fərqlənir. Zehnin bu işi, onun öz fəzasına uyğun mərhələləri keçməklə həyata keçir.

Zehin də hər hansı bir məchulu məluma çevirmək üçün müəyyən mərhələləri qət edərək məluma yetişir. Amma bu hadisə qısa zaman kəsiyində baş verdiyi üçün bizə elə gəlir ki, məchul birbaşa məlumdan alınır.

Qeyd edək ki, təfəkkürün 3 əsas forması var **tərif**, **bölgü** və **əqli-nəticə**. Bunlar haqqında geniş şəkildə bəhs ediləcək və məntiqin elə əsas mövzusu da bunlardır.

İndi isə qeyd etdiyimiz beş mərhələnin izahına diqqət yetirək:

**Birinci mərhələ:** Zehin hər hansı bir obyekti məchul kimi qarşılamalıdır ki, insanda bu məchulu məluma çevirmək iradəsi yaransın.

**İkinci mərhələ:** Məchulu məluma çevirmək istəyindən sonra məchulun növü aydınlaşmalıdır, yoxsa onu məluma çevirmək mümkün deyil. Yəni məchulun hansı elmlə və hansı sahə ilə bağlı olduğu aydınlaşdırılmalıdır.

**Üçüncü mərhələ:** Yəni zehnin məsələni həll etməkdən ötrü münasib məlumatlar seçmək üçün zehində ana məlumatlar məkanına daxil olması. Çünki hər bir sahə ilə bağlı məlumatlar zehində qruplar şəklində toplanır.

**Dördüncü mərhələ:** Bu mərhələ zehnin ən çətin keçdiyi mərhələdir. Çünki məchul üçün istənilən hər məlumatı seçmək olmaz. Saysız zehni məlumatlar arasından münasib məlumat seçilməlidir. Məchulla, onu həll etmək üçün seçilən məlumatlar arasında uyğunluq olmalıdır.

**Beşinci mərhələ:** Zehnin məlumatlar məkanından xaric olaraq, həmin məlumatları qruplaşdırıb nəticəyə çatması.

Misal: "Aləm əzəlidir, yoxsa sonra yaranıb?". Bu məchulu "əqli-nəticə" ilə məluma çevirək və zehnin yuxarıdakı beş mərhələli hərəkətinə baxaq:

Birinci mərhələdə bu sual bizim üçün məchuldursa, onu məluma çevirmək istəyəcəyik. Bundan sonra ikinci mərhələdə bu sualın hansı elmə aid olduğunu aydınlaşdırırıq və əqli (rasional) elmlərlə bağlı olduğunu görürük. Üçüncü mərhələdə sualımız əqli sual olduğundan, aydındır ki, zehnimizdə əqli elmlərlə bağlı məlumatlar ön plana keçir və zehin bu məlumatlar məkanına daxil olur. Dördüncü mərhələdə zehnimiz bu sualı cavablandırmaq üçün daxil olduğu məlumatlar arasında gəzərək axtarış aparır və iki – "Aləm dəyişkəndir", "Bütün dəyişkənlər sonradan yaranır" münasib məlumatları seçərək oradan xaric olur. Nəhayət, beşinci mərhələdə zehnimiz bu iki məlumatı "Aləm dəyişkəndirsə və bütün dəyişkənlər sonradan yaranırsa" – kimi qruplaşdıraraq "Deməli, aləm sonradan yaranıb" – nəticəsini alır.

Sonda bir məsələyə aydınlıq gətirməklə bəhsimizi yekunlaşdırırıq. O da bundan ibarətdir ki, bir qrup insanlar qeyd etdiyimiz məsələdən müstəsnadır. Yəni belə insanlar nəticəyə yetişmək üçün heç də bu "beş mərhələ"ni qət etmirlər, əksinə, onlar nəticəni birbaşa əldə edirlər. Onlar güclü, qeyri-adi əqli qüvvəyə malik olan insanlardır. Belə insanlar üçüncü və dördüncü mərhələyə ehtiyac duymurlar.

Bu cür təfəkkür bəzən hər insanda baş verir və bunun, bir növ, ilhama yaxın olduğunu söyləmək olar. Buna intiusiya da deyilir. Belə şəxslər öz sahələrində o qədər mahir olurlar ki, onlar isbat etmədən bəzi nəticələrə yiyələnə bilirlər.

Təfəkkür, elm və bilik cəhalətin müqabil nöqtəsidir. Buna görə də təfəkkürün və elmin əhəmiyyəti özünü daha gözəl şəkildə göstərməsi üçün elm, bilik, idrak mövzularına keçməzdən öncə yaxşı olardı ki, cəhalət və nadanlıq haqqında bəhs olunsun. Çünki bir-birinin müqabil nöqtəsində dayanan anlayışlar birlikdə daha asasn anlaşılır.

**İdrak və biliklər sistemi**

"İdrak" məfhumu mənaca aydın bir məfhumdur. İdrak, yaxud elm, bilik cəhalət və nadanlıq müqabilində dayanan, aydın başa düşülən zehni bir prosesdir.

İdrak iki yerə bölünür: vasitəsiz və vasitəli. İnsanın hər hansı bir şeyin "öz"ünü dərk etməsi vasitəsiz, "mahiyyət"ini və mənası dərk etməsi isə vasitəli idrak adlanır.

**Vasitəli idrak – hər hansı bir şeyin insan zehnindəki inikasından ibarətdir.** Yəni obyekt müstəqil olaraq xarici aləmdə mövcuddur və onunla insan arasında fasilə olmasına baxmayaraq, zehində əks olunmaqla insanda onun haqqında müəyyən bilgi formalaşır. Bu bilgi "vasitəli" idrak adlanır. Adından məlum olduğu kimi, vasitəli idrak obyekt barəsində hasil olan, kəsb edilən məlumatdır.

**Vasitəsiz idrak – şeyin özünün insan varlığında hazır olmasından ibarətdir.**

Məsələn: Dişimiz ağrıyarkən biz onu hiss edirik, amma yanımızdakılar isə sadəcə bunun haqqında məlumata malikdirlər. Yaxud da, bizim özümüzü dərk etməyimiz vasitəsiz, amma başqalarının bizim varlığımızı qəbulı etmələri is. Vasitəlidir.

İdrak prosesi zamanı dərk edənə idrakın "subyekt"i, dərk olunana isə "obyekt"i deyirlər.

Vasitəsiz və vasitəli idrakın yuxarıdakı təriflərindən sonra onlar arasında aşağıdakı bəzi fərqləri əldə etmiş oluruq:

1. Vasitəsiz idrak vasitəli idrakdan öndədir. Çünki vasitəli idrak obyektiv aləm haqqında zehni məlumatdır və insan xarici aləmi dərk etməzdən əvvəl öz varlığını vasitəsiz olaraq dərk edir.

Həmçinin hər bir vasitəli idrakı özü də vasitəsiz dərk olunur (ümumiyyətlə idrakın tərifinə əsasən)

2. Vasitəli idrak vasitə ilə, vasitəsiz idrak isə vasitə olmadan baş verir.

3. Vasitəsiz idrak "fərdi", vasitəli isə "ümumi"dir. Yəni vasitəsiz idrak sayəsində yaranan biliyin obyektiv aləmdəki nümunəsi vahiddir və elə həmin dərk olunan obyektin özüdür. Amma vasitəli idrakın obyektiv aləmdəki nümunəsi vahiddən çoxdur.

**Hissi, xəyali və əqli idrak**

İnsana, digər canlılardan fərqli olaraq onun yoluna işıq saçan bir nemət – təfəkkür verilib. İndi isə görək digər canlılar düşünən varlıq olmamasına baxmayaraq, insanla hansı xüsusiyyətlərdə ortaqdır, hansında isə ortaq deyil?

Yuxarıdakı idraklar öz növbəsində, zehnin malik olduğu "duyğu", "xəyal", "vahimə" və "ağıl"qüvvələri sayəsində meydana gəlir. Qeyd edək ki, bu qüvvələr sayəsində zehində yaranan biliklər və məlumatlar "hafizə" qüvvəsinin vasitəsilə qorunub saxlanılır.

1. Hissi
2. Xəyali (və təxəyyül)
3. Əqli (rasional)

**Hissi idrak**

Dünyaya yeni gələn insanın məlumatları tədricən əmələ gəlir. Yəni əvvəldə onun yuxarıda qeyd etdiyimiz ağıl ilə yaranan əqli (rasional) idrakı olmur. Amma aşağıdakı idraklara malikdir.

1. Görmə
2. Eşitmə
3. Dadbilmə
4. İybilmə
5. Lamisə.

Beləliklə, hissi idrak beş duyğu üzvünün insanda yaratdığı idrakdan ibarətdir. İnsanın idrakı birinci növbədə, həmin bu hissi

(daxili, ya xarici) idraklar vasitəsilə inkişaf etməyə başlayaraq dərin əqli və fəlsəfi mövzulara yetişir.

Bildiyiniz kimi, heyvanlar hissi idrakda insanla müştərəkdir. Hətta bəzi heyvanlarda bu beş hiss daha güclü olur.

Hissi idrak, insanın beş duyğu üzvündən biri ilə obyektiv aləmlə əlaqə yaratdığı zaman onda davam edən həmin hissiyyatdır (idrakdır). Xəyali idrak isə bu bağlılıq qırıldıqdan sonra həmin idrakın insan zehnindəki xəyali formasıdır. Həmçinin hissi idrakın yuxarıda dediyimiz batini forması da belədir. Yəni insan bir zamanlar birini daxili hiss vasitəsilə sevdiyini zaman keçdikdən sonra xəyalına gətirə bilər. "Vəhmi" biliklər də bunun sayəsində yaranır. İnsan vahimə qüvvəsinin təsirilə qaranlıqdan və cəsəddən qorxur və onların qorxulu olduğu nəticəsinə gəlir.

İdrakın bu növlərində heyvanlar insanla ortaqdır. Heyvanın idrakı burada sona çatır, amma insanın yuxarıdakı idrak qüvvələrinə başqa bir qüvvə də əlavə olunur ki, o da "ağıl"dır. Yəni heyvan insanla "əqli" idrakdan başqa qalan qeyd olunan idraklarda müştərəkdir.

İnsan müəyyən həddə dərk etdiyi məsələn "heyvan" məfhumunun həqiqi mahiyyətini başa düşməyə çalışır. Yəni "heyvan"ın əsl mənası nə deməkdir, əsl həqiqəti nədir? Bu sualı cavablandırmaq üçün isə zehin tərəkkürün formalarında biri olan "tərif"dən istifadə edir.

Bundan sonra, həmin məfhumun nümunələrini bir-birindən hansısa xüsusiyyətlərinə görə bölünməsinə baxmaq olar. Məsələn: "heyvan" məfhumuna düzgün tərif verdikdən sonra onun fərdlərini "onurğalı-onurğasız, güclü-zəif və s. kimi bölmək olar. Məlumdur ki, bu bölmə əməliyyatı da ağlın sayəsində hayata keçir və onu təfəkkürün üçüncü forması öyrənir və "bölgü" adlanır.

Nəhayət, insan bu əməliyyatlardan sonra, həmin məfhumun başqa valıqlarla əlaqəsinə baxa bilər; onun haqqında hökm verə bilər. Məsələn: "heyvan" məfhumu haqqında "Heç bir heyvan insan kimi şüura malik deyil" hökmünü kəşf edə bilər. Bu hökmü isə isbatsız olaraq qəbul etmək düzgün deyil. Ümumiyyətlə aksiomlardan başqa heç bir hökm isbatsız qəbul olunmur. Həmin isbat metodunu isə təfəkkürün "əqli-nəticə" adlanan forması yerinə yetirir.

İnsan bu idrakla heyvandan fərqlənir və bu onun kamilli yi nin göstəricisidir. Əqli idrak təhlillər, analizlər və müqayisələr sayəsində yaranır. Məsələn, insan və heyvan hissi idrakda ortaqdır, yəni ətraf aləmi müşahidə edən insan və heyvanda hissi biliklər əmələ gəlir. Amma tərif, bölgü və əqli-nətiqə isə insana xasdır.

Beləliklə, məntiq elmi zehnin yuxarıdakı qüvvələrindən yalnız ağıl qüvvəsi sayəsində zehnin hərəkətini (təfəkkürü) öyrənir və bu hərəkətin (təfəkkürün) formaları olan "tərif", "bölgü" və "əqli-nəticə"dən danışır. Əqli biliklər sə zehnin ağıl qüvvəsinin sayəsində təfəkkürün bu – tərif, bölgü və əqli-nəticə formaları ilə yaranır.

**Nəticə**

İdrak, elm və bilik məna və məfhum baxımından çox aşkardır, cəhalətin nə demək olduğu da hamıya məlumdur. İdrak, yaxud elm – bilmək, cəhalət isə bilməməkdir.

Alimlə cahili bir-birindən fərqləndirmək üçün cəhl və onun növlərini aydınlaşdırmaq lazımdır. İmam Sadiq (ə) kəlamlarının birində (həmçinin həzrət Əlinin (ə) çoxsaylı hədislərindən alınan nəticəyə görə) buyurur:[1]

– İnsan var ki, bilir, bildiyini də bilir, belələri alimdir; onlara itaət edin. İnsan var ki, bilir, amma bildiyini bilmir, belələri yatmış və qəflətdədir; onları oyadın. İnsan var ki, bilmir, amma ”bilmədiyi”ni bilir, bu cür insan **cahildir**; onlara öyrədin. İnsan da var ki, bilmir və bilmədiyini də bilmir, belələri isə zəlalətdədir, **mürəkkəb cahildir**; bunları da hidayət edin.

İmamın (ə) bu kəlamına əsasən, cəhalət iki növdür: **sadə** və **mürəkkəb.**

Sadə cəhalətdə bir cəhl, mürəkkəb cəhalətdə isə iki cəhl olur. Sadə cəhalət, insanın bir şeyi bilməməsi və ya məlumatının az olması, eyni zamanda bundan xəbərdar olmasıdır. Məsələn: insan hansısa bir sualın cavabını bilmir və eyni zamanda bilir ki, o bu sualın cavabını bilmir. Amma mürəkkəb cəhl isə budur ki, insan bir şeyi bilmir və bilmədiyindən də xəbəri yoxdur. Məsələn: yuxarıdakı misal kimi, insan sualın cavabını bilməyərək səhv cavab verir və elə güman edir ki, düz cavablandırır. Bu cəhldə həm sualı bilməyib səhv cavablandırmaq, həm də suala düzgün cavab verdiyini güman etmək kimi iki cəhl var.

Mürəkkəb cahil də öz növbəsində iki hissəyə ayrılır: **zəif** və **güclü**. Mürəkkəb cahilin zəif nümunəsinə onun cahilliyini göstərmək bəzən mümkün olur. Bu cür cahildə inadkarlıq, təəssübkeşlik, qəzəb və qarşı tərəfin fikirlərinə əsassız olaraq etinasız yanaşmaq kimi xüsusiyyətlər olmadığından, onun cəhalətini müəyyən yollarla izah edib qəbul etdirmək olur. Çünki bu cür cahilin cəhaləti mürəkkəb olsa da, onun həqiqətə, elmə meyli olduğundan, asanca öz səhvini etiraf edə bilir. Zəif nümunənin əksinə olaraq, bu cür cahildə olan

[1] "*Biharül-ənvar*", c. 1, səh. 195.

bəyənilməyən qəzəb, təəssübkeşlik, etinasızlıq, təkəbbür, hər hansı psixoloji problem və s. kimi nəfsani xüsusiyyətlər ona öz cahilliyini anlamağa heç cür imkan vermir.

Cəhl də bilik və elm kimi "təsəvvür" və "təsdiq"ə bölünür. Zehində "rəng" və "qızıl" haqqında təsəvvürün olmaması və "qızılın sarı olmasına" dair biliyin olmaması kimi.

**Sokrat və: "Mən bircə onu bilirəm ki, heç nə bilmirəm!"**

Bu məşhur kəlamın müəllifi Sokrat, ömrünün axırına qədər cəhalətlə mübarizə apardı.

Deyilənə görə böyük Sokrat, aləmin, həyatın mənasının, fəlsəfəsinin və həyat haqqında bilgilərinin həyatın həqiqi mənasından fərqli olduğunu dərk etdikdən sonra belə qərara gəlir ki, əslində, o, heç nə bilmir. Onun bu cür etirafı təvazökarlığının son həddini göstərirdi.

Şəhərin küçələrində, bazarlarında dolanan Sokrat, insanları zəncirvari olaraq bir-birinə bağlı adi söhbətlərdən, həyatın ali mövzularına yönəldirdi. Suallarla danışaraq, nəhayət, onları bu dialoqda cavab verə bilməyəcəkləri məsələlərlə üz-üzə qoyurdu. Bununla belə o deyirdi: "Mənim sizdən fərqim budur ki, siz bilmirsiniz, bilmədiyinizi də bilmirsiniz, ancaq mən bilirəm ki, bilmirəm". O bu sözləri ilə insanlara, onların İmam Sadiqin (ə) yuxarıdakı kəlamda dediyi dördüncü növ insanlardan olduqlarını başa salmaq və onları birinci növdən (alimlər) ola bilməsələr də, heç olmasa, üçüncü növ (cahil) insanların sırasına yüksəltmək istəyirdi.

Dünyanı öz yaşadıqları tərzdə qəbul edən insanlar isə Sokratın bu sualına cavab verməkdən boyun qaçırırdılar. Çünki bu sual insanı həqiqəti axtarmağa məcbur edir, onu içində olduğu, ətinə, qanına qarışdığı ideologiyasını atmağa çağırır.

Bu minvalla Sokratın səs-sədası bütün Yunanıstanı bürüdü. İnsanlar ya onun ətrafına, ya da əleyhinə toplaşırdılar. Cəhalət libasını özlərinə həmişəlik geyim seçənlər, Sokratın bu hikmətindən tamamilə usanıb, onun zindana düşməsinə və məhkəməyə verilməsinə səbəb oldu. Sokratın Platon kimi dahi şagirdləri, imkanlı tərəfdarları ona: "Zindandan qaçmaq üçün nə lazımdırsa edək!", – deyə müraciət etdilər. Amma Sokrat yenilməz iradəsindən, qəti əqidəsindən dönməyərək zindanı seçdi. Nəhayət, onun məhkəməsi quruldu və ona

əqidəsindən dönmək təklif olundu. O isə cahil məhkəmənin verdiyi hökmü qəbul edərək: "Əgər ədalət tələb edirsə, ölməliyəm!" – cavabını verdi. Bu hökm "zəhərlə ölüm" oldu.

**Ədəbiyyat**

1. Məntiq, Rauf İmranoğlu (Əsas qaynaq)
2. Məntiqi-Müzəffər, Qum, Əl-hikmət, 1380
3. Biharül-ənvar, Məhəmmədbaqir ibn Məhəmmədtəqi Məclisi (Əllamə Məclisi), Beyrut, Vəfa müəssisəsi, 1403
4. Məntiqi-Müntəziri Müqəddəm, Qum, 1393

# Nəhcülbəlağədə əmanətdarlıq

**Meysam Javadnia**[1]

**Abstrakt**

Əmanətə xəyanət mənfi əxlaqi keyfiyyətlərdən və rəzilliklərdən biridir və bu, dini təlimlərdə şiddətli şəkildə məzəmmət olunmuşdur. Şübhəsiz, bir qrupun və cəmiyyətin fərdləri arasındakı qarşılıqlı etimad bir yerdə yaşamağın ən mühüm əsaslarındandır. Quranda və məsumların (ə) hədislərində əmanətin dəyəri və əhəmiyyəti, ona riayət olunmasına göstərişlər hamıya aşkardır. Burada əmanət geniş mənadadır. Hətta İslam nəzərindən müdiriyyət vəzifəsi müdirə tapşırılan əmanətdir və o, ixtiyarında əmanət olan bu məqamı ciddi şəkildə nəzarətdə saxlamalıdır və müdiriyyətə, məsuliyyətə onun qayda-qanunlarına uyğun olaraq əmanətdar olmalıdır.

**Açar kəlmələr:** Nəhcülbəlağə, əxlaq, əmanət, xəyanət

[1] -İslam araşdırmaları fakültəsinin müəllimi, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, İran, Qum

## Giriş

"Əmanət" lüğətdə "əmn" kökündən alınmış və aramlıq, asayiş mənasınadır. Termin olaraq isə bir şeyin başqasına tapşırılmasına və onu qoruyacağına etimad edilməsinə deyilir. Buna görə əmanətin bir neçə sütunu var: Əmanət verən, əmanət alan, əmanət verilən şey və əmanətdarlığın şərtləri.[1]

Əmanət həzrət Əlinin (ə) kəlamında müxtəlif təbirlərlə gəlib və bütün bu təbirlər vahid cəhətə malikdir. Bu təbirlər aşağıdakı şəkillərdə bəyan olunmuşdur:

- Əmanətdarlıq – əmanəti qəbul edən bir adam üçün fəzilətdir.
- Əmanətdarlıq – ona riayət edən şəxs üçün düzgünlük və səadətdir.
- Əmanətdarlıq – qoruyub saxlamaqdır (yəni, camaatın malını və sirrini qorumaq).
- Gözəl əmanətdarlıq – insanın etiqadlarının başında gəlir.

## Həzrət Əlinin (ə) nəzərində əmanətdarlıq

İmam Əli (ə) təqvalıların xüsusiyytlərindən birinin əmanətdar olmaları və Allahın onlara əmr etdiyi şeyləri qoruyub saxlamaları hesab edir və buyurur: "Təqvalı şəxs ona tapşırılan əmanəti zay etməz."[2]

Bu şeylərdən biri 5 namazdır.

Allah-taala buyurur: "(Vacib) namazlara, (xüsusilə) orta namaza (günortadan sonrakı əsr namazına) riayət (əməl) edin."[3]

"Axirətə iman gətirənlər ona da iman gətirər, namazlarını da qoruyub saxlayarlar (vaxtı-vaxtında qılarlar)."[4]

Namazı qorumaq (hifz etmək) Qurana və "Məad"a (ölümdən sonrakı həyata) inanan möminlərin xüsusiyyətlərindən hesab olunur.

Burada qorumaqda məqsəd namazın vaxtlarını, həddlərini, qaydalarına və şərtlərinə riayət etmək, onu davamlı olaraq yerinə yetirməkdir və qorumağın əksi isə namazda və onun xüsusiyyətlərində süstlük, tənbəllikdir.

Həmçinin, qoruyub saxlanılması bizə vacib olan şeylərin ən böyüklərindən biri Allahın "Kitab"ı və həzrət Peyğəmbərin (s) "Əhli-Beyt"idir. Yəni, Səqəleyn hədisində gələn həmin iki qiymətli gövhərdir.

---

[1] "*İmam Əli (ə) nəzərindən hakimiyyət və müdiriyyətə baxış*", Əlirza İraqi, s. 22.
[2] "*Nəhcül-Bəlağə*", 193-cü xütbə.
[3] Bəqərə-238.
[4] Ənam-92.

Bu ikisini qorumaq onların əmrlərinə, göstərişlərinə diqqəti yanaşmaq, əməl etmək və onlara məhəbbət bəsləməkdir.

Həzrət Əli (ə) Nəhcül-Bəlağədə buyurur: "Allaha ibadət və bəndəlikdə səbir etməklə, Onun kitabını və bu kitabda sizdən tələb etdiyini hifz etməklə Allahın nemətini özünüzə tamamlayın (əgər itaət və hifz etsəniz, Allah-taala Öz nemətini sizə tamamlayacaq)."[1]

Həmçinin, İmam Əli (ə) əmanət haqqında qısa bir cümlədə əmanətdarlığın imanın yanında olduğunu deyir və buyurur: "Əmanətdar olmayanın imanı yoxdur."[2]

O həzrət (ə) başqa bir kəlamında buyurur: "Əmanətdar öz dindarlığını kamilləşdirmiş olar."[3]

İmamın (ə) əmanətdarlığa və ona düzgün riayət olunmasına bu cür baxışına əsasən, bu əxlaqi fəzilətə əməl etməyin insanın yüksəlməsində nə qədər mühüm və həyati əhəmiyyət daşıdığı aydındır.

## Əmanətə xəyanət

Əmanətə xəyanət (mənfi) əxlaqi (keyfiyyətlərdən) rəzilliklərdən biridir və bu, dini təlimlərdə şiddətli şəkildə məzəmmət olunmuşdur. İmam Əli (ə) bu zəmində buyurur: "Kim əmanəti yüngül saysa, heyvanlar kimi xəyanət vadisində otlasa, özünü, öz dinini ondan pak saxlamasa, dünyada özünü zəlil, alçaq və rüsvay edər, axirətdə də daha zəlil, daha da rüsvay olacaq. Həqiqətən də ən böyük xəyanət camaata xəyanətdir və ən pis hiyləgərlik (aldatma) hakimlərin, rəhbərlərin hiyləgərliyidir."[4]

Həzrət Əli (ə) öz nümayəndələrindən birinə yazdığı bu məktubda əmanətin dairəsini genişləndirmiş və əmanətə xəyanətin nəticəsini bəyan etdikdən sonra, rəhbərlərin ən böyük əmanətinin İslam ümməti olduğunu demişdir. "Xəyanətin ən pis növü əmanətə xəyanətdir."[5]

---

[1] "*Nəhcül-Bəlağə*", 173-cü xütbə.
[2] "*Ğurərul-Hikəm*", əmanət bölməsi.
[3] Həmin yerdə.
[4] Həmin yerdə, 26-cı məktub.
[5] Həmin yerdə, 6-cı hikmət.

**Dastan – "İki kişinin əmanəti"**

İki kişi bir qadına 100 dinar əmanət tapşıraraq ona belə dedilər: "Nə vaxt ikimiz bir yerdə gəlsək, əmanəti onda qaytar və bizdən birimiz tək gəlsə, əmanəti ona verməyə haqqın yoxdur".

Bu macəradan bir müddət keçdi. Onlardan biri əmanəti almaq üçün qadının yanına gələrək dedi: "Dostum vəfat edib, 100 dinarı qaytar". Qadın əmanəti vermək istəmədi. O kişi qadının qəbiləsinin yanına gedərək məsələni onlara danışdı. Qadın qəbiləsinin tövsiyələri sayəsində əmanəti ona qaytardı.

Bir ildən sonra o biri dost gəldi və dedi: "Sənə tapşırdığımız 100 dinarı qaytar".

Qadın: "Bir müddət öncə dostun gəldi və dedi ki, sən ölmüsən, mən də çarəsiz qalıb əmanəti ona verdim".

O kişi əmanəti almaqda israr etdi və iş münaqişəyə yetişdi. Hər ikisi hakimin yanına gələrək hadisəni danışdılar.

Hakim qadına dedi: "Sən əmanətə zaminsən və gərək pulu bu kişiyə qaytarasan".

Qadın: "Sən bizim aramızda qəzavət etmə, bizi İmam Əlinin (ə) yanına göndər, qoy o bizim aramızda hökm kəssin". Hakim qəbul elədi.

Onlar İmam Əlinin (ə) yanına gəldilər. İmam (ə) bildi ki, o iki kişi bir-biri ilə sözləşərək hiylə işlədiblər. Buna görə də İmam (ə) o kişiyə dedi: "Məgər əmanəti tapşıran zaman şərt qoymamışdız ki, onu geri alanda hər ikiniz orada olmalısınız və sizin ikinizdən biri gəlməsə, pul geri qaytarılmasın?". O dedi: "Bəli".

İmam (ə) buyurdu: "Pulun bizim yanımızdadır. Əgər istəyirsənsə, get dostunu gətir, qaytaraq". O hiyləgər kişi xəcalətlə qayıtdı.[1]

[1]"*Zəxairul-Uqba*", s. 79.

**Əmanət və idarəçilik**

İslam nəzərindən müdiriyyət vəzifəsi müdirə tapşırılan əmanətdir və o, ixtiyarında əmanət olan bu məqamı ciddi şəkildə nəzarətdə saxlamalıdır və müdiriyyətə, məsuliyyətə onun qayda-qanunlarına uyğun olaraq əmanətdar olmalıdır. Allah-taala Quranda buyurur: "...Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı əmr edir."[1]

Hər çənd əmanət bu ayədə sözün ümumi mənasında əmanətin bütün növlərinə şamil olur, amma İmam Sadiqdən (ə) gəlmiş rəvayətdə tam və kamil müdiriyyət olan "imamət" əmanət kimi təfsir olunmuşdur: "Allah öncəki imama əmr edib ki, əmanət və İslam cəmiyyətinin müdiriyyətçiliyi olan imaməti özündən sonrakı imama tapşırsın."[2]

İdarəçilik və müdiriyyət imamətin mərtəbələrindən olan xüsusi əmanətlərdəndir. Müdirlər və rəhbərlər hər şeydən əvvəl bu prinsipə inanmalı və öz baxışlarını bu bünövrə əsasında qurmalıdırlar.

İmam Əli (ə) bir məktubda Azərbaydandakı nümayəndəsinə belə yazmışdır: "İdarəçilik və hakimiyyət sənin üçün qida deyil, əksinə, sənin boynunda bir məsuliyyət və əmanətdir. Səndən üstün olan (İmam (ə) özünü deyir) istəyir ki, onu qoruyasan və camaatın işlərində öz istəyinə və meylinə uyğun hərəkət etməyəsən, yaxud böyük işlərə qayda-qanunsuz, meyarsız əl atmayasan. Sənin ixtiyarında olan mal Allaha məxsusdur və sən onu mənə qaytarmaq üçün bir xəzinədarsan. Ümid edirəm ki, sənin üçün pis rəhbər olmaram."3

Nəhcül-Bəlağədə camaatın həqiqi hüquqları, onların dövlət qarşısında layiqli yeri, məqamı və hökmranlığın həqiqi məqamının əmanətdarlı, xalqın hüquqlarının qorunması olduğu unudulmamışdır. Əksinə, ona ciddi şəkildə diqqət olunmuşdur.

Əmanət həzrət Əlinin (ə) nəzərində maddi nəzərlə baxılan əmanətlərdən fərqlidir. Maddi baxışda müdiriyyət ictimai bir əmanət kimi qarşılana bilər, amma bu əmanətin İlahi baxışda üç guşəsi var: Allahın əmanəti, camaatın əmanəti, rəhbərlərin əmanəti. Nəhcül-Bəlağədə həzrət Əlinin (ə) sözlərində hər üç əmanətə işarə olunmuşdur. Əlbəttə, bu əmanətlər şaquli və rütbələnmiş əmanətlərdir. Onun kökü – İlahi əmanət, bunun ardınca da ictimai əmanət, daha sonra isə müdirlərin əmanəti məsuliyyət mərtəbələri silsiləsindədir.

---

[1] Nisa-58.
[2] "*Əl-Mizan*", c. 4, s. 410.
[3] "*Nəhcül-Bəlağə*", 5-ci məktub.

İmam (ə) bir məktubda Azərbaycandakı nümayəndəsinə yazır: "Nəbadə güman edəsən ki, sənə tapşırılan hakimiyyət əlinə düşmüş bir ovdur. Xeyr! Bu, sənin bynuna qoyulmuş bir əmanətdir. Səndən üstün olan səndən camaatın hüququnu qorumağı və ona riayət etməni istəyir. Nəbadə camaat arasında zülmlə, yaxud istədiyin kimi rəftar edəsən."[1]

O həzrət (ə) vergiləri yığan məmurlar üçün yazılmış bir göstərişdə bir neçə cümlə nəsihətdən və xəbərdarlıqdan sonra buyurur: "Ədalətə və insafa riayət edin. Xalqın sizə yaxınlaşmağına imkan yaradın, səbirli olun. Onların istəklərini yerinə yetirməkdə hövsələsizlik etməyin. Çünki siz camaatın xəzinədarısınız, xalqın nümayəndəsi, hökumətin səfirisiniz."[2]

Malik Əştərə yazdığı məşhur göstərişində buyurur: "Xalqla mehribanlığı qəlbinin libası et. Hamı ilə dost və mehriban ol. Nəbadə vəhşiliyi və yeməyi fürsət görən bir yırtıcı kimi rəftar edəsən. Çünki camaat sənin kimi müsəlmandır, ya sənin dini qardaşın, ya da ki, qeyri-müsəlman və sənin kimi bir insandırlar."[3]

Nəhcül-Bəlağə məntiqində imam və rəhbər camaatın hüquqlarını qoruyan və onların qarşısında məsuldur. Əgər rəhbər və camaatın ikisindən hər hansı biri o birinin ixtiyarında durmalıdırsa, yaxud qulluq etməlidirsə, camaat rəhbərin yox, əksinə, rəhbər camaatın ixtiyarında olmalıdır, ona qulluq etməlidir.

Əmanətdarlığın başqa bir nümunəsi də müdirin, məsul işçinin əmanətdar olmasıdır. Təbiidir ki, dövlət nümayəndəsinin ixtiyarında mal, namus, heysiyyət, şərəf, abır və camaatın, xalqın həyati məsələləri qoyulmuşdur ki, bu nümayəndə həmin əmanətləri qoruyub saxlasın. Əmanətdarlıq nəinki yalnız maliyyə və iqtisadi məsələlərdədir. Əksinə, nümayəndə yuxarıda sayılanların hamısında, hətta dövlət tərəfindən onun öhdəsinə qoyulmuş çox böyük bir əmanət olan vəzifə və məqamda da məsuliyyətli olmalıdır.

İmam Əli (ə) buyurur ki, əmanətdarlıqda əmin və bu xüsusiyyətdə başqalarından öndə olan, məşhur olan adamı seçim zamanı başqalarından üstün tutun.

Diqqətə layiq olan nöqtələrdən biri budur ki, müdiriyyət və hakimliyə bir əmanət kimi baxılması həm onun geniş təsirə malik olması, həm də onunla bağlı psixoloji məsələlər cəhətindən xüsusi əhəmiyyətə

---

[1] Həmin yerdə, 5-ci məktub.
[2] Həmin yerdə, 51-ci məktub.
[3] Həmin yerdə, 53-cü məktub.

malikdir. Çünki vəzifə sevgisi üsyankar istəklərdən, şeytanın tələlərindən və yolkəsən vəsvəsələrdəndir. Digər tərəfdən də qüdrət zərərlər və bir çox fərdi-ictimai ziyanlar yaranmasına zəmin yarada bilər. Həzrət Əli (ə) bu barədə Məalik Əştərə xitabında buyurur: "Demə ki, mən məmuram buna görə də, əmr edirəmsə itaət olunmalıdır. Çünki bu əməl qəlbə fəsadın daxil olmasına, dinin zay olmasına və qüdrətdə dəyişikliyin baş verməsinə səbəb olar."[1]

Bu minvalla, həzrət Əlinin (ə) nəzərində müdirlərin məsuliyyətə baxışlarındakı birinci prinsip budur ki, müdir gərək qəbul etdiyi məsuliyyətə bir əmanət kimi yanaşsın. Hansı ki, bu əmanət mərtəbələr silsiləsində Allahdan Onun vəlisinə, Onun vəlisindən də müdirə tapşırılmışdır və onun bütün səyi bu əmanətə riayət etmək olmalıdır.

[1] Həmin yerdə.

## Nəticə

İmam Əli (ə) əmanətdarlığı imanın yanında qərar verir və buyurur: “Əmanətdar olmayanın imanı da yoxdur.”

Həzrət Əli (ə) təqvalıların xüsusiyyətlərindən birinin əmanətdarlıq və Allahın əmr etdiklərini qoruyub saxlamaq, riayət etmək olduğunu deyir və buyurur: “Təqvalı şəxs ona tapşırılan şeyi zay etməz.”

İmam (ə) öz sözlərindən birində buyurur: “Kim əmanəti yüngül saysa, özünü xəyanət vadisinə atsa özünü və dinini ondan paklamazsa, özünü dünyada zəlil, alçaq və rüsvay edər. Qiyamət günü isə daha zəlil, daha da rüsvay olacaq. Həqiqətən də ən böyük xəyanət, xalqa xəyanət, ən pis hiyləgərlik hakimlərin hiyləgərliyidir.”

Müdiriyyət və rəhbərlik vilayət və imamətin mərtəbələrindən olan xüsusi əmanətlərdəndir. Müdirlər və rəhbərlər hər şeydən öncə bu prinsipə etiqad etməli və öz baxışlarını bu prinsipə əsasən qurmalıdırlar.

İdarəçilik və rəhbərliyə əmanət kimi baxmaq həm geniş təsirə malik olmasına əsasən, həm də onunla bağlı psixoloji məsələlər cəhətindən xüsusi əhəmiyyətə malikdir. Çünki vəzifə sevgisi üsyankar istəklərdən, şeytanın tələlərindən və yolazdırıcı vəsvəsələrdəndir. Digər tərəfdən də qüdrət zərərlər və bir çox fərdi-ictimai ziyanlar yaranmasına zəmin yarada bilər.

## Ədəbiyyat

[1] - Qurani-Kərim
2- Nəhcül-bəlağə
3- Məhəmməd Bair, Məclisi, Biharül-ənvar, 1388 q.
4- Məhəmməd ibn Həsən, Hürr Amoli Vəsailüş-şiə, Beyrut, 1995
[5]- Müstədrəküs-Səhiheyn, Məhəmməd ibn Abdullah, Hakim Nişapuri
[6]- Mühəddis Qummi Kəhlül-bəsər,
7- [8]- Cəlaləddin Süyuti Kənzül-ümmal, 1388 ş.
[8]- Feyz Kaşani Məhəccətül-beyza,
9- Əbu Cəfər, Kuleyni, Qum, Üsuli-kafi, 1392
10-Süleyman İbn Əhməd, Təbrani əl-Möcəmul-kəbir

# Həqiqi irfanın xüsusiyyyətləri

**Azər Quliyev**[1]

**Abstrakt**

Bu məqalə yazıçı və araşdırmaçı Dr. Əhmədhüseyn Şərifinin "Həqiqi irfanlar və yalan irfanlar" kitabından alıntıdır. Şübhəsiz, həqiqi irfanın son hədəf və məqsədi "Allaha Yaxın Olmaq (Qürb Məqamı)", yaxud insanın ruhaniləşməsidir. Həqiqi irfan bir tərəfdən özünü vasitə və orta hədəflərə əsir etmir. Necə ki, bu vasitələr bir çox müasir mənəviyyatların son hədəfidir. Əksinə, həqiqi irfan əbədi səadətin yalnız Allaha yaxın olmaqla və Allaha həqiqi iman gətirməklə mümkün ola biləcəyini deyir. Deməli, həqiqi irfanı tanımaq üçün gərək onun meyarlarını və xüsusiyyətlərini tanıyaq. Bunun üçün bir çox xüsusiyyətlər saymaq olar. Bu məqalədə çalışacağıq ki, onların ən mühümlərinə işarə edək.

**Açar sözlər:** irfan, ağıl, fitrət, şəriət, həqiqi

[1] - İslam araşdırmaları fakültəsinin müəllimi, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, İran, Qum

## Giriş

İlk öncə qeyd etməliyik ki, bir insanın çata biləcəyi son məqam Allaha yaxınlıqdır. Yəni, sonsuzluğa yaxınlaşmaq, (nəinki onda fani olmaq) yaxud sonsuzluğa çatmaq. Allah-taala hər bir cəhətdən sonsuz və qeyri-məhduddur. O, mütləq-kamala (kamilliyə), mütləq-qüdrətə, mütləq-elmə və s. malikdir. Ola bilər ki, hər bir şəxs İlahi lütf və feyzin vasitəsilə qabiliyyəti, istedadı, səyi həddində Allaha yaxınlıq məqamına müəyyən həddə mailk olsun. Amma təbii ki, heç vaxt Ona çata bilməz. Buna görə də "Həqqdə Fəna", "Həqqə Qovuşmaq" kimi təbirləri irfanın hədəfi üçün düzgün təbir hesab etmək olar. Bəlkə də demək olar ki, belə təbirlər bilmədən və düşünmədən bəzi sufilərin vasitəsilə Hind irfanından götürülmüş və bununla da İslam irfan terminologiyasında və ariflərin kəlamlarında da yayılmışdır.

İslam irfanında, arif elə bir mərtəbəyə çatır ki, Allah olur və Həqqdə fani olur demək olmaz. "Qürbi-Nəvafil" hədisinə əsasən elə bir mərtəbə təsəvvür etmək olar ki, salik öz səyi və İlahiköməyin nəticəsində özünün batini və xarici əməlləri ilə hər hansı bir işdə Allahın razılığını qazanacaq bir mərtəbəyə çata bilər. Amma bu mərtəbələr heç vaxt salikin Allahda fani olması, yaxud onun Allahlıq mərtəbəsinə çatması mənasında deyil. Bunlar həqiqətdə salikin həqiqi übudiyyət (bəndəlik) mərtəbəsinə çatması mənasındadır. O, özünün heç bir iradə və qüdrəti olmayan bəndə kimidir və bütün daxili və xarici qüvvələri Allahın ixtiyarındadır.

Əlbəttə, "Allahda fani olmaq", "Allaha çatmaq" kimi sözlərin bəzi mənalarını, iazhlarını qəbul etmək olar. Amma bu təbirlərin, bir tərəfdən qərarsızlığına, dəqiq fəlsəfi izahlara ehtiyaclı olmasına, digər tərəfdən də onların İslam ədəbiyyatı ilə, terminləri ilə yad olmasına əsasən biz belə təbirlərin İslam irfanının son hədəfi adı ilə istifadə olunmamasına üstünlük veririk və İslam irfanının hədəfinin təyin olunması üçün aydın, Qurani və islami təbir olan "İlahi Qürb" (Allaha Yaxın Olmaq) təbirindən istifadə etməyi məsləhət bilirik.

## Həqiqi irfanın şərtləri

- **1. AĞIL İLƏ ZİDD OLMAMAQ**

Həqiqi irfanın əsas xüsusiyyətlərindən biri, onun ağıl üzərində qurulması, ağıla əsaslanmasıdır. Həqiqi irfan ağılın fövqündəki bir fəza haqqında danışsa da, amma heç vaxt ağılın ziddinə olan bir şeyə söykənmir və onun ziddinə olan bir nəticəyə yetişmir. Başqa sözlə: həqiqi irfan irrasional (ağıla aid olmayan, ağıl ilə isbat oluna bilməyən, ağılın imkanlarındna xaric olan, isbatolunmaz) fenomenlərə özündə yer verə bilər, amma heç vaxt anti-ağıl və ağılın ziddinə olan şeylərə etina etmir və əsaslanmır. Buna görə də İslam irfanı həmişə ağıla diqqət etməyə və düşünməyə dəvətə təkid etmişdir. Heç vaxt həqiqi ariflərin və din övliyalarının sözlərində ağıla və təfəkkürə, düşünməyə etinasızlıq, yaxud onu görməməzliyə vurmaq görünməmişdir. Amma insanın yaratdığı saxta və yalan irfanlar özünü ağılla zidd görür, buna görə də həmişə ağılın, təfəkkürün əleyhinə danışır, öz ardıcıllarını ağıl və məntiqə göz yummaqla dəvət edirlər.

Kimsə deyə bilər ki, İslam irfanın bir çox böyük şəxsiyyətləri tərəfindən "ağıl", "məntiq", "əqli-nəticə", "təfəkkür" məzəmmət olunmuşdur. Böyük müsəlman ariflərindən bəzilərinin təbirlərində ağılın, əqli-nəticənin, təfəkkürün əleyhinə qarşı kobudluq o həddədir ki, sanki onlar elm, bilik, qneseoloji sahələrin hər birində hər növ təfəkkür və düşüncə ilə müxalifdirlər. Görəsən bu müxalifətçiliyin səbəbi nədir?

Biz bu haqda başqa yerlərdə danışmış, ağıl ilə irfanın rabitəsi və müsəlman ariflərin nəzərində ağılın, düşüncənin mövqeyini geniş şəkildə araşdırmışıq.[1] Buna görə də, burada bu haqda bir neçə qısa nöqtə ilə kifayətlənirik:

Birinci nöqtə budur ki, həqiqətdə müsəlman ariflərin ağılı təhqir etməkdən məqsədi onun qəlb mərtəbəsindən daha aşağı mərtəbədə olduğunu göstərmək və qəlb mərtəbəsindən daha aşağı mərtəbədə otuzdurmaqdır. Ariflər işraqi (feyz olunan) və intiutuv (şühudi) idrakların arxasıncadırlar və bu növ maariflər ağıl və dəlilgətirmə, əqli-nəticə ilə hasil olmur. Bu növ idrak – dadmaq, görmək kimidir, belə idrak bürhanla (sübutla) əldə olunmur. Buna əsasən ariflərin nəzərinə görə ağıl və qəlb arasındakı müqayisə qəlb üstündür. Bu sözün mənası əsla ağıl, dəlil və

---

[1] "*Ağıl Və Vəhy*", Həsən Şərifi.

bürhan yolunun dəyərsiz olması demək deyil. Əksinə, mənası budur ki, qəlb və eşq yolu ağıl və dəlil yolundan ucadır.

İkinci nöqtə budur ki, müsəlman ariflərin məzəmmət etdiyi ağıl "cüzi" (fərdi) ağıldır, hesab-kitab edən dünyəvi ağıldır. Bu ağılın bütün himməti və nigarançılığı ötəri maddi və dünyəvi mənfəətləri qazanmaqdır. Müsəlman ariflər nəinki eşq və şühudu (intiutiv idrak) inkar etməyən "kulli" (ümumi) ağılla müxalif deyillər, hətta onu tərifləyirlər də.

Üçüncü nöqtə: şiənin İbn Türkə kimi bəzi məşhur arifləri izah etmişlər ki, bir sıra irfani "mükaşifə"lərin (irfani intiutiv idrak, şühud) ağıl mərtəbəsindən yuxarıda olması onların həmişə anti-ağıl, ağılla zidd, yaxud irrasional olması mənasında deyil. Əksinə, məqsəd odur ki, ağıl tək-tənha o məqama ucala bilməz. Amma insan "kəşf" və "ilham"ın köməyilə həmin idraka yol tapanda, bu zaman onun ağılı da onları dərk edə bilər.

"Bəzi fenomenlər vardır ki, ağıl zatən tənha olaraq onları dərk edə bilmir... Əksinə, onlara özündən daha üstün, daha şərafətli başqa bir qüvvənin köməyilə çata və dərk edə bilər... Buna görə də ariflərin dediyi – Həqiqi mükaşifələrin və kamalların mərtəbəsi ağılın fovqündədir – sözünün mənası "Ağıl belə şeyləri heç vaxt dərk edə bilməz" demək deyil."[1]

Molla Sədra ağıl və irfanın rabitəsi haqqında Qəzzalidən belə nəql edir: "Vilayət və irfan dairəsində irrasional fenomenlərin varlığı mümkündür. Elə bir fenomenlər ki, ağılın vasitələrilə dərk olunan deyillər. Anti-ağıl və irrasional məsələlər arasında fərq qoymayan şəxs ilə danışmağın dəyəri yoxdur, o öz cəhalətində tərk olunmalıdır."[2]

Eynül-Qüzzat Həmədanidən də belə nəql edir: "Ağıl düzgün bir tərəzidir, onun hökmləri də həmçinin doğru, yəqini, qətidir və onlarda heç bir yalan yoxdur. Ağıl elə bir ədalətli varlıqdır ki, onun zülm edəcəyini ehtimal vermək olmaz."[3]

Burada yaxşı olardı ki, intiutiv (şühudi) və əqli (ağılla dərk) idrakın fərqlərinə işarə edək:

1. Əqli dərk – eşitmək və uzaqdan vasitə ilə rabitə saxlamağa oxşayır. Çünki əqli dərk sırf olaraq təsəvvürlər və zehni məfhumlar çərçivəsindədir. Amma intiutiv idrak – dadmaq, görmək, "məlum"la (dərk olunan şey) birbaşa və vasitəsiz əlaqə yaratmaqdır. Başqa sözlə, intiutiv

---

[1] "*Təmhidul-Qəvaid*": Sainəddin Əli ibn Türkə.
[2] "*Əl-Əsfar*": Molla Sədra, c.2.
[3] Həmin yerdə, c.2.

və vasitəsiz (hüzuri) idrakın obyekti eyni ilə məlumun varlığıdır. Amma əqli və vasitəli (hüsuli) idrakın obyekti isə "məlum"un məfhumu və təsəvvürüdür.

2. Əqli idrakın nəticəsi ağılın dərk etdiyi məlum və həqiqət qarşısında təslimiyyəti və razılığıdır. Amma dərk olunan məlum və həqiqətə iman və boyun əymək həddinə yüksəlməyə də bilər. İntiutiv idrak öz ardınca heç bir şey vasitəsilə aradan getməyən boyun əymə, həyəcan və daxili eşqi gətirir. Bu zaman insan varlığı başdan-ayağa məlum ilə rabitədə olur. Şəhid Mütəhhərinin sözü ilə desək: "Bu növ idrak insan varlığını işıqlandırır, ona qüvvə və cürət verir, təvazö, riqqət, lətafət bəxş edir və onun varlığının bünövrəsini tamamilə dəyişir."[1]

3. Əqli bilik hamıya aiddir (ümumidir) və onu başqasına da ötürmək olar. Amma intiutiv idrak isə şəxsidir və başqalarına nəql etmək olmur. Bu yol şəxsin özünün bilik əldə etməyi üçün ən kamil və ən gözəl yoldur. Amma diqqət etmək lazımdır ki, qəlb yolu tamamilə şəxsi bir yoldur. Əsas etibarilə vasitəsiz (hüzuri), intiutiv (şühudi) və batini idrakın xüsusiyyətlərindən biri onların şəxsi olması və nəticədə də başqalarına ötürülməsinin mümkün olmamasıdır. Bir arif isə yalnızca başqaları üçün öz təcrübəsinin zəminəsini hazırlaya bilər.

4. Əqli idrakda səhv mümkündür. Çünki o, vasitəli idrakdır və buna görə də onun səhv etmə ehtimalı var.  Amma intiutiv idrak səhv qəbuletməz bir idrakdır.

5. İntiutiv idrak əməl və nəfsi kamilləşdirmə ilə elə bir şəkildə bağlıdır ki, belə demək olar: "O, əməldir, nəinki elm".[2] Hansı ki, əqli idrakda özünüdüzəltməyə, nəfsi kamilləşdirməyə və bunun kimi şeylərə ehtiyac yoxdur. Amma özünüdüzəltmə, nəfsi kamilləşdirmə və təqva ilə daha gözəl dərkə, daha düzgün, daha dəqiq biliyə zəmin yaratmaq olar: "Əgər təqvalı olsanız, Allah sizə haqqı batildən ayıran bir qüvvə verər"[3].

- **2. ŞƏRİƏTLƏ UYĞUNLUQ**

İlahi vəhyin intiutiv idrak sahəsində bəşəriyyətə ən böyük xidmətlərindən biri irfani, kəşflərin, şühudların düzgün olmasını araşdırmaq üçün göndərdiyi meyardır: vasitəsiz (hüzuri) və intiutiv idrak məsum və xətaqəbuletməz olsa da, amma bu xüsusiyyət, yalnız şühud zamanına aiddir. Dərk olunan "obyekt"lə, yaxud "məlum"la rabitə

---

[1] "*Əsərlər Məcmuəsi*": M. Mütəhhəri, c.6.
[2] Həmin yerdə.
[3] Ənfal-29.

kəsildikdən sonra və şühud edən şəxs öz irfani müşahidəsi, kəşfi haqqında məlumat vermək istəyərkən, onları izah edərkən, açıqlayarkən səhv etmə ehtimalı var. Burada şəxsin obyektiv aləmə baxışı, mədəniyyəti, onu əhatə edən mühit, inancları, düşüncələri və bunun kimi onlarla başqa-başqa şeylər əl-ələ verib onun müşahidələrini izah etməyinə təsir göstərirlər.

Buna görə də vasitəsiz və intiutiv (şühudi) bilik hüzur mərtəbəsində, şühud anında səhv etmir, amma təfsir və izah məqamında onun səhv etmə ehtimalı var və tarixi şahidlər də bunu göstərir. Misal olaraq: Məsihi bir arif müşahidə etdiyi Allahı "Təslis (Üçlük)" kimi təqdim edir, Buddist bir arif (ən azı Buddizmin bəzi firqələrində) ümumiyyətlə hər hansı bir Allahı müşahidə etmir, Hind arifi isə müşahidə etdiyi Allahı Hindu Allahları kimi təsvir edir. Hətta bəzən görürük ki, bir dinin daxilində müxtəlif məzhəblərin ardıcılları öz müşahidələrini təsvir edərkən əksər hallarda bütün yaxşılıqları öz məzhəblərinin fərdlərinə və bütün pis şeyləri isə rəqib məzhəblərin ardıcıllarına aid edirlər. Bir halda ki, hər bir şəxs həqiqətin vahid olduğunu bilir. Buna görə də görürük ki, ariflərin özü adətən mükaşifələri iki dəstəyə bölür: rəhmani və şeytani. Amma əsas məsələ budur ki, rəhmani mükaşifələrin ayırd edilmə və onları şeytani mükaşifələrdən ayırma yolu nədir?

- **3. İNSANİ FİTRƏTLƏ HƏMAHƏNG OLMASI**

Həqiqi irfanın xüsusiyyətlərindən başqa biri də budur ki, o, insan fitrəti və onun fitri meylləri ilə tamamilə həmahəng və uyğun olmalıdır. Əsas etibarilə həqiqi irfan insani fitrətlə uyğun olmaya bilməz. Bu uyğunluğun zəruriliyinin isbatı üçün iki dəlil göstərmək olar:

Birincisi: İnsanın bütün daxili meylləri onun kamilliyi ilə, kamalı ilə əlaqəlidir. Bu mənada ki, onlar insanın həqiqi kamala tərəf hərəkətində münasib bir yol göstərən ola bilərlər. Əgər bir meylin varlığının insani kamalın gerçəkləşməsi ilə heç bir əlaqəsi yoxdursa, yaxud onun kamalının ziddinə olarsa, bu, məqsədə uyğun deyil və "öz-özünü inkar" (ləğv) edir (ziddiyyətdir), hədəfə ziddir. Bunun hər ikisi də yanlışdır. Əvvəla, İlahi yaradılışda öz-özünü inkar (ləğv) mümkün deyil, ikincisi isə məqsədə uyğunsuzluq, hədəflə ziddiyyətlilik böyük Allaha layiq və uyğun deyil. Allah insanı ibadət və son kamala qovuşmaq üçün yaradıb. Belə olan halda, əgər onun varlığında bu hədəflə heç bir əlaqəsi olmayan meyllər və instinktlər yaratdığını fərz etsək, onda bu, yaradılışda inkara (ləğvə) gətirib çıxaracaq. Yaxud da, əgər insan daxilində bu hədəfin ziddinə olan

meyllər yaradıldığı fərz olunsa, yəni nəinki yalnız insanın həmin hədəfə çatmasına heç bir xidmət etmir, əksinə, onu hədəfindən uzaqlaşdırır, onda bu, hədəflə ziddiyyətə gətirib çıxaracaq. Bunun hər ikisi Allaha yaraşmaz və Onun uca məqaməndan uzaqdır.

İkincisi: İşarə olunduğu kimi, ifrani meyl fitri bir meyldir. İnsanlar fitri olaraq mütləq qüdrətə, mütləq elmə, mütləq kamala meyllidir. Əgər belədirsə, onda ona qovuşmaq yolu da fitri və fitrtələ uyğun olmalıdır. Fitrətə zidd olan yolları vasitə seçməklə insanların fitrətində qoyulmuş irfanın özünün son hədəfinə yetişməyə ümid etmək olmaz.

- **4. İNSAN HƏYATININ BÜTÜN İSTİQAMƏTLƏRİNƏ DİQQƏT**

İnsanı digər heyvanlardan ayıran ən mühüm parametrlərdən biri onun bir neçə cəhətli olmasıdır. İnsanı fərdi həyatla məhdudlaşdırmaq olmaz. Onun ictimai yönü də var. İnsanın ictimai yönü o qədər mühümdür ki, bir çox alimlər onun "təbiətən cəmiyyət halında yaşamaq"ı xüsusiyyətini onu başqa heyvanlardan ayıran ən mühüm amil bilirlər. Yəni, insanın zatını təşkil edən "növ fərqi"ni onun zatən və təbiət etibarilə ictimai bir varlıq olmasında bilmişlər. Bu sözün mənası budur ki, əgər ictimai həyat olmasa, insan da olmayacaq və yaxud əgər bir şəxsin ictimai həyatı olmasa o, insan olmayacaq. Buna əlavə olaraq, insanın siyasi yönü də var. İnsan varlığının siyasi yönü o qədər əhəmiyyətlidir ki, Aristotel kimi alim, insana "Siyasi Heyvan (canlı)" olaraq tərif vermişdir. İnsan həyatının iqtisadi yönü də var. Buna əlavə olaraq, insan müxtəlif təbii meyllərə malikdir və onların hər birinin özünə məxsus tələbləri var. Bu təbii meyllərdən bəziləri maddi və dünyəvidir və insan varlığında mənasız yerə qoyulmamışdır. Kamil insan o şəxsdir ki, bütün instinktlərinin və daxili meyllərinin tələblərinə hədəfli və nizamlı şəkildə cavab versin. Heç birini fəaliyyətdən saxlamasın. Yaxud da müəyyən bir meyli, instinkti başqa bir meylə görə ümumiyyətlə kənara qoymasın.

Hər halda, həqiqi irfan o irfandır ki, insanın bütün bu vücudi yönlərini nəzərə alsın. Heç birini unutmasın, yaxud heç birini digərinə qurban verməsin. Buna və "Hər Bir Şeyi Öz Ziddinin Köməyi İlə Tanı" qaydasına əsasən belə demək olar: insanın ictimai, siyasi, iqtisadi və dövlət münasibətlərinə müsbət nəzəri olmasa, irfan həqiqətindən və həqiqi irfandan elə həmin ölçüdə də uzaq olar. Yaxud da insanın maddi yönünə və dünyəvi meyllərinə, instinktlərinə olan nəzəri müsbət və hədəfli şəkildə

olmasa və insanın bu vücudi cəhətini ümumiyyətlə görməməzliyə vursa, elə həmin həddə də həqiqi irfandan fasiləsi olar.

İrfanın hədəflərindən biri insanı "kamil insan" məqamına çatdırmaqdır. Kamil insan, yəni "Bütün İlahi ad və sifətlərin məzhəriyyəti (təcəssümü) olmaq". İnsanın Allahın başqa məxluqları ilə fərqi budur ki, insan bütün İlahi adların, sifətlərin və fellərin məzhəridir (təcəssümüdür). Hansı ki, digər məxluqların hər biri Allahın ad, sifət və fellərindən bir, yaxud bir neçəsinin təcəssümüdür. Hətta mələklər belə bütün ad və sifətlərin təcəssümü deyil. Bəqərə surəsinin 30-cu ayəsindən alınan nəticəyə əsasən, mələklər yalnızca "Subbuh" və "Quddus" adlarının təcəssümüdür. Əlbəttə, bütün İlahi ad, sifət və fellər bütün insanlarda aktiv olaraq mövcud deyil. Amma insanda bütün bunların təcəssümü olmaq üçün istedad var. İrfan iddia edir ki, bu istedadları aktivləşdirmək yolunda insanın öz ixiyarı ilə hərəkət etməsi üçün bir yol göstərə bilər. Amma bir şəxs irfan adı və bu potensialları aktivləşdirmək məqsədi ilə insani qüvvələrdən birinin fəaliyyətini saxlamaq istəsə, bu zaman irfanın hədəfinə yetişə bilməz. Həqiqi irfan o irfandır ki, əgər düzgün tanınsa və ona kamil şəkildə əməl olunsa, insanın bütün vücudi yönlərini əhatə və onu son kamalına tərəf sövq edər.

- **5. DÜNYA VƏ AXİRƏT ARASINDAKI ƏLAQƏNİN DÜZGÜN TƏYİN OLUNMASI**

Həqiqi irfanın xüsusiyyətlərindən başqa birisi budur ki, o heç vaxt anti-dünya deyil. Bu mənada ki, dünyəvi həyata alçaq bir həyat kimi yanaşmır. Dünyanı axirətin müqəddiməsi, başlanğıcı və ona yetişmək üçün bir körpü hesab edir. Dünyadan mütləq şəkildə uzaqlaşmağa dəvəti və onun tələblərini görməməzliyə vurmağı yalançı irfanların xüsusiyyətlərindən olduğunu deyir. Din övliyaları da həmçinin bu düşüncə ilə ciddi mübarizə aparmışlar. Bu zəmində Süfyan Suri və onun dostları ilə İmam Sadiq (ə) arasında baş verən əhvalat məşhurdur. Bu dialoqda İmam (ə) din və dünyanın ayrı olması əqidəsi ilə ciddi şəkildə müxaliffətçilik edir və bu əqidənin fikri müdafiəçilərini ifşa edir.[1]

Dünya və axirətin möhkəm bağlılığını peyğəmbərlərin (ə) və imamların (ə) əməli sünnələrində müşahidə etmək olar. İstisnasız olaraq onların (ə) hamısı özlərinin və ailələrinin maddi ehtiyaclarını təmin etmək

---

[1] "*Furuu-Kafi*": Kuleyni, c.5, 1-ci hədis.

üçün işləyirdilər.[1] Onların (ə) yerinə iş görməyə hazır olan şəxslərin valığına baxmayaraq, onlardan (ə) heç biri özünü iş görməkdən ehtiyacsız görmürdü. Burada, bu zəmində yüzlərlə tarixi nümunədən ikisi ilə kifayətlənirik:

Məhəmməd ibn Mundəkir adlı bir şəxs deyir: "İsti bir gündə Mədinədən kənara çıxdım. Məhəmməd ibn Əlini (İmam Baqir (ə)) öz iki qaradərili qulamı ilə işlədiyini gördüm. Bu mənzərəyə, yəni bir şəxsin dünya üçün özünə bu qədər əziyyət verməsinə narahat oldum və öz-özümə dedim: gərək ona (ə) nəsihət edəm. Yaxınlaşıb salam verdim. Yoğunluqdan təngnəfəs olduğu və başından, saqqalından tər axan halda salamımın cavabını verdi. Ona (ə) dedim: "Heç düşünürsənmi ki, əgər bu halda ölüm sənin sorağına gəlsə, Allaha nə cavab verəcəksən?!". İmam Baqir (ə) cavabında buyurdu: "Əgər bu halda ölüm məni yaxalasa, həqiqətdə mənim ölümüm Allaha ibadət etdiyim halda gəlmiş olar. Mən bu ibadətlə özümün və ailəmin sənə və başqalarına ehtiyaclı olmasının qarşısını alıram. Ölümün yetişməsindən o zaman qorxmalıyam ki, o, mənim günah və Allaha itaətsizlik halında sorağıma gəlmiş olsun".[2]

İmam Sadiqin (ə) dostlarından biri deyir: "İmam Sadiqi (ə) əlində bel, əynində qalın libas öz şəxsi sahəsində işləyən halda gördüm. Kürəyindən tər axırdı. O həzrətə (ə) dedim: "İcazə verin sizin yerinizə mən işləyim".Cavabında dedi: "Mən xoşlayıram ki, insan məişət ehtiyaclarını təmin etmək üçün isti Günəşin çətinliyinə, əziyyətinə dözsün".[3]

---

[1] "*Furuu-Kafi*": Kuleyni, "*Ruzi Qazanmaqda İmamların Yolunu Getmək*" bölməsi, c.5, h.10.
[2] Həmin yerdə, h.1.
[3] Həmin yerdə, h.13.

**Nəticə**

Həqiqi arif özünü həmişə Allah məhzərində görür. O, yalnız Allahdan qorxar. Həmişə ehtiyat edir ki, Allahın əmrlərindən boyun qaçırmasın. Həqiqi ariflər daim zikr edərlər. Əlbəttə, daimi zikr bu mənada deyil ki, əldə daim təsbet olsun və dil ilə zikr deyilsin. "Dil" ilə zikr etmək zikrin ən aşağı dərəcəsidir. Ondan daha üstün zikr "zehni" və zehində olan zikrdir. Yəni, zikrin məzmununa insanın zehni və fikri diqqəti olsun. Zehni zikrdən daha üstün olan zikr "qəlbi" və qəlbin zikridir. Yəni, salikin qəlbi həmişə Allahı xatırlasın, qəflətdə olmasın. Qəlbi zikrdən daha üstün zikr isə "vücudi" zikrdir. Yəni, salikin bütün varlığı, vücudu başdan-ayağa Allahı zikr eləsin; onun bütün fəaliyyətləri Allah yolunda olsun; özünün bütün daxili və xarici hallarını Allaha diqqət etməklə yerinə yetirsin. Bu zaman onun yuxusu və ayıqlığı, oruc olduğu və olmadığı halı, sükutu-danışması, ayaqüstə durması-əyləşməsi eynidir, bütün bu halların hamısında Allahı zikr edər. "Şəbaniyyə" münacatında belə oxuyuruq: "İlahi! Məni sevinc gətirən Özünün izzət nuruna birləşdir, bununla Sənə arif olum və Səndən ayrısından üzümü döndərim, Səndən qorxum, ehtiyat edim".

Bu duada iki məsələ arifin əlaməti olaraq göstərilmişdir. Biri, Allahdan qeyrisindən üz döndərmək, o biri də Allahdan qorxmaq. Yəni, həqiqi arif o şəxsdir ki, onun bütün işlərinin mərkəzi oxunu Allah təşkil edir. Onun diqqətini Allahdan başqa heç bir şey cəlb etmir və Allahdan qeyri heç bir şeyə ürək bağlamır. Hafizin sözü ilə:

Qəlb lövhəmdə yarın əlif qamətindən başqası yoxdur,
Neyləyim ki, ustadım əlifdən başqa hərf öyrətmədi.

Həqiqi arif yavaş-yavaş elə bir nöqtəyə yetişir ki, o, Allahdan başqa heç bir şeylə üns tapmır. Həmişə Allahı yad edər. Əlbəttə, ona Allahı xatırladan əşya və şəxslərlə üns qurar və bu üns eyni ilə Allahla üns deməkdir. Həqiqətdə belə şeylərə və şəxslərə məhəbbətlə yanaşmaq, sevgi göstərmək İlahi məhəbbətin bir şaxəsidir. Əlbəttə aydındır ki, belə məqam bir anda və tez yaranmır. Belə məqamın yaranması tədricən baş verir və "riyazət" (nəfslə mübarizə), çalışmaq sayəsində əldə olunur. İnsan təbiət etibarilə tədriclə elə bir məqama yetişə bilər ki, Allahdan başqasını görməsin. Hər nə müşahidə etsə, Allahı ondan qabaq, onunla və ondan sonra müşahidə edər.

**Ədəbiyyat**

[1]. Qurani-kərim
2. M. Mütəhhəri, "Əsərlər Məcmuəsi" kitabı, çap 2004
[3]. Misbah Yəzdi, "İslam İrfanı axtarışında", çap 2006
[4]. Məhəmməd ibn Munəvvər, "Əsrarut-Tövhid fi Məqamatiş-Şeyx Əbi Səid", çap 1984
5- Amidi, Təmimi, Əbdül-vahid, Dürərul-Hikəm, Tehran: 1984
6- Amuli, Hürr, Məhəmməd ibn Həsən, Vəsailüş-Şiə, Qum: 1974
7- Cəfəri, Yəqub, Nəhcül-Bəlağənin Tarixi Baxışı, Tehran: 1996
8- Cəfəri, Məhəmməd Təqi, Nəhcül-Bəlağənin tərcümə və təfsiri, Qum: 1999
9- Cordaq, Corc, Nəhcül-Bəlağənın gözəlliklərindən bir hissə, Beyrut: 2001
10- Cövhəri, İsmayıl ibn Həmmad, Sihahül-Lüğət, Qahirə: 1997
11- Ədibi, Hüseyn, İctimai təbəqələr sosiologiyası
12- Ənsari, Məhəmməd Əli, Ğurərul-Hikəm və Durərul-Kəilim
13- Payəndə, Əbul-Qasim, "Nəhcul-fəsahə", Tehran: Dünyayi daniş nəşriyyatı1382
14- Firuzabadi, Məhəmməd ibn Yqub, Qamusül-mühit
15- Xansari, Ağa Cəmaləddin, Ğurərül-Hikəm"in şərhi
16- Gilani, Əbdür-rəzzaq, Misbahuş-Şəriənin şərhi, Tehran: 2003
17- Həkim, Seyid Məhəmməd Təqi, Əli (ə) kəlamlarından ilham
18- İbn Babəveyh, Səduq, Xisal, Qum: 1992
19- İbn Meysəm, İxtiyaru-Misbahis-Salikin
20-İraqi, Əlirza, İmam Əli (ə) nəzərindən hakimiyyət və müdiriyyətə baxış
21- İbn Əbil-Hədid, Nəhcül-Bəlağənin Şərhi, Tehran: 1964

# İslamda insan haqları (tarixi araşdırma)

**Elçin Əliyev**[1]

**Abstrakt**

İslamın fundamental hədəfləri və mesajları göstərir ki, bu müqəddəs dinin təlimləri, insan haqqlarının rəvac tapmasında böyük rolu oynayıb və oynayır. Çünki İslamda insan haqqları, vəhyani mənşəyə malikdir. Belə ki, Allah dininin qanunvericilik olmasında hədəf tövhidin rəvac tapması, insanların haqqa tərəf hidayəti, insan haqqlarının müdafiəsi və zülmkar tağutlarla mübarizədir.

Tarixi baxışla, İslam dininin zühur etməsi zaman baxımından avropanın birlik halında, təsirə malik və dəyişikliklər etməyə qadir olduğu bir vaxta təsadüf etmişdir. Buna baxmayaraq, o dönəmdə bütövlükdə Avropanın, Asiyanın və Afrikanın əksər hissəsinin zülmət içərisində çabalayır, mədəniyyət, sivilizasiya, və insan haqqları baxımından qənaətbəxş vəziyyətdə deyildilər.

**Açar kəlmələr:** İslam, Qərb, insan, hüquq

[1] - İslam araşdırmaları fakültəsinin tələbəsi, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, İran, Qum

## Giriş

Qərb düşüncəsinin əksinə olaraq, insan haqqları dinlərdə, ümumdünyəvi keçmişə və müxtəlif fəlsəfələrə malikdir. Bu yanaşma ilə aydın olur ki, insan haqqlarının tarixi, insan yaranan günə qayıdır. İnsan haqqları düşüncələri və onu himayə etmək, ilahi dinlərdə və xüsusi olaraq islamda çox aydın şəkildə özünü biruzə verir. Belə ki, yaradılış barədə düşünməyə dəvət[1], insana həyat bəxş edən nüanslar[2] və bəşər həyatının müdafiəsi [3], dinin ən mühüm təlimləri və ictimai ədalətin bərpası üçün insanları hidayəti, Allah elçilərinin ən böyük missiyalarından olmuşdur.[4]

İslamın fundamental hədəfləri və mesajları göstərir ki, bu müqəddəs dinin təlimləri, insan haqqlarının rəvac tapmasında böyük rolu oynayıb və oynayır. Belə ki, Allah dininin qanunvericilik olmasında hədəf Tövhidin rəvac tapması, insanların haqqa tərəf hidayəti, insan haqqlarının müdafiəsi və zülmkar tağutlarla[5] mübarizədir. Allah elçilərinin ictimai ədalətin bərqərar olması və ictimai təbəqələşmənin qarşısını almaq üçün etdiyi təlaşlar, bəşər tarixinin ən üstün addımları hesab edilir. Həzrəti İbrahim (ə)-ın Nəmrudla mübarizəsi, həzrəti Musa (ə)-ın, Bəni İsrailin qurtuluşu üçün Fironla qarşıdurması, yahudilərin dinin təhrif etməsinə və dini istibdada qarşı həzrət İsa (ə)-ın təlaşı və həzrəti Muhəmməd (s)-ın müşriklər və bütpərəstlərin müqabilində qiyamı, çağdaş zamanın insan haqqları hərəkatına stimul bəxş edə və tarix yazacaq nümunələr ola bilər.

Məsələyə insafla baxsaq, İnsan haqqları tarixini seyr edincə bu mövzuda ən böyük əmək, ilahi dinlərin və məxsusən də islamın payına düşdüyünü görürük. Bu həqiqəti görmək üçün isə, bəşər tarixinin müxtəlif dönəmlərində insan haqlarının praktikası zamanı, mövcud olan şəraitə diqqət yetirmək lazımdır.

### 1. Qurani Kərimə görə, İslam dininin meydana gəldiyi dönəmdə insan haqqlarının bərbad vəziyyəti

---

[1] Şübhəsiz ki, toxumu da, çərdəyi də Allah çatladır. O, ölüdən diri çıxarır, diridən isə ölü çıxarır. Budur Allah! Siz necə də (haqdan) döndərilirsiniz! (Ənam surəsi, ayə 95)

[2] Ey iman gətirənlər! (Peyğəmbər) sizi, həyat verəcək şeylərə çağırdığı zaman Allahın və Peyğəmbərinin çağırışına cavab verin. Bilin ki, Allah insanla onun qəlbi arasındadır (onun istəyinə çatmasına mane ola bilər) və siz Onun hüzuruna toplanılacaqsınız. (Ənfal surəsi, ayə 24)

[3] ...kim bir adamı öldürməyən və ya yer üzündə fəsad törətməyən bir şəxsi öldürərsə, sanki bütün insanları öldürmüşdür... (Maidə suarəsi, ayə 32)

[4] Onlarla birlikdə Kitab və tərəzi nazil etdik ki, insanlar ədalətli olsunlar... ( Hədid surəsi, ayə 25)

[5] Tağut, islam prinsiplərinə zidd olan hakimiyyətə deyilir.

Mövzu üzrə mütəxəssislər və hətta inqilab tarixlərini azacıq seyr edən hər kəs bilir ki, islamda insan haqqları layihəsi, qərbin insan haqqları və siyasi düşüncələrinin müqabilində, müdafiə cinahinda durmayıb. İslamın fundamental mənbələrinə müraciət etməklə, bu dinin insan haqqları mövzusuna yanaşlamalırını asanlıqla anlamaq və islam fəqihlərinin insan haqqlarına nəzəri və praktiki fədakarlıqlarını görmək olar. Yaşam haqqı, insan ləyaqəti, bərabərlik, ictimai ədalət, insan təlim və tərbiyəsi, təhlükəsizlik, əməkdaşlıq, sahibkarlığa ehtiram, zülmkarlarla mübarizə və məzlumlara dayaq kimi düşüncələr və fundmentlər, islamın hüquqi və siyasi məfhumlarındandır.

Tarixi baxışla, İslam dininin zühur etməsi zaman baxımından avropanın birlik halında, təsirə malik və dəyişikliklər etməyə qadir olduğu bir vaxta təsadüf etmişdir. Buna baxmayaraq, o dönəmdə bütövlükdə Avropanın, Asiyanın və Afrikanın əksər hissəsinin zülmət içərisində çabalayır, mədəniyyət, sivilizasiya, və insan haqqları baxımından qənaətbəxş vəziyyətdə deyildilər. Avropa xalqı, mədəniyyət böhranı[1] adlandırdığı orta əsrlərə kimi, kislə rəhbərlərinin və feodal hakimiyyətin təhdidi altında, düşünməyə və öz əqidələrini bəyan etməyə qüdrətləri yox idi. İlahi elçilərin mesajlarını, hikmətli Konfutsi və Zərdüşt peyğəmbərin və məxsusən də müqəddəs İslam dininin qanunlarını bu dövdən ixsisara salsaq, bu böhran çox aydın şəkildə üzə çıxacaqdır.

İslam Peyğəmbərinin, bəşəriyyəti düzgün yola hidayət etmək üçün seçildiyi zaman, insaniyyətin və insan ləyaqəninin unudulduğu bir dönəm olmasına ən yaxşı şahid tarix özüdür. Şirk və bütpərəstlik, totalitarizm və insanlıq böhranı, hər növ təfəkkür və müsbət dəyişiklik fürsətini aradan aparmışdı. Bəşər həyatında, insan hüquqlarına ehtiramın heç bir tərifi və yeri yox idi. İslam belə bir zamanda zühur etdi və ərəblərin, o cümlədən islam dininə üz gətirən bütün insanların həyatında inqilaba yol açdı. Həzrəti Muhəmməd (sa)-ın gətirdiyi dinin günü-gündən artan inkişafı, tarixin möcüzələrindən hesab olunur. İslamın bəşəriyyətə dəvəti məhdud və milliyyətçilik prinsiplərinə əsaslanmırdı. Əksinə, dünyaya açılan kütləvi dəvət idi.[2]

Bu iddianı dərk etmək üçün, həzrəti Muhəmməd (s)-ın peyğəmbərliyə seçilmə astanasında, insan haqqlarının vəziyyətinə qısa nəzər salmaq kifayətdir.

[1] İngilis dilində, orta əsrlər qaranlıq dövrlər (Dark ages) kimi də tanınır.
[2] Ənam 19 və 90-ci ayələr, Əraf ayə 157, Furqan ayə 1 və Ənbiya 107-ci ayə.

Hərçənd ki, bir çox tərixçilər öz çıxardığı nəticəyə müvafiq və bəzən də öz xeyirləri üçün, islamın insan haqqları və insan ləyaqətinin dirçəlişinə verdiyi töhfələri, öz əsərlərində qeyd etmişlər. Amma xatırlamaq yerinə düşərdi ki, peyğəmbər (s)-in dönəmində olan ictimai əlaqələri və insan haqqlarının dirçəlmə prosesini bir tədqiqatçı üçün ən gözəl və dəqiq şəkildə açıqlayan mənbələr, Qurani kərim və nəhcül-bəlağədir.

Allah tala belə bir vəziyyət və şəraitdə, peyğəmbəri insanların hidayəti üçün seçib, hidayət bəxş edən islam hökmlərini insanlara çatdırmasını və onlardan düzgün yol seçmələrini istəməsini əmr etdi:

**De: “Gəlin, Rəbbinizin sizə nələri haram etdiyini oxuyum: Ona heç nəyi şərik qoşmayın, valideynlərə yaxşılıq edin və yoxsulluq ucbatından uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzisini Biz veririk. Murdar əməllərin aşkarına da, gizlisinə də yaxınlaşmayın. Allahın, (öldürülməsini) haram buyurduğu şəxsi haqsız yerə öldürməyin. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə anlayasınız. Yetim həddi-buluğa çatana qədər, – xeyirxahlıq (qoruyub saxlamaq və artırmaq məqsədilə istifadə etmək) istisna olmaqla, – onun malına yaxınlaşmayın! Ölçüyə və çəkiyə ədalətlə tam riayət edin. Biz hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər yükləyərik. Söz söylədiyiniz zaman, qohumunuz olsa belə, ədalətli olun. Allah qarşısındakı əhdə sadiq qalın. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə, düşünüb ibrət alasınız. Bu, Mənim doğru yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Çünki, (o yollar )sizi Allahın yolundan uzaqlaşdırar. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə (pis əməllərdən) çəkinəsiniz”. [1]**

Bu göstərişlərin oxşarını, digər ayələrdə də müşahidə etmək olar.[2] Bu ayələr, bir tərəfdən be’sət dönəmində yaşayan insanların bütövlükdə ruhiyyəsi, əxlaqı, xəstə düşüncəli adətləri və insan haqqlarının qaydasında olmamasını, digər tərəfdən isə, keçici əxlaqi xəstəliklərin muaciləsi və insan haqqlarının təminini ən gözəl yolla izah edir. Belə ki, şirk və bütpərəstəil, valideynə ehtiramsızlıq, öz övladını qətlə yetirmə, insanlığa sığçayan çirkin əməllər, yetimlərin malına xəyanət, zülm və ədalətsizlik və intihar nəinki o dövrün ən böyük problemlərindən olub, hətta tarix boyu bəşəriyyətin mübtəla olduğu ən böyük bəlalardandır.

---

[1] Ənam, ayə 151-153
[2] İsra, ayə 31-35

Yuxarıdakı ayələrdə qeyd olnan və üzərində təkid edilən "onluq göstərişlər", əslində peyğəmbərin insan haqqlarının dirçəlməsinə dair təlimlərində olan hədəflərinin bir qismidir:

*1. Mən, şirki aradan aparmaq üçün seçildim ( Tövhid prinsipinin müdafiəsi)*

*2. Ata və anaya yaxşılıq, mənim proqramımın başlanğıc hissəsidir (valideyn hüququna riayət)*

*3. Mənim dinimdə, səbəbindən asılı olmayaraq uşaq öldürmək qadağandır. (uşaq haqqlarının və xüsusi olaraq həyat haqqının təmini)*

*4. Pisliklərlə mübarizə, bəşəriyyəti gizli və aşkar çirkinliklərdən uzaqlaşdırmaq üçün göndərilmişəm. ( Təlim və tərbiyə haqqlarını dirçəltmək)*

*5. Mənim şəriətimdə, bir insanı öldürmək qadağandır (Həyat haqqının müdafiəsi)*

*6. Yetimin malına xəyanət etmək, haramdır. ( Müliyyət hüquqlarına ehtiram)*

*7. Mənim ayinimin əsasnaməsi ədalətdir. Bunun üçün də, saxtakarlıq və müqavilədə aldatmaq haramdır. (Hüququn təyin və izah olunmasında, ədalət prinsipi)*

*8. Heç kəsə, bacarığından çox öhdəlik vermirəm (Bacarıq və öhdəlik arasında tənasüblük prinsipi)*

*9. Danışıqda ədalətə riayət etmək, Allahın hökmüdür. (ifadə azadlığı hüququ və onun həddi)*

*10. Allahla bağladığınız əhdə vəfalı olun ( İnsan həyatında fəfalılıq prinsipinin əsas tutulması)*

Yuxarıda qeyd olunan "onluq göstərişlər", "Tövhid"lə başlayır və "əhdə vəfa prinsipi" ilə sona çatır. Çünki, Tövhid və əhdə vəfa prinsipi, insan haqqlarının fundamenti və bəşəriyyətin bütün sağlam islahatlarının əsasını təşkil edir. Əksinə olaraq isə şirk və əhdi sındırmaq, bütün ictimai fəsadların mənşəyi və insan haqqlarına zərbə vuran ən böyük amil hesab edilir. Bunun üçün də, müqəddəs Quran, Allahın ayələrində olan tövsüyələri üzərində düşünməyi təkidlər vurğulayır. Daima düzgün yolda qədəmləmək üçün, bu göstərişləri yadımızda saxlamalıyıq. Başqa ifadə ilə desk, Allahın əmrlərindən qəflətdə olmaq, bəşəriyyətin daim problemlər içərisində qalmasının və insan hüquq və azadlığının taptanmasının başlıca amilidir: "**Hər kəs Mənim öyüd-nəsihətimdən (Qurandan) üz döndərsə, güzəranı daralar...**" [1]

[1] Ta ha, ayə 124

Bu "onluq göstərişlər" təkcə islama məxsus deyil, hətta belə desək, bütün asimani dinlər bu nüanslara diqqət ayırıbdır. Çünki, dinin qanunvericilik fəlsəfəsi, bəşəriyyəti insani həyata dəvət, insaları öz hüquq və öhdəlikləri ilə tanış etmək və kamilliyə (Allaha) doğru hidayət etməkdir. İslamın üstünlüyü budur ki, yuxarıda qeyd olunan mövzunu, qısa amma kamil şəkildə qarşı tərəfə çatdıra bilmişdir. Sağlam ağıl və məntiq də həmçinin, yuxarıda qeyd olunan nüansların insan haqqları və insan ləyaqətinin dirçəlməsində böyük və əvəzolunmaz rola malik olmasını dərk edir.

Bu hökmlərin icra olunduğu cəmiyyətdə, insanlıq çiçəklənər və insan haqqları bütövlükdə təmin olar. Bu həqiqət (ən azı 1 dəfə) islamın əvvəllərində özünü göstərdi. Yuxarıdakı ayəni oxumaqla nəinki "Xəzrəc" qəbiləsinin başçıları olan Əsəd ibn Zurarə və Zəkvan ibn Əbduqeysi dəyişdi, hətta mədinənin (Yəsrib) belə taleyini həll etdi. Peyğəmbərin Allah Quran ayəsini Əsədə oxuduğu zaman, daxilində sanki inqilab oldu və iman gətirərək dedi: "Ey Allahın Rəsulu! Atam və anam sənə qurban! Mən Yəsribliyəm və Xəzrəc qəbiləsindənəm. Bizim "Ovs" qəbiləsi ilə aramızda uzun sürən müharibələr nəticəsində, qəbiləmiz zəifləyib. Bəlkə sizin köməyinizlə aramızdakı qırılan bağları düzələ." Onun dostu olan Zəkvan da həmçinin İslamı qəbul etdi və Allahın hökmlərini xalqa çatdırmaq və insanları İslam dininə dəvət etmək üçün, peyğəmbərdən bir neçə nəfəri Mədinəyə göndərməsini xahiş etdi. Bəlkə bu yolla qanlı davalar öz həllini tapa bilər. Peyğəmbər Məsəb ibn Əmiri onlarla birlikdə Mədinəyə yolladı. O zamandan Mədinə şəhəri, İslam və İslam hökumətinin gərərgahı oldu və oranın siyasi və ictimai vəziyyəti tamamilə dəyişdi.

**2. Nəhcül-bəlağənin baxışı ilə, islamın zühuru ərəfəsində insan haqqlarını vəziyyəti**

İmam Əli (ə), bəşəriyyətin besət dönəmindəki vəziyyətini belə bəyan edir: "Sübhan olan Allah Həzrəti Muhəmməd (s)-i elə bir vaxtda peyğəmbərliyə seçdi ki, dünya özünün son mərhələsinə çatmış, axirətin nişanələri yaxın, dünya qaranlığa çevrilmiş və öz əhlini gücdən salmışdı, dünya yoxluğa, sona hazır və sonluğunun nişanələrini aşkar şəkildə göstərir, varlıqlar ölüm astanasında, onun həyat zənciri

qırılmış, Dünya bayraqları köhnəlmiş və yırtılmış və ömürlər qısalmışdır. Allah tala belə bir zamanda peyğəmbəri risalətin təbliğçisi,

ümmətə iftixar bəxş edən, o dövrün hətiqət teşnələri üçün yaz yağışı, müsəlmanların başını uca edəcək və dostlarının izzət və şərəfi olacaq şəxs kimi göndərdi."[1]

Başqa bir yerdə isə, besət dönəmində cəmiyyətin halını aşağıdakı kimi şərh edir:

Allah tala peyğəmbəri elə bir zamanda göndərdi ki, öncəki peyğəmbərlərin besətindən bu yana, millətlər dərin yuxuya qərq olmuşdular. Dünya fitnə və fəsada bürünmüş, çirkin əməllər artmış və müharibə atəşi hər yarı alova bürümüş, dünyanın nuru sönmüş, yalan və məkrlərlə dolmuşdur. Həyat ağacı solmuş və daha bar vermirdi. Həyat suyu qurumuş və hidayət nişanələri köhnəlib aradan getmişdi. Azğın və həlskedici bayraqlar aşkar olmuş, dünya pis qiyafəsi ilə camaata baxır, qəmgin və sətr şəkildə öz əhli ilə üz-üzə dayanmışdı. Cahiliyyət dönəmində dünya ağacının meyvələri, fitnə və murdar yem idi. Daxilində vəhşət, iztirab, xaricində isə höhumətin zülm qılıncları var idi. [2]

### 3. İslamda insan haqqlarının quruluşu və qanunvecilik halına salınması

İslamda insan haqqları, vəhyani mənşəyə malikdir. Qunanın nazil olması və peyğəmbərin zamanında bu müqəddəs kitabın ayələrinin yığılması, insanı himayəsinin və islamda insan haqqlarının sistemləşdirilməsinin başlanğıc nöqtəsidir. Peyğəmbər (s)-in metodunun praktikaya salınması ilə təkmilləşdirici işlər görüldü və insan haqqlarının sistemləşməsi yönündə böyük addımlar atıldı. İnsan haqqlarına aid olan ayə və hədislər, islam hüququnda parlayan fəsil bir fəsildir.

Hicrətin üçüncü və dördüncü yüzilliklərində islami fiqh və əxlaqın sistemləşməsi, bu dönəmlərdə şeyx Tusiyə aid olan fiqhi və əxlaqi kitablarda özünü göstərir. İslam fiqhinin sonrakı mərhələlərində insan haqqları təfəkkürü, müsəlman fəhiflərinin və hüquqşunaslarının daima əsas müzakirə obyektində olmuşdur. Bu tərtiblə,

islamda insan haqqlarının tarixi əvvəl on illiklərinə (milad təqvimi ilə 7-ci əsrin ikinci yarısı) qayıdır ki, bu da qərb insan haqqları ilə müqayisədə on iki əsr daha qədimdir.

İnsan haqqlarının, əqidə ilə möhkəm bağlılığının ( Allaha və onun şəriətinə iman) olması, İslamın ən mühüm təlimlərdindəndir. Tövhid (Allaha inam) , məad (ölümdən sonrakı həyata inam) hikmək (hədəfli

---

[1] Nəhcül-bəlağə

[2] Nəhcül-bəlağə

yaradılış) prinsipləri ilə dünyanın axirətlə rabitəsi prinsipi, insan haqqlarının fundamentlərindəndir. Allahı yaradılışın mənbəyi, Xaliq, və hikmətli qanun qoyan hesab edən, Onun haqqlarını insan haqqlarının mənşəyi hesab edən, insan həyatını bu dünya ilə bitdiyinə inanmayan və axirətə imanı olan şəxs, Allah bəndələrənin də haqqını tanıyır və ona riayət edir. Çünki, Allahın bütün bəşəriyyətin yaradıcısı olduğuna, bütün insanların onun məxluqu olmasına və onların bərabər hüquqa malik olmasına iman bəsləyir. Bu haqqlara riayət etmək bütün insanlar zəruridir. Çünki bütün bəşəriyyətin quruluşu bu əqidə əsasındadır. Rəng, irq, millət və.s, insanların biri-birlərini tanıması və əməkdaşlıqları üçün bir vasitədir. Bu fenomenlər, heç zaman birinin digərinə üstünlüyü və iftixar mənbəyi ola bilməz. İnsan haqqlarına ehtiram qoymayan və ona riayət etməyənlər üçün isə, dünyada və axirətdə cəzalar müəyyən edilib.

### 4. İslam taxirində insan haqqlarının keçid mərhələləri

İslam, millətlərin biri-birinin kənarında dinc yaşamasının kökünü qoyan və protestanlıqdan (xristianlığın içərisində islahatçı hərəkat) min il əvvəl, digər dinlərlə əməkdaşlıq, onlarlarla birgə dinc yaşamaq və insanların haqqına riayət etməyə çağırmışdır. [1] Peyğəmbərlik əsrinin başlanğıcı dəyərlər, siyasi, hüquqi inqilabların təcəllisi bütün sahələrdə, o cümlədən insan haqqlarında özünü göstərdi. İslamın insana və Peyğəmbər (s)-ın hakim postunda insanlarla rəftarı, insanların əqidəsindən, dinindən, dilindən, irqindən və cəmiyyətdəki statusundan asılı olayaraq onlara rəftarı, bəşəriyyət tarixində misli görünməmişdir. Özdostlarının ətrafında sadə və nişanəsiz oturması, cəmiyyətin məhrum təbəqəsinə yardımı, inqi ayrıseçkiliklə mübarizə, yahudilərin mədinə camaatı ilə

əlaqəsi və onların islam camiəsində qəbulu, yahudilərin cənazəsinə ehtiram, özünü digərlərindən üstün bilməkdən çəkinmək və onlarla gözəl insani xislətlər, peyğəmbər (s)-i bəşəriyyət tarixinin ən gözəl nümunasi etdi. O, quran təlimlərinin təlimləri kölgəsində, insan hüquqlarının ilahi formasının rəsmini nçəkməyi bacardı.

İslamın əvvəllərində mühacirlərdən ibarət müsəlmanların sözçüsü olan Cəfər ibn Əbu Talibin, Həbəşədə islamın maarifləndirici təlimlərini keçərkən atdığı addımlar, bu mövzuda diqqət olunası nüanslardandır. Həbəşənin rəsmi şəxslərindən biri Cəfərdən soruşur: “Niyə öz əcdadlarının dinindən üz döndərib, bizim dinizimə heç bir oxşarlığı

---

[1] Ali-İmran, ayə 64, Mumtəhinə, ayə 8

olmayan bir dinə keçdin?" Cəfər cavab verir: "Biz,nadan və bütpərəst xalq idik. Pisliklərdən çəkinmir və daima çirkin işlərlə məşğul olurduq, qonşuların bizim yanımızda heç bir ehtiramı yox idi, Öz yaxınlarımızla daima müharivə və dava şəraitində yaşayırdiq. Bu acınacaqlı vəziyyətdə yaşadığımız bir vaxtda, bizim içimizdən parlayan keçmişə sahib və əmanətə sadiq olan biri, Allahım əmri ilə qalxaraq bizi Tövhidə dəvə etdi, bütpərəstliyi rədd etdi və bizə əmanətə sadiq qalmaq, psiliklərdən çəkinmək, yaxınlar və qonşularla gözəl rəftar və onlara yaxşılıq etməyi tövsüyə etdi. Bizi Qan tökməkdən, yalandan şəhadət verməkdən, yetimlərin malini yeməkdən, qadınların adına pis sözlər çıxartmaqda və qeyri qanuni uşaq dünyaya gətirməkdən çəkindirdi. Habelə, bizi namaz qılmağa, oruc tutmağa və malımızın vergilərini ödəməyə dəvət etdi. Biz də həmçinin ona iman gətirdik, tək olan Allaha sitayiş və pərəstiş etdik və onun bütün gğstərişlərinə iman etmişik. Onun halalını halal, haramını isə haram bilirik.

Cəfərin ilhamlandırıcı və gözəl bəyanı, bu şəxsə böyük təsir etmişdi. Bu sözlərdən sonra O, ətrafındakılarının müsəlmanlara qrdaşı pis fikirdə olmasına baxmayaraq, müsəlmanlara bütövlükdə azadlıq verdi. [1] Peyğəmbər (s)-in insan haqqları barəsindəki düşüncələri öz dinamikliyi ilə irəlilədi, dostları və risalət məktəbinin yetirmələri bu yolda hərəsi öz işlərinə davam etdilər. Bu arada İmam Əli (ə) digərlərindən daha çox dəyərli və təqdirəlayiq işlər gördü. Biz bunu Rəsulallah

məktəbinin ən kamil yetirməsi olan, Əmirəl möminin (ə)-in, Misir valisi təyin etdiyi Malik Əştərə məktubunda görə bilərik: Öz qəlbini xalqa mehriban davranmaqla ört, hamı ilə dost və mehriban ol. Nəbadə yırtıcı heyvanlar kimi, onların haqqını yeməyi özünə qənmimət biləsən. Çünki insanlar iki qrupdurlar: Bir dəstəsi sənin din qardaşların, digərləri isə yaradılışda və insanlıqda səninlə bərabərdirlər. 2

İnsanın hüquq və azadlığının müdafiəsi, ayrıseçkiliklə mübarizə, ictimai ədalətin bərpası üçün rəqabət və təlaş, İmam Əli (ə)-ın insanın, ədalət şüarının təməlini qoyan dəyərli işlərindəndir.

Amma təəssüflər olsun ki, Əməvilər silsiləsinin iş başına gəlməsi ilə, İslam idarəçiliyi səltənət sisteminə çevrildi. İslam dəyərlərinin təhridi və qüdrətin maliyyə və zor gücünə ələ gəlməsindən yaranan problemlərdən təbəqələşmə, ayrıseçkilik, islam maarifindən uzaq düşən məntəqələrin

[1] Muhəmməd ibn Haşim, Əs-sirətul nəbəviyyə
[2] Nəhcül-bəlağə

üzərində hakimiyyətin qurulmasına səbəb oldu. İnsan ləyaqəti, bərabərlik, azadlıq və insan haqqlarına ehtiram, tədricən unutduruldu.

Əməvilərin İnhisarçılıq və qeyri insani rəftərlarının əleyhinə qiyam edən Abbasilər, sonralar özləri daha da hiyləgər şəkildə eyni yolu getdilər. Bu dəfə insanlar ayrıseçkiliyin və ehtiramsızlığın digər formaları ilə qarşılaşdılar. Bəni Ümməyə xürafi ruhhiyə və milliyyətçilik kimi səhv düşüncəyə malik olduqlarına görə insanların hüquqlarını pozurdusa, Bəni Abbas isə, peyğəmbərin nəslindən olduğu düşünərək ayrıseçkiliyə yol verdilər. Əlbəttə ki, bu iddialar əslində qüdrəti ələ keçirmə məqsədi güdürdü. Osmanlı imperatorluğu dönəmində isə, İslam dəyərlərindən uzaqlaşma daha da şiddətləndi. Osmanlı türklərinin ədalətsiz rəftarı və ayrıseçkiliyi, İslamdan ekstremist və müharibə sevən bir sima cilvələndirdi. Oslamlı hakimlərinin səhv addımları bir “Qılınc və müharibə dini”  anlayışını, digər tərəfdən isə müxtəlif yanlış təbliğlər nəticəsində bəzi yanlış fikirlərin meydana gəlməsi rəvac tapdı. Bəziləri isə bu yanlış zehniyyəti aradan qaldırmaq üçün, atdığı addımlarda ifrata yol verdilər. Misal üçün cihad prinsipini[1] edam hökmünü [2] domenantlığın inkarı prinsipi [3] və.s fundamental məsələləri inkar etməklə, “yumşaq islam” siması yaratmağa çalışdılar. Halbuki, islam zülm etmək və zülmə boyun əyməyin əleyhinə olub: “**Nə zülm edin, nə də sizə zülm olunmasına icazə verin...**”[4]

Son iki əsrdə, Qərbin siyasi istismar və mədəni hücumlar nəticəsində, müsəlmanların əksəriyyəti islama qarşı yadlıq və böhrana düçar olmuşlar. İslamın insan haqqları mövzusunda olan sifarişlərini unutmuş və müsəlmanlar arasında yeni düşüncə adı altında yad fikirlər rəvac tapmışdır. Bəzi mütəfəkkirlər, müsəlman hüquq məsələləri və fərdi azadlıq mövzusunda, Qərbin insan haqqları məsələrində çıxarışlarından təsirlənmişlər. Təbii ki, bu iddianı birmənalı olaraq qəbul etmək olmaz. Çünki, bir çox islam ölkələrinin qanunlarında, islam standartlarına və şəriətinə uyğun olaraq hökmlər çıxarılmasına riayət olunmuşdur. Hər bir halda, islam ölkələrinin muasir zamanda verdiyi qərarlar, İslam əməkdaşlıq konfransının “islam insan haqqları”na[5] əsasəndir.

---

[1] Ənfal, ayə 39, Nisa ayə 75, Həcc, ayə 39
[2] Ali İmran ayə 118-119
[3] Nisa, ayə 141
[4] Bəqərə, ayə 279
[5] Misir, İslam insan haqqları bəyannaməsi, 5 avqust, 1990-cı il, islam ölkələrinin xarici XİN-i.

**5. Mütəfəkkirlərin etirafı**

İtaliyanın Napel universitetində, ərəb ədəbiyyatı və İslam sivilizasiya tarixi

üzrə müəllim olar Vaqleri, Belə deyir:

Biz bu (Quran) kitabda elm mədənləri görürük. Bunlar ən böyük zəkaya sahib olanlar, əb böyük filosofların və ən güclü hüquqşunasların tutumundan və istedadından daha böyükdür. Bizi heyran edən tək bu dinin bəyəriyyətin ehtiyaclarını ödəmək üçün onun istəkləri ilə münasib olması, insanın, onun sığınacağında yaşaması üçün ən ali qanun olaraq şəriəti təşkil etməsi deyil, hətta bundan daha üstün addımlar atıb və həyat fəlsəfəsini də ortaya qoyur... İslam qanunlar toplusu kimi tanınan şəriət, qaydalardan və rəsmiyyətdən ibarət deyil, şəriət, bütün fərdi və ictimai həyatın təzahürüdür.[1]

**Vil Dorant deyir:**

İslam dini 5 əsr əzrində (700-1200-ci illər) müdriyyət və güc, hökumət dairəsinin genişlənməsi, həyat tərzi, insaflı və insani qanunların tətbiqi, dini təhsilatı, elm tələbələri yetişdirmə, tibb və fəlsəfə elmlərində, dünya birincisi idi... Belə nəzərə çarpır ki, müsəlmanlar, xristianlardan daha çox iftixara malik olublar. Əhd və peymana daha çox riayət edirdilər, məzlumlara qarşı daha rəhimli idilər. Xristianlar Beytul-müqəddəsin fəthi zamanı(1099-cu), kifayət qədər qanlı cinayətlərə əl atmışlar. İslam, xristian dünyasının bir çox sahələrində gözə çarpacaq qədər nüfuza sahib olmuşdur. Xristian avropası yeməklər, dərman peraparatları, silah, ailə qanunları, səliqə, sənət, ticarət və texniki avadanlıqları, dəniz yollarının qanunlarını və.s İslamdan öyrənmiş və əsasən onların adlarını da müsəlmanlardan götürmüşlər.[2]

Qustav Loben də həmçinin, bu mövzuda məhşur kəlamlara sahibdir:

“Bizim, ərəblər və müsəlmanlardan başqa, bu qədər təsirə malik olan ikinci bir millət tanımırıq. Çünki, əlaqə qurduqları hər bir xalq, onların sivilizasiyasını qəbul ediblər.”[3]

Tənqidlərindən çox az dinin  amanda qaldığı ingilis mütəfəkkir Corc Bernard Şou, İslam barəsində belə hökm edir:

İslamın hamı tərəfindən qəbul olunmasının əsas səbələrindən biri, onun ciddi şəkildə insan hüquqlarının müdafiəsinə qalxmasıdır. İslam bu

---

[1] Loravaksiya Vagleri, “islamın sürətli inkişafı”

[2] Vil Dorant, Sivilizasiya tarixi 4-cü cild, səh. 432-433

[3] Qustav Loben, *“İslam və ərəb sivilizasiyası”*

fonda o qədər güclüdür ki, bənzəri yoxdur. Yunan, Roma, inkişaf etmiş ölkələr və hətta Amerika və Avropa bu istiqamətdə islamla bərabər ola bilməzlər. Mən, sabahın avropasının Muhəmmədin imanını qəbul edəcəyini praqnozlaşdırır və onun nişanələrini görürəm.

Jano ali institutunun tədqiqatçısı, Marsel Buazar deyir:

“İslamın siyasi metodları və hüquq fundamentləri, Qərb hüquqşunaslarının orta əsrlərdə istibdad əleyhinə, ictimai ədalətin məcəllə halına salınması prosesində istifadə etdiyi əsas mənbə idi. Cürətlə deyə bilərəm ki, İslam şəriəti, dünyada beynəlxaq hüququn banisidir...”

Mən Finikya, Yunan, yahudi və hətta xristianlıq fəlsəfəsinə irad bildirmək istəmirəm. Amma tarixi faktlat və vicdan, orta əsrlərdə modernite sivilizasiyasını yeddi yüz il öz nüfuzu altında saxlayan, İslam sivilizasiyası idi. [1]

O, qərblilərin unutqanlığı və inkarı barədə yazır:

Bu işin səbəbi tam aydın deyil. Görəsən bu addım, Yunanın Şərq müqabilində atdığı addımın təkrarıdır?! Yoxsa xristianlıq, ilahi dəyərləri tanımaqdan ehtiyyat edir? [2]

Rane Genun, 1950-ci ilin sentyabrında Fransa çap olan “Tanınmamış sivilizasiya” kitabında yazır: ... Bəziləri, tarixçilərin bir çox əmrlərdən və məzhəbçi təfəkkürdən qaynaqlanan sükutunun səbəbini bilmək istəyirlər. Amma, bəzilərinin dinsiz və bəzilərinin də din əleyhdarı olduğu muasir taxiççilərə nə demək olar? Amma bununla belə, özlərindən öncəkilərin reallıqların əksinə dediklərini, təsdiqləyirlər. Həqiqətləri və şərqin boynunda olan dinin əhəmiyyətini tanımağa, qürur və eqoistlik qoymur. Bu fonda daha təəccüblü məqam budur ki, Avropalılar özlərini Yunan sivilizasiyasının birbaşa varisləri hesab edirlər. Halbuki, reallıqlar bu iddianın əleyhinədir. Məsələnin həqiqi tərəfi budur ki, Yunan elmi və fəlsəfəsi, müsəlman mütərcimlərinin əli ilə Avropaya gəlib çatıb.

Bildiyiniz kimi, deyilən həqiqətlər daima gizlin saxlanılmışdır. Məşhur ingilis tarixçisi Montqomeri VT isə, bu sirrin üzərindən belə pərdə çəkir:

---

[1] Marsel Bazar, *İslam və insan haqqları.*

[2] Marsel Bazar, *İslamda insana məhəbbət*

Avropanın İslam sivilizasiyasına qarşı təhqir hisslərinin müxtəlif asbektləri var. Bunun ən mühüm səbəbi, İslam adına təhrif olunmuş işığın təsviridir...[1]

Montqomeri VT, Avropalıların təəssübündən gileylənərək deyir:

Qərbi Avropa, müsəlmanlara qarşı reaksiyasında, onların təsirini əhəmiyyətsiz cilvələndirməyə və mübaliğə edərək özlərini Yunanın mirasının varisləri kimi tanıtdırmağa çalışdılar.

Qustav Loben də həmçinin Avropalıların yersiz təəsssübü barədə yazır:

Müsəlmanlar və İslam əleyhinə olan təəssüblər, miras olaraq bizə ötürülüb, üst-üstə yəğılıb və artıq bizim xaraktertimizə çevrilib. Bir növ yəhudilərin xristianlara bəslədiyi kinə oxşayır. Bəzən bunu gizlətməyə çalışsaqda, kökləri qalmaqdadır.[2]

Bu deyilənlərin kənarında, Vil Dorantın dedikləri çox əhəmiyyətlidir:

İslamın orta əsrlərdə meydana gəlməsi  Ərəbistanda parlayan tarixi ibrətdir. Bir əsrdən az vaxtda böyük bir imperatorluq və çağdaş zamanımızda dünyanın yarısına hakim olan mötəbər bir din olması, həqiqətən də orta əsrləri ictimai möcüzəsidir.[3]

Yuxarıda qeyd olunanlar, İslamın dünyada (Məzxusən Qərb dünyasında) rolu və təsirləri mövzusunda olan etiraf və düşüncələrdir. Baxmayaraq ki, İslam, ümumdünya və ali məzmunlu din olaraq, bütün təsdiq və təriflərə ehtiyacsızdır.

---

[1] Montqomeri VT, “*İslamın orta əsrlərdə Avropaya təsiri*”

[2] Qustav Loben, *“İslam və ərəb sivilizasiyası”*

[3] Vil Dorant “*Sivilizasiyalar tarixi*”

## Nəticə

Qunanın nazil olması və peyğəmbərin zamanında bu müqəddəs kitabın ayələrinin yığılması, insanı himayəsinin və islamda insan haqqlarının sistemləşdirilməsinin başlanğıc nöqtəsidir. Peyğəmbər (s)-in metodunun praktikaya salınması ilə təkmilləşdirici işlər görüldü və insan haqqlarının sistemləşməsi yönündə böyük addımlar atıldı. İnsan haqqlarına aid olan ayə və hədislər, islam hüququnda parlayan fəsil bir fəsildir.

Əməvilərin İnhisarçılıq və qeyri insani rəftərlarının əleyhinə qiyam edən Abbasilər, sonralar özləri daha da hiyləgər şəkildə eyni yolu getdilər. Bu dəfə insanlar ayrıseçkiliyin və ehtiramsızlığın digər formaları ilə qarşılaşdılar. Bəni Ümməyə xürafi ruhhiyə və milliyyətçilik kimi səhv düşüncəyə malik olduqlarına görə insanların hüquqlarını pozurdusa, Bəni Abbas isə, peyğəmbərin nəslindən olduğu düşünərək ayrıseçkiliyə yol verdilər.

## Ədəbiyyat

1. Qurani-kərim
2. Nəhcülbəlağə
3. İslamda insan haqları, Əbdülhəkim Süleymani (əsas qaynaq)
4. İslam və ərəb sivilizasiyası, Qustav Loben, 1996
5. Sivilizasiyalar tarixi, Vil Dorant, 1999
6. İslam və insan haqqları, Marsel Bazar, 2001
7. İslamda insana məhəbbət, Marsel Bazar, 2001
8. İslamın orta əsrlərdə Avropaya təsiri, Montqomeri VT, 2006
9. islamın sürətli inkişafı, Loravaksiya Vagleri, 2003
10. Əs-sirətul nəbəviyyə, Muhəmməd ibn Haşim, 2007

# İmam Əlinin müdiriyyəti

**İlkin Nəcəfov**[1]

**Abstrakt**

Allah-təala öz dinini bəşərin hidayəti üçün və mənəvi kamilliyin ən ali zirrvəsinə çatdırma üçün insanlara göndərmişdir. Ona görə də, peyğəmbərlə hər ümmətə gələrək, onlara bu yolda yardımçı olumşlar. Peyğəmbərlərdən sonra dində və cəmiyyətdə bəzi təhriflərin yaranmasının qarşısını almaq, insanlara doğru yolu göstərmək və onları ədalətli şəkildə müdiriyyət etmək üçün vəsilər və imamlar təyin edilmişdir. Bu, bir qayda olaraq Allahın lütfünə dayanan prosessdir. İslam ümməti də bu qaydadan xaric deyildir. İmam Əlinin baxış bucağına görə, "yoxsulluq zəkalı və istedadlı insanı kar və lal edir". İnsanların bir-birlərinə qarşı düşmən münasibət, paxıllıq, kin-küdurət bəsləməməsi, fədakar, mehriban, səmimi, öz vətənində qərib deyil, doğma olması üçün yoxsulluğu aradan qaldırmaq lazımdır.

**Açar sözlər:** İslam, peyğəmbər, imam, müdiriyyət, ədalət

[1] - İslam araşdırmaları fakültəsinin məzunu, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, İran, Qum

**Giriş**

İslam tarixçiləri arasında geniş yayılmış rəyə görə Əli (ə) Yəmən hökmdarı Əbrəhənin Kəbəyə doğru Fil yürüşündən otuz il sonra Rəcəb ayının 13-də dünyaya gəlmişdir. Şeyx Mufid "ət-Təhzib" əsərində yazır: "O həzrət Yəmən hökmdarı Əbrəhənin Kəbəyə doğru Fil yürüşündən otuz il sonra Rəcəb ayının 13-də Məkkə şəhərində, Kəbə evində anadan olmuşdur."[1]

Hafiz Gənci Şafei "Kifayətut-talib" əsərində Hakim Neyşaburiyə istinadən belə qeyd edir: "Əmirəl-möminin Əli ibn Əbutalib Fil əhvalatından otuz il qabaq, Rəcəb ayının 13-də, cümə axşamı Kəbə evində dünyaya gəlmişdir. Ondan başqa, nə ondan əvvəl, nə də sonra heç kim orada dünyaya gəlməmişdir, O, bu şərəfə nail olmuş yeganə insandır."

İbn Şəhraşub "Mənaqib" əsərində Əbu Əli ibn Həmmamdan belə nəql edir: "Fatimə bint Əsəd körpəni dünyaya gətirdikdən sonra Əbutalib onun əlindən tutub Əbtəh vadisinə sarı gedərək deyir: "Ey zülmət gecənin və parlaq ayın Rəbbi! Öz qəti hökmünlə bu körpənin adını bizə bəyan et!" Bu vaxt yerdən buluda bənzər bir qaraltı qalxıb Əbutalibin sinəsinə yapışır. Əbutalib görür ki, bu, yaşıl rəngli bir lövhədir və üzərində yazılıb: "Sizə gözəl, pak, seçilmiş bir uşaq verilib. Onun adı Əlidir və bu ad Əliyyul-Əlanın (Allahın) adından götürülmüşdür." Bəşər tarixində ilk və tək insan olaraq Kəbə evində doğulan İmam Əlinin anası Fatimə bint Əsəd Kəbə evindən eşiyə çıxarkən ona qeybdən belə bir səs gəlmişdi: "Ey Fatimə, bu uşağın adını Əli qoy! Əzəmətli Allah buyurur ki, Mən onun adını Öz adımdan seçdim, ona Öz ədəbimdən öyrətdim, Öz elmimi ona təlim etdim..."[2]

Əgər biz insanlığın məna çalarlarının qəlb və ruhda yarandığına inansaq, o zaman Əli ibn Əbu Talibin dünyaya gəlişinin xeyirxahlıq missiyasına inam və onu müdafiə təməli üzərində möhkəmləndiyini görə bilərik. Çünki Məhəmmədin böyüyüb boya-başa çatdığı evin ruhu doğularkən təbii olaraq Əliyə keçmişdir.

---

[1] - Şeyx Mufid "ət-Təhzib", Darüt-təaruf, 1401 hicri-qəməri, birinci çap, səh. 26

[2] - İbn Şəhr Aşub Məhəmməd ibn Əli Mazəndərani, Mənaqibi-Ali Əbi Talib, Qum, əl-Mətbəətül-aləmiyyə, Tarixsiz, səh.68

Əlinin əxlaqı atası Əbu Talibin evinin bu mənəvi aurası ilə yoğrulmuş, inkişaf etmişdi. Məhəmmədin sözlərini ilk dəfə məhz bu evin divarları dinləmiş, İslama çağırışın ilkin mərhələsi bu evdən başlamışdır. Məhəmməd onu bağrına basıb getdiyi hər yerdə “bu, mənim qardaşımdır” deyəndə Əlinin hələ heç dörd yaşı yox idi. Əli “Qasiə” adlı xütbəsində Məhəmmədlə olan bağlılığının bu incəliyinə işarə edərək demişdir: “Siz mənim Allah rəsulu (s) ilə olan yaxın qohumluq əlaqələrimdən və xüsusi münasibətlərimdən xəbərdarsınız. Uşaq yaşlarında o, məni qucağına götürər, sinəsinə sıxar, bədəninin xoş ətrini hiss edəcək qədər yaxınlığında yatırdardı. Məndən heç vaxt yalan eşitmədi, səhv hərəkətimi görmədi. Uşaq anasının dalınca düşdüyü kimi, mən də onun dalınca düşürdüm. Öz əxlaqından mənə hər gün bir dərs öyrədir, məni ona tabe olmağa istiqamətləndirirdi”.

## İmam Əli (ə) və ədalət prinsi

Əlinin bütün səy və fəaliyyətləri insanları yoxsulluqdan xilas etməyə köklənmişdir. İdarə etdiyi hökumətin qanunları bu prinsipə əsaslanmışdır.

Əli zahidanə həyat tərzi seçməsinə, çətin vəziyyətdə yaşamasına baxmayaraq, xalqın yoxsulluq içində həyat sürməsinə razı olmamışdır. Əgər belə olmasaydı, əyanlara, xalqın var-yoxunu talayan qəsbkarlara qarşı çıxmazdı, qəsbkarların qeyri-qanuni yollarla topladıqları sərvəti əllərindən alıb əsl sahiblərinə, ehtiyaclı insanlara qaytarmazdı.

Şəəbi yazır: “Gənclik dövrüm idi. Kufə meydanına daxil olduğum zaman Əlinin biri gümüş, biri qızıl pullar toplanmış iki kiçik təpəciyin başında durduğunu gördüm. Əli həmin pulları son qəpiyinə qədər oraya toplaşmış insanlar arasında bölüşdürdü, bir qəpik belə özünə götürmədən evinə döndü”.

Əlində olan mal və sərvətin hamısını yoxsullara paylayıb özünə heç bir qəpik də götürməyən bu şəxs üzünü camaata tutub deyirdi: “Dünyan üçün sanki əbədi yaşayacaqsanmış kimi çalış!”

Əlinin nəzərində haqqın istiqamətləndiyi ən yaxşı və ən üstün yol xalqın ehtiyaclarının ödənildiyi yoldur. Bu barədə onun əlavə

şərh və izaha ehtiyac duyulmayacaq qədər aşkar olan bir kəlamı vardır:

"Əgər haqqın yolu ilə getsəniz, yollar sizə sevinc və fərəh bəxş edər, aranızda ehtiyaclı qalmaz!"

Cahiliyyət dövrünün ərəblərinin rəzil həyatla kifayətlənmələrini tənqid edərkən deyir: "Siz ərəblər daşların arasında yaşayırdınız, çirkli su içirdiniz, pis yeməklər yeyirdiniz".

Əli dadlı yeməklərə, yumşaq və zərif paltarlara, gözəl evlərə nifrət etmədiyini açıq-aşkar ifadə edir. Bunlardan ona görə uzaq durur ki, yoxsul və məzlumların olduğu bir cəmiyyətdə bu vasitələrdən istifadə digərlərinin onlardan məhrum olması ilə nəticələnir. Əlinin bu kəlamından belə başa düşülür ki, o, hər şeydən əvvəl, insanların həyatın bütün imkanlarından kifayət qədər istifadə etməsini istəyir. Cəmiyyətdə toxluq hissinin nə olduğunu bilməyən, hətta bir tikə çörəyə də gümanı gəlməyən bir nəfər belə olmuş olsa, həmin cəmiyyətin rəhbəri bu insanın çəkdiyi əziyyəti çəkməli, onun kimi yaşamalıdır ki, bu aclıq və yoxsulluq kabusuna son qoya bilsin. Əgər belə olmasa, rəhbərliyin, hökumətin heç bir dəyəri olmaz.

Əli buyurmuşdur: "Mənə müsəlmanların rəhbəri deyildiyi halda onların çətin günlərinin həmdəm və ortağı olmayımmı?"

Əlinin nəzərində yoxsulluq və kasıblıq həmin dövrün ən ağrı-acı verən cəhəti hesab edilmişdir. Qızının bayram günündə mirvari boyunbağı taxmasına ona görə etiraz edir ki, başqa qızlar belə bir boyunbağı taxmaq imkanına malik deyillər. Öncə də qeyd etdiyimiz kimi, Əli qızının bayramların birində mirvari boyunbağı taxmasına qarşı çıxır və icarəyə götürdüyü bu boyunbağını beytulmala geri qaytarmasını tapşıraraq deyir: "Ey İbni Əbu Talibin qızı, haqq yoldan uzaqlaşma, bayram günü ənsar və mühacirlərin bütün xanımları bu cür zinət əşyaları taxacaqlar?"

Burada diqqət çəkən çox incə məqamlardan biri Əlinin "əyan və əşrəfin xanımları" deyil, "bütün xanımlar" deməsidir...

Əli xalqın idarəçiliyini öhdəsinə götürdüyü ilk saatdan vəzifəsinə məhz bu nöqtədən başlamışdır: "Bütün əhali çörək, su və geyimlə təmin edilməlidir!" Bu davranış tərzi sosializm sisteminə daha yaxındır.

Əlinin fəaliyyətə bu nöqtədən başlaması təbii bir haldır. Çünki o, yaxşı bilirdi ki, Allahın insanları tənbeh etmək üçün qamçıları çoxdur. Amma onların heç biri yoxsulluq qədər ağrıverici deyil. Kəlamlarının birində demişdir: "Allah bəndələrini yoxsulluq qədər ağrılı qamçı ilə vurmamışdır". Halbuki zahirdə özlərini zahid kimi göstərən bəzi riyakarlar zahidanə həyat tərzini təbliğ etmiş, insanları bu cür yaşamağa rəğbətləndirməyə çalışmışlar. Əlbəttə, onların bilərəkdən və ya bilmədən atdıqları bu addımlar, əslində, yanlışdır. Çünki Əli də Peyğəmbər kimi yoxsulluğa qarşı çıxmışdı, tərəfdarları və davamçılarının rəhbəri, əməvilər tərəfindən qətlə yetirilmiş böyük inqilabçı Əbuzər Qəffarikimilər bu həyat tərzinin səbəbkarlarına qarşı mübarizə aparmışlar.

Əli çox yaxşı dərk edirdi ki, yoxsulluq bütün üstün keyfiyyətləri məhv edəcək dərəcədə kafirliyə vasitə olur. Bu səbəbdən də Əli hər yerdə, bütün meydanlarda yoxsulluqla mübarizə aparmış, yoxsulluğa aparan yolların qarşısında səd çəkmiş, yoxsulluğa səbəb olanların axırına çıxmağa çalışmışdır. Belə ki, Əli buyurmuşdur: "Yoxsul öz vətənində qəribdir!" Həyatın ən ağrılı hadisəsi ölümdür, amma Əliyə görə əziyyəti yoxsulluqdan azdır: "Ən ağır ölüm yoxsulluqdur".

Əlinin yoxsul və yoxsulluğun yaxşı olduğunu təbliğ edən münafiqin bədəninə endirdiyi bu qamçı nə qədər də müqəddəs və gözəldir. Bu zərbə vasitəsilə Əli onları odun samanı yandırıb kül etdiyi kimi məhv edir, gözləri önündə hiylə və kələklərini kökündən qoparır. O öz fikir zərbəsini belə ifadə edir: "Əgər yoxsulluq mənim qarşımda bir insan surətində təcəssüm edərsə, onu öldürərəm!"

Əli ibn Əbu Talibə görə, cəmiyyət heç bir ziddiyyətin olmaması, əsasını hüquq və vəzifə ixtilaflarının təşkil etmədiyi gərəkən vahid bir bədəndir. Əli ibn Əbu Talibin olduğu cəmiyyətdə bir üzv ac, başqa bir üzv tox olmamalıdır, işləyən üzv mənfəət bölgüsündə işsizlə bərabər tutulmamalıdır. Əli ibn Əbu Talibin həyatında elə bir gün olmadı ki, onu Allah bəndələrinə xidmətə sərf etməsin. O, hətta ən xırda işə belə böyük əhəmiyyət vermişdir. Çünki Allahın bəndələri kamil yaranış nümunələridir. Əlinin insanlara və həyata baxışı Peyğəmbərin baxışı ilə eyni idi:

“Biz gecəni (hər şeyi bürüyən) örtük etdik. Gündüzü isə dolanışıq (ruzi qazanmaq) vaxtı etdik.

**İmam Əli (ə) idarəçiliyinin əsas prinsipləri**

Əliyə görə, hakimiyyət Allahın bir fərdə həvalə etdiyi, həmin fərdin və ona yaxın olan insanların da istədikləri qədər bu postda qala biləcəkləri bir haqq deyildi. Belə ki, sonralar Əməvi və Abbasi sülalələrinin hakimiyyət başında olduqları zamanlarda, orta əsr Avropasında olduğu kimi, dövlət sülalə prinsipləri əsasında idarə edilmişdir. Həmin dövrlərdə hökumət başçısı “Allahın yer üzündəki kölgəsi” kimi təqdim edilirdi. Onlar xalqa təlqin etməyə çalışırdılar ki, dövlət rəhbərinin iradəsi Allahın iradəsi, onun fərmanı göyləri yaradanın fərmanıdır. Əsla ona qarşı getmək olmaz!..

Əliyə görə, dövlət xalqın haqqıdır, xalq istədiyini rəhbər seçə və istədiyini tutduğu vəzifədən kənarlaşdıra bilər. Əli buyurmuşdur: “Səni rəhbər seçdikləri və hamının onda ittifaq etdikləri zaman xidmətlərində dur, ixtilaf yarandığı zaman təqdiri özlərinə burax”. Başqa bir yerdə belə buyurmuşdur: “Diqqətli olun! Əgər haqq olduğunu hesab etmirsinizsə, qəbul etməyin, yox, əgər haqq hesab edirsinizsə, yardım göstərin! Haqq və batilin hər birinin öz tərəfdarları vardır”.

Dövlət rəhbərinin iqtidar və nüfuzu faydası olan sosial qanunların icrasından güc alır. Beyət xütbəsində Əli belə qeyd edir: “Camaat, mən sizlərdən birinizəm, sizə dəyən xeyir və ziyan mənə dəymiş olur, haqqın qarşısını heç nə ala bilməz”. Başqa bir xütbəsində buyurmuşdur: “Camaat, and olsun Allaha, mən sizi əməl etmədiyim heç bir itaətə dəvət etmirəm, sizlərdən əvvəl çəkinmədiyim, uzaq durmadığım heç bir çirkinlikdən və günahdan çəkindirmirəm”.

**Buna görə də dövlət başçısına rəhbər olduğu üçün deyil, ədalətli, faydalı və xeyirli, sosial qanun və hökmlərin icrasında dəqiq olduğuna görə itaət göstərilməlidir.**

Əlinin baxış bucağına görə, hakimiyyət rəhbərin özünün doyunca istifadə edəcəyi, qohum-qardaşları, dostları və yaxınları arasında bölüşdürəcəyi beytülmal və sərvətin üzünə açılan bir qapı deyil. Hakimiyyət dövlət başçısının insanlar arasındakı bərabərliyi

ən mümkün həddə reallaşdıran, hər bir fərdi zəhmət və əziyyəti müqabilində qiymətləndirən, möhtəkirlik və istismarın qarşısını alan, hər zaman və hər bir vəziyyətdə, hətta dövlət başçısının bədxahlar tərəfindən qətlə yetirilməsi bahasına olsa da belə, haqq və ədaləti diqqət mərkəzində saxlayan "ədalətin bərpası" üçün açdığı bir qapıdır. Dövlət başçısı qəlbləri və ağılları xeyirxahlığa sövq etməlidir. Bu xeyirxahlıq insanların əxlaqı, davranışı və həyat tərzində sabit qaydalara çevrilməlidir. Hakimiyyət başına gəldikdən sonra Əli məmurlarından birinə belə məktub yazır: "Amma sonra hakimiyyət sənin üçün istifadə edəcəyin mal, intiqam alaraq soyudacağın bir qəzəb vasitəsi olmamalıdır, vəzifən nahaqqı ortadan qaldırmaq, haqqı yaşatmaqdır".

Əlinin nəzərində hakimiyyət xalqın haqqını despot və təcavüzkarlardan almaqdır, çünki "Allahın əli xalqladır". Hökumət dostluq, yoldaşlıq və yaxınlığa əsaslanmamalıdır. Əli xəlifəliyə bu cür yanaşanların məntiqinə təəccüblənir və bu təəccübünü həqiqətin özünə bənzər, qısa və lakonik, dərin məzmunlu, ritorik və sadə bir cümlə ilə ifadə edir. İşlətdiyi bu cümlə sanki ruh və ağıldan qaynaqlanan bir qığılcımı xatırladır: ***"Əcəba, görəsən, xəlifəlik dostluq və qohumluqla şərtlənir?"***

Əlinin nəzərində hakimiyyət fəxr mənbəyi, hər hansısa bir sülalənin qədimdə malik olduğu mövqeyini yenidən qaytarması, taxt-tac sahibi olması, xalqı qula çevirməsi üçün istifadə etdiyi bir vasitə deyil: "Təvazökarlıq kimi ucalıq, elm kimi şərəf yoxdur", "Güzəşt və mərhəmət qohumluq hisslərindən daha mehriban bir hissdir".

Əlinin nəzərində hakimiyyət xalqı müti etmək üçün qılıncdan keçirmək, yandırmaq, qarət etmək, qan tökməklə əldə edilən zorakı və maddi qələbə ilə şərtlənmir. Mənəvi qələbə də insanların qorxu və ümidlə dövlət başçısına tabe olması deyil. Çünki Əli Allaha mükafat və ya əzab qorxusundan ibadət edən bir öndər deyil. Əli Allaha ibadətə layiq olduğu üçün ibadət edir. Əlinin nəzərində hökumət fərdi, sosial və bəşəri vicdanı diqqət mərkəzində saxlayan, yalnız xeyirxahlıq üçün çalışan, görülən işləri qiymətləndirmək, xeyirli və zərərli olduğuna qərar verməleri, təsdiq və inkar etmələri

üçün dövlət başçısının fəaliyyətini xalqın nəzarətinə buraxan bir vasitədir.

Hakimiyyət iqtidara gəldikdən sonra dövlət başçısının yalnız öz fikir və rəylərini diktə etməsi deyil. Şura və məsləhətləşmə ən ədalətli idarəetmə sistemidir. Xalqın dövlət başçısından yalnız essensial olaraq bəzi fəaliyyətlərin müəyyən müddətə qədər gizli saxlanılması istisna olaraq, "xalqdan heç nəyi gizlətməməyi, heç bir addımı xalqın xəbəri olmadan atmamağı" tələb etmək haqqı vardır.

Xalqın bütün fərdlərinin xeyirlərinə və ziyanlarına olan bütün fəaliyyətlərdə iştirak etmək hüquqları vardır. Bütün rəyləri nəzərə almaq dövlət başçısının zəruri vəzifəsidir. Çünki bu rəylər arasında rəhbərin ağlına gəlməyən, diqqətindən qaçan məqamların olacağı danılmazdır. Əli buyurmuşdur: "Hər kəsin rəy və nəzərinə diqqət yetirən şəxs yanlışlıqlarını tapar". Yanlışlığa yol verdiyi məqamları öyrənən şəxs isə səhvini düzəldə bilər. Deməli, xalqın fikir və rəylərinin nəzərə alınması dövlət başçısının yerinə yetirəcəyi zəruri bir vəzifədir. Xalq isə bu vasitə ilə dolayısı ilə idarəetmə işlərində iştirak etmiş olur. Nəticədə dövlət fəaliyyəti peşmançılıqla nəticələnmir. Əli bu gerçəkliyi heç bir izah və şərhə ehtiyac duyulmayacaq bir dillə çatdırmışdır: ***"Məsləhətsiz işlərdə xeyir olmaz".***

Dövlət başçısı xalqdan gizli bir addım atmamalı, xalqın xəbəri olmadığı işə qol qoymamalıdır. Əli öz müdrik kəlamı ilə insanları bu prinsipi ehtiva edən hüquqları ilə tanış edir: ***"Aydın və işıqlı çırağın işığından işıq alın".***

Əli məktəbində xəlifəlik xalqdan uzaqlaşmaq, millətdən üz döndərmək, diktatura, ümumi vəziyyətə əhəmiyyət verməmək, fərd və cəmiyyətin ehtiyaclarını görməzdən gəlmək deyil. Xəlifəlik dövlət başçısını xalqa yaxınlaşdıran, xalqa qarşı sevgi yaradan, xəlifənin insanlar qarşısında təvazökarlığına səbəb olan, heç bir üzr və bəhanəyə yer qoymayacaq şəkildə insanlara əhəmiyyət verilməsini zəruri edən bir vasitədir.

Qeyd olunanlardan hər hansısa birinə riayət etmədiyi üçün xalqın qəzəbinə gələn dövlət başçısı olanlardan nəticə çıxarmalıdır. Əli bunu çox gözəl bir şəkildə ifadə etmişdir: "Xalqın qəlbi dövlət

başçısının xəzinəsidir, oraya zülm və ədalətə aid hər nə qoyarsa, onu da götürər”.

Əlinin məzhəbində hakimiyyət təəssübkeşliyə əsaslanmır. “Gözəl xüsusiyyətlərin, xeyirli və üstün keyfiyyətlərin mənimsənilməsi, zülm və despotizmdən uzaq durmaq, cinayətkarlığın qarşısının alınması” üçün olan təəssübkeşlik istisna olmaqla heç bir təəssübkeşlik məqbul sayılmamışdır.

Əlinin nəzərində bu tip insanlar dövlət başçısı olmamalıdırlar: “Əgər sizə rəhbərlik etsələr, sizinlə sultan və imperatorlar kimi davranacaqlar”, “hiyləgər, yalançı, məkrli, kələkbaz”, “zalım və despot”, “rüşvətxor”, “yeməyi tox olanlara verən şəxslər”.

Əli haqqı bərpa və nahaqqı ortadan qaldırmaqla bağlı qəti qərara gələnə qədər xəlifəliyi bu cəhətlərə görə qəbul etmədi. Əks-təqdirdə, həyatla vidalaşmaq İmamın nəzərində həyatı davam etdirməkdən yaxşı idi.

Bu səbəblərdən insanları hakim dairələrdən hesabat tələb etməyə, xidmət göstərməyən dövlət başçısını qəbul etməməyə, lazım gəldikdə qəzəb və narazılıqlarını bildirməyə çağırırdı. Üzünü xalqa tutaraq deyirdi: “Əbləhlərin sizə rəhbərlik etməsindən qəzəblənmirsiniz, intiqam almırsınız?.. Nəticədə siz xar və məhvə məhkum olacaqsınız, nəsibiniz bədbəxtlik və ziyan olacaq”.

İmam zülmə, despotizmə nifrət və qəzəbi haqq-ədalətə olan razılıqla müqayisə edir: “İnsanlar qəzəb və razılıq ətrafında dövrə vururlar. Hər kəs xoşladığına üz tutur, nifrət bəslədiyindən uzaq durur”.

Məhz bu səbəblərdən o özündən sonra xəlifəliyi heç kəsə vəsiyyət etməmişdir. İnsanlar toplaşıb özündən sonra oğlu Həsəni xəlifə təyin etməsini istədikləri zaman bu təklifi qəbul etməmiş və onlara ən ali dəyərlərə malik bir rəhbəri səciyyələndirən cümlə ilə xitab etmişdir. Bu cümlə onun insanların öz seçimlərində azad olduqlarını ifadə edən son etirafı olmuşdur: “Mən sizə nə əmr etmirəm, nə də qadağa qoymuram, siz özünüz daha yaxşı bilirsiniz!”

Əli xalqın azadlığına çox yüksək qiymət vermiş, hətta onları özünə yaxınlaşmaq və ya uzaqlaşmaqda azad buraxmışdır. Əlbəttə, bu, əksəriyyətin ona beyət etməsindən sonra baş vermişdir. Xəlifəlik seçimindən sonra bir qrupun ondan uzaqlaşması, əslində, xalqın

seçim haqqına hörmətsizlik idi. Amma Əlinin bu istiqamətdəki davranış tərzi də fərqli idi.

Əli zorakılıq və məcburiyyətlə əldə olunan istənilən şeyə nifrət bəsləmişdir. Ona beyət etməmiş insanlara qarşı göstərdiyi davranış tərzi bu təfəkkür tərzindən qaynaqlanırdı. O, heç bir vaxt çaşqınlıq içində olmamış, yolundan çəkilməmişdir. Kimisə məcbur etməməsinə baxmayaraq, xalqın iradəsinə ziyan vuran insanları da gözdən qoymamışdır. Əli onlara öz fikirlərində qalmağa icazə versə də, xalqın hakimiyyət hüququ adı altında cəmiyyətin taleyini həll edən məsələlərə müdaxilə etmələrinə icazə verməmişdir. Belə ki, şura üzvlərindən olan Səd ibn Əbivəqqas İmam Əliyə beyət etməkdən boyun qaçırır. Yalnız heç bir təhlükə yaratmayacağı ilə bağlı iltizam aldıqdan sonra Əli onu azad buraxır.

Hakimiyyət xalqa məxsusdur. Xalqın məsləhət və mənafeyi istisna edildiyi hallarda beyətdə məcburiyyət yoxdur. Bu aspekt azadlıq məsələsində dövlət başçısı ilə xalq arasındakı əlaqəni yüksək səviyyədə izah edir. Bu səbəbdən də Əlinin təyin etdiyi məmurlara qeyd olan prinsiplər əsasında davranmağa göstəriş verməsi təbiidir. Əli onların işlərinə çox ciddi nəzarət etmişdir. O, xalqın hüquqlarının qorunması vacib şərt olan məsələlərdə məmurlar üzərindəki ciddiliyini çox kəskin şəkildə büruzə vermişdir. Əli xalqın özünə əsaslanan "idarəetməyə nəzarət sistemi" yaratmışdı.

Əli əyalətlərə valilər, şəhərlərə icra başçıları təyin etdiyi zaman xalqa elan etmək şərtilə onlara müqavilə təqdim edirdi. Elan edildikdən sonra bu müqavilə əhali tərəfindən qəbul edilsəydi, adamların onun şərtlərini heç bir halda pozmağa ixtiyarları yox idi. Təyin olunmuş məmurun da bu müqavilənin bəndlərini öz istədiyi şəkildə izah etmək, pozmaq və ya təhrif etmək səlahiyyəti yox idi. Əgər məmur müqavilənin hər hansısa bir şərtini pozmuş olsaydı, Əli dərhal onu cəzalandırardı.

**Nəticə**

Cəmiyyətin fərdlərini bir-birinə bağlayan əlaqə və münasibətlər fərdi və sosial olmaqla iki səciyyəyə malikdir. İmam insanlara xoşbəxt həyat bəxş etmək, onlara azadlığın ən gözəl forma və məzmunlarını əldə edib geniş bəşəri üfüqdə yaymaq imkanı yaratmaq üçün siyasət, hakimiyyət və idarəçiliyini fərd və cəmiyyəti islah etməyə həsr etmişdir.

Əlinin bu istiqamətdə atdığı ilk addım haqq və düzgün olanı təsdiq edəcəyini, yanlış və batil olanı ortadan qaldıracağını elan etməsi idi. Əli bu addımı ilə insanları fərdi və sosial cinayətə təhrik edə biləcək yanlış düşüncələrin qarşısını alır. Çünki onlar dostluq, qohumluq və ya göstərdikləri xidmətlərə görə nəticəsi xalqın zərərinə olan günahlarının bağışlanılacağına ümid bəsləyə bilərdilər.

O, xəlifəlikdən həm əvvəl, həm də sonra üzərinə düşən bu məsuliyyəti və vəzifəni danışığı və əməlləri ilə təsdiq etmişdir. O, xalqa – xeyirxahlığı və xeyirxahlıq amillərinin möhkəmləməsini diqqət mərkəzində saxlayan müsbət bir nümunə təqdim etmişdir. Özünkü və ya qeyrisi, yaxın və ya uzaq, dost və ya düşmən olmasından asılı olmayaraq, cəza tədbirlərinin tətbiqində ciddilik nümayiş etdirmişdir.

İmam insanların onu yaxşı tanıdıqlarından əmin idi. O bilirdi ki, xalq onun zahidliyindən, məsumluğundan, zahidlik və ismətdən də yüksəkdə dayanan qanun və prinsiplərə bağlılığından yaxşı xəbərdardır. Bu nüans İmamın yaşamaq üçün vacib olan istisna olmaqla maddi və nəfsani istəklərdən uzaq durmaq üçün göstərdiyi yüksək diqqətlə izah edilir. Əslində, bunun başqa bir izahı da var. İnsani hissləri və oyaq vicdanı onu çarəsizlərin, miskinlərin sığınacağına çevirmişdi. Əli adamları zülm və əsarətdən azad etməyə, qanuni haqları çatan hər növ ehtiyaclarını təmin etməyə çalışırdı.

İmam özündən də əmin idi. Sarsılmaz vicdanı onu bütöv bir çörəyin nə olduğunu bilməyən fərdlərin yaşadığı bir cəmiyyətdə tərtəmiz bal yeməyə heç vaxt imkan verməmişdir. Hətta köhnə və yamaqlı paltara belə ehtiyacı olan bir cəmiyyətdə heç vaxt ipək paltar geyinməmişdir. Ona "müsəlmanların rəhbərisən" deyildiyi

halda, xalqın çətin günlərinə şərik olmamağı özünə sığışdıra bilməmişdir.

Əli özünü nəsil-nəcabətləri və tutduqları vəzifələrilə öyünən hökmdarların bu fəxarət xəstəliyindən, mal, mülk, vəzifə tamahkarlığı, təkəbbür və eqoizmdən, sağlam düşüncəyə zidd, ictimai faydası olmayan bütün adət-ənənələr çərçivəsindən xilas və azad etmişdir. Xalqa aid sərvətin paylanmasında yaxınlarını və sevənlərini digərlərindən üstün tutmaq, düşmənlərinə qarşı kin bəsləmək, pisliyini istəyənlərdən intiqam almaq hissindən azad olmuşdur. Vicdanını düzgün olduğuna əmin olmadığı bir işə dəvətdən və bəyənmədiyini danışmaqdan azad etmişdir. Buna görə də Əli böyük vicdana və əzəmətli ruha malik idi.

Əli bədənini yemək, içmək, geyinmək, mənzil ehtirasından azad etmiş, onların yalnız həyat üçün zəruri olan miqdarı ilə kifayətlənmişdir. O bu zəruri ehtiyaclarını beytülmaldan da ödəməmişdir. Halbuki rəhbərlik fəaliyyətinə görə buna qanuni haqqı çatırdı.

**Ədəbiyyat**

1. Qurani-kərim
2. Nəhcül-bəlağə
3. Osman, Taha Hüseyn, Darül Maarif, 1951
4. İbn Şəhr Aşub Məhəmməd ibn Əli Mazəndərani, Mənaqibi-Ali Əbi Talib, Qum, əl-Mətbəətül-aləmiyyə, Tarixsiz
5. Hafiz Gənci Şafei "Kifayətut-talib", Qum, Məktəbətül-elamil-islami, 1415 hicri-qəməri.
6. Şeyx Mufid "ət-Təhzib", Darüt-təaruf, 1401 hicri-qəməri, birinci çap

# İsmailiyyə məzhəbi haqqında araşdırma

**Nəzrin Əliyeva**[1]

**Abstrakt**

Şiə məzhəbli firqələrdən biri də İsmailiyyə məzhəbidir. İsmailiyyə istər e'tiqadi, istərsə də tarixi baxımdan islam dünyasında böyük əhəmiyyət kəsb etmiş, öz mövqeyini qoruyub saxlayaraq bu günkü günədək davam gətirə bilmişdir. Bu məzhəb hal-hazırda islam dünyasının bir çox ölkələrində müstəqil firqə şəklində fəaliyyət göstərir, istər cəmiyyət, istərsə də müsəlman alimlərinin arasında xüsusi yer tutur. Bu cərəyan şiələrin altıncı imamı Cə'fər ibni Məhəmməd Sadiq şəhid olduqdan sonra qısa bir müddət ərzində meydana gəlmişdir. İsmailiyyə digər firqələrdən fərqli olaraq, imam Sadiqin (ə) böyük oğlu İsmaili imam kimi qəbul edir.

**Açar kəlmələr:** İsmailiyyə, İmam Sadiq, şiə, məzhəb

[1] - İslam araşdırmaları fakültəsinin tələbəsi, Hikmət və Dinlərarası Araşdırma İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, İran, Qum

**Giriş**

Altıncı imam vəfat etdikdən sonra şiələr beş firqəyə bölünmüşlər:

1. ***Navusiyyə;***

Onların əqidəsinə əsasən, altıncı imam vəfat etməmişdir və hələ də yaşamaqdadır. O, Peyğəmbərin (s) nəslindən olan və zühurunun intizarı çəkilən Məhdidir. Zühur etdiyi gün bütün aləmə imamət (rəhbərlik) edəcəkdir. İsmailiyyə Cə’fər ibni Məhəmməddən belə bir rəvayət nəql edir: «Dağdan başımın aşağı endiyini (yə’ni, qətlə yetirildiyimi) görsəniz belə, yenə də inanmayın və bilin ki, mən sizin ağanız və rəhbərinizəm». Başqa bir rəvayətdə deyilir: «Əgər sizin yanınıza gəlib xəstələndiyimi və ya vəfat etdikdən sonra mənə qüsl verib kəfənləndiyimi xəbər versələr də inanmayın, çünki mən sizin ağanız və rəhbərinizəm».

Bu firqə onu tə’sis edən şəxsin - Əcəlan ibni Navusun - adı ilə bağlı olaraq Navusiyyə adlandırılmışdır və hal-hazırda tamamilə aradan getmişdir.

2. ***İsmailiyyə;***

Bu firqənin ardıcılları Cə’fər ibni Məhəmməddən sonra oğlu İsmaili imam kimi qəbul edirlər. Onlar hələ atası sağ ikən İsmailin vəfat etdiyini inkar edərək demişlər: İsmailin ölümü və dəfn mərasimi onun Abbasilərdən qorunması üçün atası tərəfindən qurulmuşdur. Sonralar İsmailiyyə bir neçə firqəyə bölünmüşdür və bunun ən başlıca səbəbi İsmailin imaməti, sağ və ya vəfat etdiyinə dair aparılan mübahisələr olmuşdur. (Bu barədə növbəti dərslərimizdə söhbət açacağıq). Lakin İsmailiyyə firqələrinin müştərək cəhəti imamət məsələsində İsmailin bu işə daha layiq olması və onun altıncı imamın digər övladlarından üstünlüyünə olan e’tiqad təşkil edir.

3. ***Fəthiyyə;***

Fəthiyyə imam Cə’fər Sadiqin (ə) ikinci övladı olan Əbdullah ibni Cə’fərin davamçılarına verilən addır. Baş və ayaqları enli olduğu üçün Əbdullah «Əftəh» ləqəbi ilə məşhur olmuşdur. Bu

səbəbdən də bu firqəyə Fəthiyyə adı verilmişdir. Tarixi sənədlərə əsasən Əbdullah özünü atasının canişini e’lan etmişdir. Bu səbəbdən də atası vəfat etdikdən sonra bə’ziləri ona qoşularaq Fəthiyyə firqəsinin bünövrəsini qoymuşlar. Fəthiyyə davamçıları belə bir əqidəyə əsaslanırlar ki, Əbdullah vəfat etdikdən sonra imamət onun oğluna çatacaqdır. Lakin övladı olmadığı üçün və özü də atasının vəfatından sonra yalnız yetmiş gün yaşadığı üçün onun tərəfdarları yeddinci imam Cə’fər Kazimə (ə) üz tutdu. Beləliklə, Fəthiyyə firqəsinə son qoyuldu.

4. ***Səmitiyyə;***

Səmitiyyə firqəsinin tərəfdarları Məhəmməd ibni Cə’fəri imam kimi qəbul etmişlər. Məhəmməd ibni Cə’fər «Dibac» ləqəbi ilə məşhur olan cəsur bir şəxsiyyət olmuşdur. Hicrətin 199-cu ilində Məkkədə Mə’muna* qarşı qiyam etmişdir. Zeydiyyə firqəsinin davamçıları bu qiyamda onlara köməklik göstərsələr də, İsa Cəludi onu yaxalayaraq Mə’munə təslim etmişdir. Səmitiyyə firqəsi bu cərəyanı tə’sis edən Yəhya ibni Əbi Səmitin adı ilə adlandırılmışdır. Bu firqə hal-hazırda öz fəaliyyətini tamamilə dayandırmış və tərəfdarlarını itirmişdir.

5. ***Musəviyyə;***

Bu firqə imam Musa Kazim (ə)-ı sonuncu imam hesab edən şəxslərə verilən addır. Musa ibni Cə’fər on iki imamçı şiələrin yeddinci imamı hesab olunur. O həzrət vəfat etdikdən sonra bir çox tərəfdarları onun yenidən qayıdacağına e’tiqad bəsləsələr də, hal-hazırda Musəviyyə firqəsi tamamilə öz fəaliyyətini dayandırmışdır.

## İSMAİLİYYƏ MƏZHƏBİNİN TƏSİSÇİLƏRİ

Altıncı imamın vəfatından sonra şiələrin ümumi vəziyyəti və onların beş firqəyə ayrılmaları artıq mə’lum oldu. Bəs görəsən İsmailiyyə firqəsi kimlər tərəfindən tə’sis olunmuşdur?

İsmail ibni Cə’fər özü imamlıq iddiası edib bu firqənin bünövrəsini qoymuşdurmu? Yoxsa, bu məzhəb başqa bir şəxs tərəfindən meydana gəlmişdir?

Qeyd etdik ki, İsmail imam Cə’fər Sadiqin (ə) övladı olmuşdur və tarixi dəlillərə əsasən, ən azı onun özündən heç olmasa beş il əvvəl vəfat etmişdir. Bu da Hicrətin 143-cü ilinə təsadüf edir. Görkəmli rical* alimlərindən olan Zərkəli öz kitabında İsmailin vəfatını Hicrətin 143-cü ilinə aid edir. İbni Ənbə isə İsmailin vəfatının Hicrətin 133-cü ilində baş verdiyini qeyd edir. İsmailiyyə məzhəbli yazıçılardan olan Arif Tə’mər bu hadisənin Hicrətin 138-ci ilində baş verdiyini qeyd etmişdir.

Bir çox hədis və rəvayətlərdə İsmailin hələ atası sağ ikən vəfat etdiyi nəql olunmuşdur. İmam Sadiq (ə) onun dəfn mərasimində oğlunun vəfat etdiyinə şəhadət vermiş, hətta bə’zilərinin sonradan bu barədə şəkkə düçar olacaqlarını iqrar etmişdir. Nö’mani və Zurarət ibni Ə’yundan bu məzmunda nəql olunmuş rəvayətdə deyilir: Əbu Əbdullah Cə’fər ibni Məhəmməd Sadiqin evinə getdim. Oğlu Musa o həzrətin sağ tərəfində, İsmailin cənazəsi isə qarşısında idi. İmam mənə Davud ibni Kəsiri, Həmran və Əbu Bəsiri çağırmağı əmr etdi. Camaat bir-birinin ardınca oraya gəlirdi. Evin astanasına otuz nəfər yığıldıqda İmam (ə) Davud ibni Kəsirə buyurdu: Cənazənin üzərindən örtüyü götür. Davud, İsmailin üzündən örtüyü götürdükdən sonra Əbu Əbdullah (ə) buyurdu: Ey Davud! O diridir, ya ölü? Davud dedi: Ey mənim mövlam, o ölmüşdür. Sonra imam üzünü bir-bir orada iştirak edənlərə tutub həmin sualla onlara müraciət etdi və hamı İsmailin vəfat etdiyini iqrar etdi. Daha sonra Əbu Əbdullah buyurdu: İlahi! Sən Özün onlara şahid ol! Bunu deyib cənazəyə qüsl verilib kəfənlənməsini əmr etdi.

Qəbrə qoyularkən İmam (ə) Müfəzzələ bir daha əmr edib cənazənin üzünü açıdırdı və daha sonra ondan soruşdu: «O diridir, yoxsa ölü?» Müfəzzəl dedi: Ölü. O həzrət bir daha buyurdu: «İlahi! Sən Özün onlara şahid ol.»

Qəbrə qoyulduqdan sonra üçüncü dəfə Müfəzzələ İsmailin kəfənini açdırıb bir daha onlardan soruşdu: O diridir, ya ölü? Dedilər: Ölü. Bir daha buyurdu: İlahi! Sən Özün şahid ol və siz də ey camaat şəhadət verin. Çünki tezliklə batil əhli şəkk-şübhə yaradaraq Allah nurunu söndürmək istəyəcəklər.

İmam Cə’fər Sadiq (ə) bu qısa çıxışını bitirdikdən sonra oğlu Musaya (ə) işarə edərək buyurdu: «Lakin, kafirlər istəməsələr belə,

Allah-taala öz nurunu tamamlayacaqdır.» Ravi deyir: Sonra İmam (ə) qəbrin üzərinə torpaq tökməyimizi istədi və hələ bu iş qurtarmazdan əvvəl bir daha soruşdu: Qəbirdəki qüsl verilmiş, kəfənlənmiş şəxs kimdir? Dedim: İsmail. Buyurdu: İlahi şahid ol! Sonra Musanın (ə) əlindən tutub buyurdu: Allah dünyanı və onun əhalisini qoruyub möhlət verənədək o haqla, haqq da onunladır.

## İSMAİLİYYƏ FİRQƏSİNİN ETİQADLARI

İki səbəbə görə İsmailiyyə firqəsinin e’tiqadları barədə dəqiq mə’lumat əldə etmək olduqca çətindir. Əvvəla ona görə ki, bu firqə tərəfdarları düşmənlərindən qorunmaq məqsədilə tarix boyu öz əqidə və e’tiqadlarını gizli saxlamış və başqalarının onlara yaxınlaşmalarına şərait yaratmamışlar. Bu sahədə müxtəlif kitablar yazsalar da, onu digərlərindən gizli saxlayaraq kimsənin əlinə düşməsinə razı olmamışlar. Hal-hazırda İsmailiyyə firqəsinin müqəddəs hesab etdiyi və müəmmalı mətləbləri ehtiva edən Əbul Xəttabın «Ummul-kitab» adlı şübhəli əsəri də bu qəbildəndir.

Digər tərəfdən də İsmailiyyə firqəsinin əqidə üsullarının əsasını batinçilik və yozumluq prinsipi təşkil edir. Onlar belə bir əqidədədirlər ki, bütün dini hökmlərin batini mə’naları vardır və onlardan agah olan yeganə şəxs imamın özüdür. Bu səbəbdən də İsmailiyyə bütün dini hökmlər üçün batini mə’nalar nəzərdə tutmuşdur. Yə’ni, bütün işlərin həqiqətini onun zahiri quruluşu və mə’nası deyil, batini mə’nası təşkil edir.

Məhz bu məsələ İsmailiyyə firqəsinin e’tiqad və əqidə üsullarının şübhəli və anlaşılmaz olmasına səbəb olmuşdur. Tədqiqatçı alimlər apardığı araşdırmalar zamanı bir çox hallarda yetkin nəticəyə gələ bilməyib onlar barədə elə bir fikir və fərziyyələr irəli sürmüşlər ki, bunun həqiqətən onlara aid olub-olmamasını dəqiqləşdirmək çox çətindir.

İsmailiyyə məzhəbinə qarşı yaranmış belə bir yanlış tərzi-təfəkkür onların alimlərini bu sahədə onlarla kitab və əsərlər yazıb öz əqidə və e’tiqadlarını müdafiə etməyə vadar etmişdir. Onlara qarşı irəli sürülən ittihamlardan biri də «tənasüx*» və «ibahəçiliyə»* e’tiqad bəsləmələridir.

İsmailiyyə firqəsinin əsas e’tiqadlarını isə bunlar təşkil edir:

1. Tövhid;

Bu məzhəbin davamçıları tövhid mövzusunda Allahın mütləq sifətlərini inkar edərək deyirlər: Allah-taala əql və düşüncədən üstün olduğu üçün məxluqata xas olan diri, alim, qadir, eşidən, görən və sair sifət və xüsusiyyətləri ona aid edə bilmərik.

Onlar Qur'ani-kərimin bir çox ayələrində və nəql olunmuş rəvayətlərdə Allah-taalanın adı çəkilən gözəl ad və sifətlərini isə «ümumi məfhum» olaraq qəbul edirlər. İsmailiyyə firqəsinə mənsub olan təhqiqatçılardan biri bu barədə deyir: Allah-taala məxluqata aid olunan sifətlərdən uca olduğu üçün Onun müqəddəs zatı bu xüsusiyyətlərlə vəsf olunmamışdır. Eyni zamanda məxluqat da olduqca aciz və zəif olduğu üçün Allaha xas olan sifətlərlə vəsf olunmamışdır. Allah-taala lütf və mərhəmət üzündən məxluqatı yaratmış və bütün sifət və xüsusiyyətlər Ona aid olunmuşdur ki, məxluqatı heyrət hissi bürüməsin. Allahın vücudu bütün varlıqların vücudundan ilkindir və bütün varlıqlar yaradılış (xilqət) baxımından Onun vücudundan nəş'ət tapır. Qur'ani-kərimdə «Qələm» ifadəsi ilə zikr olunan ilkin varlıq «lövhi-məhfuz» adlanan ikinci yaradılışı vücuda gətirir. İlk yaradıcı ikinci yaradılışdan əvvəl olduğu üçün «Sabit», ikinci yaradılış isə ilk yaradıcıdan asılı olduğu üçün «Tali» adlanır. Mücərrəd aləmdə olan hər bir şeyin təcəllisi cismani aləmdə mövcud olduğu üçün, birincidə olan mütləq əqlin qarşılığını cismani aləmdə olan imam hesab etmişlər.

2. Cəbr və ixtiyar;

Cəbr və ixtiyara gəldikdə, İsmailiyyə məzhəbi insanı özünə aid olan elm, əqidə, məslək, adət-ən'ənə, gündəlik işlər və s. məsələlərdə tam ixtiyar sahibi hesab edir. Onların fikrincə, belə olmadıqda, peyğəmbərlərin göndərilməsi heç bir nəticə verməyəcəkdir. Bu barədə Nəcm surəsinin 39-40-cı ayələrinə istinad edirlər:

**«İnsana ancaq öz əməli, öz zəhməti qalar!»**

**«Şübhəsiz ki, [qiyamət günü] onun əməli, zəhməti görünəcəkdir.»**

Onlar eyni zamanda cəbr və ixtiyarı qəza-qədərlə ziddiyyətli hesab etmirlər. «Qəzanı» xeyir, vəsiyyət və asudəçilik (qurtuluş), «qədər»i isə təqdir, miqdar və tərbiyə kimi mə'nalandırırlar.

3. Peyğəmbərlik;

İsmailiyyə məzhəbi nöqteyi-nəzərindən peyğəmbərlik iki hissəyə bölünür: 1. Ümumi peyğəmbərlik; 2. Xüsusi peyğəmbərlik. Ümumi peyğəmbərlik dedikdə, əql və təbiət baxımından onun bütün insanlara şamil olduğu nəzərdə tutulur. Ümumi peyğəmbərlik olmadıqda, xüsusi peyğəmbərlik (yə'ni, müəyyən təbəqəyə aid olan) camaat tərəfindən qəbul olunmur.

Qeyd etmək lazımdır ki, imamiyyə şiələri «ümumi peyğəmbərlik» dedikdə, batini hüccət və dəlil olan əqli nəzərdə tuturlar. Allah tərəfindən peyğəmbərliyə tə'yin olunan şəxslərə gəldikdə isə, onları zahiri hüccət adlandırırlar. Müsəlmanlar ulul-əzm peyğəmbərləri beş nəfər hesab etdikləri bir halda, İsmailiyyə alimləri şəriət sahibi və ulul-əzm peyğəmbərləri «Natiq peyğəmbər» adlandıraraq onların sayını yeddiyə çatdırmışlar. Yeddi natiq peyğəmbər bunlardan ibarətdir: Adəm, Nuh, İbrahim, Musa, İsa, Məhəmməd və Qaim. (Qaim dedikdə zühur edərək qiyam edəcəyinə e'tiqad bəslədikləri İsmailiyyənin yeddinci imamı Məhəmmədi nəzərdə tuturlar.)

4. Məad;

İsmailiyyə məzhəbi cismani məadı inkar edir, yalnız ruhani məada e'tiqad bəsləyir və bu barədə deyirlər: İnsan yaşadığı aləmdə həmin aləmə münasib vasitələrə ehtiyac duyur. O bir aləmdən xaric olub başqa bir aləmə qədəm qoyduqda belə, yenə də həmin aləmə münasib vasitələrə ehtiyac duyur. Bu səbəbdən də onlar cism və bədən üzvlərinin yalnız bu dünyaya lazım olduğunu hesab edirlər. Axirət dünyasına gəldikdə isə, oranı ruhani aləm hesab etdikləri üçün məadın cismani olmasına heç bir zərurət duymurlar.

İsmailiyyə məzhəbli şəxslər islamı təzə qəbul edənlərə məadı və ya məad haqqında mə'lumatı olmayan şəxslərə izah etmək istərkən bu əqidəni özünün zahiri mə'nasında yə'ni, cismani olaraq baş verəcəyini bəyan edirlər. Bir çox «miləl və nihəl» kitablarında

İsmailiyyə firqəsinin «tənasüx»ə e'tiqad bəslədiklərinə işarə olunmuşdur, lakin onlar belə bir ittihamı qətiyyətlə rədd edib onu tamamilə batil və əsassız adlandırırlar.

5. Şəriətin batini.

Dərsin əvvəlində qeyd etdik ki, İsmailiyyə alimləri bütün şər'i üsul və hökmlərin zahiri və batini mə'nalardan ibarət olduğunu hesab edirlər. Onlar bu barədə deyirlər: Allah-taala bütün şəriət və ibadi hökmləri elə bir qaydada tə'yin etmişdir ki, onlar hər bir əqli işləri və ilahi hökmləri əhatə edir. İbadət və hökmlər insanın cismi ilə, batini hökmlər isə əql və mə'nəviyyatla bağlıdır. Bu səbəbdən də şəriətin batininə daha çox qiymət verilmişdir. Onlar bu barədə bir çox əsərlər yazmış, hətta Qur'anı öz şəxsi əqidələrinə əsasən təfsir edərək ayə və ifadələrin batini mə'na daşıdığını hesab etmişlər. Məsələn, namazın mahiyyətini haqqa də'vət və imama dua etmək, orucu, ədəb-ərkanı riyakarlardan gizli saxlamaq, cənnəti imama itaət, cəhənnəmi imama qarşı üsyan, həcci elm məqsədilə el-obanı tərk etmək, zəkatı elmi, elmə ehtiyacı olan və həqiqi olaraq qiymətləndirməyi bacaran şəxslərin arasında yaymaq kimi təfsir etmişlər. İsmailiyyənin batinçiliyə olan meyli, müxaliflərinin onları şər'i hökmləri kənara qoyub batini mə'naya kifayətlənməkdə ittiham etmişlər. Yə'ni, namaz qılmaq əvəzinə imama dua edir, Beytul-haramı ziyarət etmək əvəzinə öz əqidələrini yaymağa can atır və s. Lakin İsmailiyyə ardıcılları bu ittihamları rədd edərək hər iki tərəfə e'tiqad bəslədiklərini iqrar etmişlər və şər'i hökmlərin təkcə zahirinə və ya batininə e'tiqad bəsləməyi və əməl etməyi ayrı-ayrılıqda düzgün hesab etmirlər. Belə bir e'tiqadı olanları isə küfrdə ittiham edirlər.

İsmailiyyənin diqqət yetirdikləri ən mühüm məsələlərdən biri də imamət məsələsidir və bu barədə növbəti dərsimizdə söhbət açacağıq.

**Nəticə**

Deməkk, İsmailiyyə bu dörd nəfər şəxsin fəaliyyəti nəticəsində meydana gəlmişdir. Bu məzhəb sonralar bir neçə firqəyə bölünsə də, bə’zi müsəlman ölkələrində tarixi cərəyanlarda öz tə’sirini qoymağa, hətta dövlət tə’sis etməyə nail oldu. Beləliklə, tarixin enişli-yoxuşlu mərhələlərini keçərək öz ətrafına minlərlə tərəfdar yığaraq öz mövqeyini bu günkü günədək qoruyub saxlaya bilmişdir.

Həmçinin, imamət məsələsi İsmailiyyə e’tiqadının əsas hissəsini təşkil edir. Onlar əqidə əsaslarına dair yazılmış kitablarında imamət mövzusuna xüsusi fəsl ayıraraq bu barədə geniş izahlar vermişlər. İmamət məsələsi geniş mövzulardan biri olmaqla yanaşı, digər məzhəb və firqələrdən fərqli olaraq, İsmailiyyənin ən şübhəli və əsraramiz əqidə əsasını təşkil edir.

**Ədəbiyyat**

1- Qurani-kərim

2- İslam məzhəbləri ilə tanışlıq (əsas mənbə), tədqiqat qrupu 2014

3- Vəhhabi məzhəbi (Cə'fər Sübhani), 1386

4- İsmailiyyə haqq və batil arasında (Haşim Osman), 1398

5- Şiəliyin tarix boyu göstərdiyi səylər (Haşim Mə'ruf Hüseyni).

6- Məzhəblər və dinlər haqda bəhslər (Cə'fər Sübhani).

7- Əl-bidayə vən-nihayə (İbni Kəsir)